Xalqın qəzeti!
# Xalq qəzeti
№ 219 (30335) 8 oktyabr 2023-cü il, bazar
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti xalqqəzeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Azərbaycan–Türkiyə qardaşlığı, birliyi və strateji müttəfiqliyi nümunəvi xarakter daşıyır və özünün ən yüksək zirvəsindədir. Qarşılıqlı etimad, dəstək və həmrəylik kimi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimiz, eyni zamanda, regional əməkdaşlığa, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verir.**

# Növbəti Brüssel raundu

## *Yaxud ötən ilin fiasko ehtimalı?*



**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti görüş oktyabrın sonlarına doğru keçirilə bilər. Bununla bağlı indidən dəqiq fikir bildirmək çətin olsa da, təmasın gerçəkləşəcəyinə dair ümidlər var. Amma şübhələr də yox deyil...**

Birincisi, Azərbaycan sülhə sadiqdir. Oktyabrın 5-nə təyin edilmiş Qranada sammitində iştirakdan imtina heç bir halda danışıqlardan yayınma kimi dəyərləndirilə bilməz. İkincisi, Cənubi Qafqazda sülh ən çox Azərbaycana lazımdır. Hərçənd, Ermənistan da sülh və əminamanlıq mühitinin özü üçün faydalarını görməli və düşünməlidir. Düşünürmü, bunu demək çətindir. Elə İrəvanın anti-Azərbaycan ritorikasına görədir ki, liderlərin oktyabrın sonlarına doğru planlaşdırılmış təmasının təşkilinə şübhələr var. Yazımızda bu barədə söz açacaq və belə bir nəticəyə gələcəyik ki, yaxın keçmişin təkrarlanma ehtimalı böyükdür...

*(ardı 2-ci səhifədə)*

# Ölkələrimiz arasında əlaqələr uğurla inkişaf edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.**



Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə təbrik edib, ona dövlətçilik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, əməkdaşlığın perspektivləri və yeni təmaslar ilə bağlı məsələləri müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

# 3+3 formatı gündəmdədir

**Vətən müharibəsinin başa çatmasından az sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən və region dövlətləri arasında sıx əlaqələri və inteqrasiyanı nəzərdə tutan "3+3" formatı təkcə yerli ekspertlərin deyil, beynəlxalq ictimaiyyətin də diqqətini cəlb edib. Söhbət Cənubi Qafqazda 6 ölkənin iştirakını nəzərdə tutan yeni əməkdaşlıq formatından gedir. Həmin əməkdaşlıq formatının bir tərəfi Türkiyə, Rusiya və İran, digər tərəfi isə Azərbaycan, Gürcüstan və Ermənistandır.**

Hər bir məsələdə Azərbaycanla həmrəylik nümayiş etdirən qardaş Türkiyə ölkəmizin bu təşəbbüsünə də tam dəstək ifadə edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilk günlərdən bildirmişdi ki, "3+3 formatının fəaliyyətə başlaması regionda sülh və sabitliyə böyük töhfə verəcək.



*(ardı 3-cü səhifədə)*

# Azərbaycan və Türkiyə enerji sektorunda da bir-birinin yanındadır




**Azərbaycan və Türkiyə iqtisadiyyatın bütün sahələrində, xüsusən də energetika sahəsində uzun illərdir, uğurlu və səmərəli əməkdaşlıq edirlər. Hazırda hər iki ölkədə əlverişli biznes mühiti hökm sürür, investisiyaların təşviqi və qorunması ən yüksək səviyyədədir. Məhz bunun nəticəsidir ki, Azərbaycan və Türkiyə şirkətləri qarşılıqlı olaraq ölkələrimizin iqtisadi həyatında uğurla fəaliyyət göstərirlər.**

Yeri gəlmişkən, bu ilin iyul ayında Türkiyədə Azərbaycan kapitalı ilə 151 şirkət qeydiyyata alınıb. Ümumilikdə isə, ötən müddətdə Türkiyədə 2 minə yaxın Azərbaycan şirkəti qeydiyyatdan keçib. Həmin şirkətlər indiyədək qardaş ölkəyə 20 milyard dollardan çox sərmayə yönəldiblər.

*(ardı 3-cü səhifədə)*

# Hayastanı narkomafiya idarə edirmiş

**Ermənistan işğalçılıq, separatçılıq, terrorçuluqla yanaşı, həm də narkotik maddələrin becərilməsi və daşınması ilə məşğul olub. Ölkə mafioz qruplaşmalarla əlbir fəaliyyət göstərib. Azərbaycana qarşı ərazi iddiasında olduğu və Qarabağı 30 il ərzində işğal altında saxlayan separatçı-daşnak "çete"si soydaşlarımıza qarşı misli görünməmiş cinayətlər törətməklə yanaşı, eyni zamanda, ekoloji terrora əl atmaqdan çəkinməyib.**



Qarabağımızın bütün yeraltı, yerüstü təbii sərvətlərini talan edən, içməli su hövzələrini zəhərli kimyəvi maddələrlə çirkləndirən haylar, bu, azmış kimi, əkinə yararlı torpaqlarımızda narkotik plantasiyaları da salıblar. Otuz il davam edən işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda nəzarətdən kənarda qalmış torpaqlar sadəcə narkotikanın becərildiyi ərazi deyil, həm də narkotranzit rolunu oynayıb. Qarabağdan keçən narkotik vasitələr ilk növbədə Avropaya, Uzaq Şərqə, Yaponiyaya qədər daşınıb. Separatçı-daşnak rejimi Qarabağda narkotik maddələrin satışından əldə etdiyi vəsaitdən silahlanmaq, mövqelərini möhkəmləndirmək və torpaqlarımızın işğal altında saxlanılmasını uzatmaq siyasətini aparmaq, ələlxüsus da, terror aktlarını həyata keçirmək üçün istifadə edib. Elə bu amili nəzərə alaraq əminliklə deyə bilərik ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlaması təkcə ölkəmiz üçün deyil, eyni zamanda, region üçün böyük təhlükə mənbəyi olub.

*(ardı 4-cü səhifədə)*

# İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələrimiz dərinləşir

Səhifə ⇨ 7



# "Həmas" yaraqlıları İsrailə raket hücumu ediblər

**"Həmas" qruplaşması şənbə günü İsrailə raket zərbələri ilə qəfil hücum edib. Ölən və yaralananlar var. İsrail ordusu cavab olaraq, müharibə hazırlığı elan edib və ehtiyatda olan hərbçiləri orduya çağırıb.**

İsrailin Fövqəladə Hallar Xidmətinin məlumatına görə, Fələstinin hücumu nəticəsində azı 200-dən çox adam həlak olub. "Reuters" agentliyinin mənbəyi ölkənin səhiyyə nazirinə istinadən 1452 nəfərin yaralandığını bildirib.

"Həmas" silahlıları 20 dəqiqə ərzində İsrail ərazisinə 5 min raket zərbəsi endirildiyini bildirərək hücuma görə məsuliyyəti öz üzərlərinə götürüblər.

*(ardı 8-ci səhifədə)*

# Ruben Vardanyanın "sandığı açılsa..."




**Əslində, bizim belə bir üzrxahlığa ehtiyacımız da yoxdur. Çünki beynəlxalq aləmdən alacağımızı almışıq. Həm mənfi, həm də müsbət mənada. Bizə bədxahlıq edənlərin də əməllərini görmüşük, dostluq, tərəfdaşlıq edənlərin də.**

Ən başlıcası isə, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətinin və xalqının qarşısına qoyduğu mühüm vəzifələri yüksək səviyyədə yerinə yetirmişik. Həmin vəzifələr Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi, respublikamızın beynəlxalq aləmin əsas aktorlarından birinə çevrilməsi, ərazi bütövlüyümüzün bərpası və bütün ərazilərimizdə suverenliyin təmin olunması idi.

*(ardı 4-cü səhifədə)*

# "Axırıncı aşırım"da qalan kişilər



Səhifə ⇨ 10

# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident,**
**Əziz Qardaşım!**

Türkiyə Respublikasının aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayının keçirilməsi və Sizin yekdilliklə partiyanın Sədri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi və rəhbərlik etdiyiniz partiyanın bütün üzvlərini ürəkdən təbrik edirəm. Bu, milli iradənin ifadəsi, Ədalət və İnkişaf Partiyasının üzvlərinin Sizə olan sonsuz inam, etimad və dəstəyinin aşkar təzahürü, qardaş Türkiyənin inkişafı və yüksəlişi naminə göstərdiyiniz xidmətlərə verilən ali qiymətdir.

Ədalət və İnkişaf Partiyasının Böyük Qurultayı Türkiyə Respublikasının ictimai-siyasi həyatında tarixi hadisədir. Əminəm ki, Qurultayda qəbul olunmuş mühüm qərarlar partiyanın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə, qardaş xalqınızın rifahı naminə qarşıya qoyulmuş yeni hədəflərə çatmağa, ölkənizin yeni sosial-iqtisadi inkişaf mərhələsini təmin edəcək “Türkiyə Yüzyılı” baxışının həyata keçməsinə müstəsna töhfə verəcəkdir.

Qurucusu və rəhbəri olduğunuz Ədalət və İnkişaf Partiyası yarandığı gündən özünün proqram müddəalarına, bəyan etdiyi prinsip və amallara sadiqlik nümayiş etdirərək Türkiyə dövləti və xalqı qarşısında ləyaqətlə və şərəflə xidmət etmiş, hər bir sahədə böyük uğurlara imza atmış, ölkənizin qlobal güc mərkəzinə çevrilməsinə və beynəlxalq aləmdə yüksək nüfuz qazanmasına müvəffəq olmuşdu. Bütün bu nailiyyətlərdə Sizin əvəzsiz rolunuz və misilsiz əməyiniz vardır. Məhz buna görə Sizin adınız Türkiyə dövlətçiliyinin tarixinə əbədi olaraq həkk olunub.

Biz də Sizin müdrik və qətiyyətli rəhbərliyiniz altında Türkiyənin qazandığı uğurlara, onun dünyada artan nüfuzuna sevinir, bundan qürur duyuruq. Böyük fərəh hissi ilə qeyd etmək istəyirəm ki, hazırda Azərbaycan-Türkiyə qardaşlığı, birliyi və strateji müttəfiqliyi nümunəvi xarakter daşıyır və özünü ən yüksək zirvəsindədir. Qarşılıqlı etimad, dəstək və həmrəylik kimi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimiz, eyni zamanda, regional əməkdaşlığa, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verir.

Əminəm ki, qardaş xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan və “Bir millət, iki dövlət” prinsipinə əsaslanan Azərbaycan ilə Türkiyə arasında münasibətlər birgə səylərimizlə bundan sonra da yüksələn xətlə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Bir daha Sizə və Ədalət və İnkişaf Partiyasının hər bir üzvünə ən səmimi təbriklərimi çatdırır, partiyanın işinə bundan sonra da müvəffəqiyyətlər, qardaş Türkiyə dövlətinə və xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 7 oktyabr 2023-cü il**

# Rəcəb Tayyib Ərdoğan yenidən Sədr seçilib




**Oktyabrın 7-də Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) növbədənkənar Böyük Qurultayı keçirilib.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 1399 etibarlı səslə yenidən Ədalət və İnkişaf Partiyasının sədri seçilib.

Partiyanın 75 nəfərdən ibarət Mərkəzi Qərar və İdarə Heyəti də eyni səsvermə ilə müəyyənləşib.

Xatırladaq ki, Qurultayda qonaq qismində ölkəmizi Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

**XQ**

# İşçi qrupu İsrailə hücumları pisləyib

**Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun İsrailə qarşı genişmiqyaslı hücumlar ilə bağlı bəyanat yayıb.**

Bəyanatda bildirilir: “Bu gün Qəzza sektorunun ərazisindən İsrailə qarşı baş vermiş, mülki obyektləri, yaşayış məntəqələrini və şəxsləri qəsdən hədəf alan raket zərbələri ilə müşayiət edilən hücumları qətiyyətlə pisləyirik.

Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupu bu amansız hücumlarda həyatlarını itirmiş şəxslərin ailələrinə və yaxınlarına başsağlığı verir, yaralananlara isə şəfa diləyir.

Bu çətin zamanda İsrail xalqının yanındayıq”.

**XQ**

# Sülhməramlıların Əsgəranda daha bir məntəqəsi bağlandı

**Rusiya sülhməramlıları kontingenti Əsgəranda müşahidə məntəqələrini bağlayıblar.**

Bu barədə Rusiya Müdafiə Nazirliyinin məlumat bülletenində bildirilib.

Qeyd olunub ki, Rusiya sülhməramlıları tərəfindən Qarabağdakı silahlı birləşmələrin anbarlarında olan silahların, hərbi texnikanın, atıcı silahların və döyüş sursatlarının hesablanması başa çatıb. Oktyabrın 7-nə olan məlumata görə, 92 ədəd zirehli texnika, 142 ədəd avtomobil texnikası, 124 ədəd hava hücumundan müdafiə texnikası, 112 ədəd səhra artilleriya qurğusu, YARS və minaatan, 1 ədəd PUA, 7 min ədəddən çox atıcı və tank əleyhinə silah, təxminən 66,1 milyon sursat təhvil verilib.



Rusiya Müdafiə Nazirliyinin bülletenində, həmçinin deyilir ki, silah, hərbi texnika və sursat anbarlarının mühafizəsi Rusiya-Azərbaycan birgə mühafizə postları tərəfindən təşkil edilib.

# Azərbaycan öz suverenliyini tam bərpa edib

**Azərbaycanın həyata keçirdiyi tədbirlər ərazi bütövlüyünü bərpa etmək üçün idi. Azərbaycan öz suverenliyini tam bərpa edib.**

“Mehr” informasiya agentliyi xəbər verir ki, bu sözləri İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-polkovnik Məhəmməd Hüseyn Baqeri deyib. O bildirib: “Bizim Qafqazda iki qonşumuz var. Bunlardan biri Azərbaycan, digəri isə Ermənistandır. Biz bu dövlətlərin arasında sülhün olmasını istəyirik və bu istiqamətdə vasitəçi olmağa hazırıq”.

Tehrandakı Ali Hərbi Məktəbdə dərs ilinin başlaması münasibətilə çıxış edən general diqqətə çatdırıb ki, İran həmişə Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və suverenliyinə hörmətlə yanaşıb.

**XQ**

# Avropa Parlamentinin anti-Azərbaycan bəyanatı ksenofob və şovinist yanaşma əsasında qəbul edilib

**Oktyabrın 7-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti əsnasında regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı qeyd edib ki, Qranadada Azərbaycanın iştirakı olmadan Azərbaycan adının dördtərəfli bəyanata daxil edilməsi düzgün yanaşma deyil. Prezident İlham Əliyev, həmçinin Fransanın məlum mövqeyinə görə Azərbaycanın Qranadadakı görüşdə iştirak etmədiyini bildirib. Dövlətimizin başçısı xüsusilə vurğulayıb ki, Fransanın Ermənistana silah verməsi sülhə deyil, yeni qarşıdurmaya xidmət edən yanaşmadır və əgər regionda hər hansı yeni qarşıdurma baş verərsə, bunun səbəbkarı məhz Fransa olacaq.

Eyni zamanda, dövlətimizin başçısı Avropa Parlamenti tərəfindən ksenofob və şovinist yanaşma əsasında qəbul edilmiş anti-Azərbaycan xarakterli bəyanatın, orada səsləndirilən fikirlərin qəbuledilməz olduğunu diqqətə çatdırıb, bunun regionda sülhün və sabitliyin təmin olunmasına xidmət etmədiyini deyib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə edərək suverenliyini tam şəkildə təsbit edib və öz ərazisində mövcud olan qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsini təmin edib. Bu baxımdan Azərbaycanın atdığı addımlar beynəlxalq hüquqa tam şəkildə uyğun olub. Dövlətimizin başçısı əlavə edib ki, əksinə, bu məsələni başa düşməyən dövlətlərin özlərinin dünyanın müxtəlif bölgələrində həyata keçirdikləri siyasətlərinə görə beynəlxalq hüquqla ciddi problemləri var.

Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağdan olan erməni sakinlərə humanitar yardımların göstərildiyini və onların qeydiyyatı prosesinin başlandığını bildirib. Azərbaycan Prezidenti vurğulayıb ki, məhz qondarma rejim erməniləri ərazini tərk etməyə və oradan köçməyə məcbur edib.

Prezident İlham Əliyev Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, bu kəndlərin işğaldan azad olunmasının vacibliyini vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanla İran arasında regional nəqliyyat dəhlizinin yaradılması istiqamətində işlərin aparıldığını qeyd edib, bu xüsusda Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin keçirildiyini deyib.

Şarl Mişel öz növbəsində Avropa İttifaqının Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində səylərini davam etdirməyə hazır olduğunu bildirib.

**Prezidentin Mətbuat Xidməti**

# Növbəti Brüssel raundu

## *Yaxud ötən ilin fiasko ehtimalı?*

**(əvvəli 1-ci səhifədə)**



Bəli, Azərbaycan Qranada görüşündən imtina etsə də, əslində, durumun hansı səbəbdən formalaşdığına diqqət yetirmək lazımdır. Əlbəttə, gözlər önünə Fransa Prezidenti Emmanuel Makron gəlir. O Makron ki, hazırda dünya ermənipərəstliyinin mərkəzində dayanmış başlıca fiqurdur. Necə deyərlər, Fransa lideri Roma papasından daha artıq katolik olmaq istəyinə girişib. Onun “canfəşanlığı” sərhəd tanımır və belə bir adamla eyni masa arxasında əyləşmək, əlbəttə ki, olmaz. Nəinki olmaz, bu, həm də səmərəsizdir. Deməli, Makronun, ümumən, Azərbaycan–Ermənistan danışıqları müstəvisindən tamamilə uzaqlaşdırılması şərtdir. Hazırda Bakının etdiyi elə budur.

***

Bakı Brüssel prosesinə sadiqdir. Niyə də sadiq olmasın? Nəhayət, bu platforma ölkəmizə diplomatik qələbə qazandırıb. Nəzərə alaq ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü Brüssel raundu çərçivəsində tanıyıb. Yəni, Makronun ermənipərəstliyinə görə bu platformadan imtinaya dəyməz. Deməli, formatı Fransanın “zəhərindən” təmizləmək zəruridir. Dediyimiz kimi, Bakının çalışdığı da elə budur. Bu, həm də ümumi işin xeyrinədir və mövcud məqamı Azərbaycan Prezidentinin köməkçisi – Prezident Adminstrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev kifayət qədər dolğun izah edib. Əlbəttə, Hikmət müəllimin izahı, eyni zamanda, Türkiyənin Cənubi Qafqazdakı rolunun qiymətləndirilməsi, bu rolun Parisin bölgədəki hegemonluq niyyətinə alternativ olaraq qoyulması idi: “Fransanın regionda qərəzli və militarizasiya siyasətinə, Cənubi Qafqazda regional sülh və sabitliyə zərər gətirən və Avropa İttifaqının Cənubi Qafqaz siyasətini risk altına qoyan addımlarına və rəsmi Bakının israrına baxmayaraq, region ölkəsi olaraq qardaş Türkiyənin beşli formatda (Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Fransa və Almaniya) olan görüşdə iştirakına imkan verilməməsinə görə Azərbaycan Qranadada iştirak etməməyə qərar vermişdir. Biz, həmçinin ev sahibi olaraq İspaniyanın da bu formatda olan görüşdə iştirakının tərəfdarı idik.

Bəzi beynəlxalq media resurslarında bunun Azərbaycanın Ermənistanla təmaslardan və ya danışıqlardan imtina etməsi kimi təqdim edilməsi düzgün deyildir. Azərbaycan Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında Brüsseldə tezliklə üçtərəfli görüşlərə hazırdır. Azərbaycan tərəfi, eyni zamanda, Azərbaycan – Ermənistan münasibətlərinin normallaşdırılması prosesi və sülh müqaviləsi üzrə birbaşa və ikitərəfli dialoqu və danışıqları dəstəkləyir. Fürsətdən istifadə edərək İspaniyadan olan həmkarlarımızı və dostlarımızı Avropa Siyasi İcmasının Qranada görüşünü uğurla təşkil etmələri münasibətilə təbrik edirik və Ermənistan – Azərbaycan dialoquna töhfə vermək niyyətlərinə görə təşəkkür edirik”.

Azərbaycanın Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelinin iştirakı ilə aparılan Avropa İttifaqı, Azərbaycan və Ermənistan formatında olan üçtərəfli Brüssel prosesini və regional sülh gündəliyini dəstəklədiyini vurğulayan H.Hacıyev onu da bildirib ki, sülh müqaviləsi daxil olmaqla, bir çox müsbət təşəbbüslərin müəllifi məhz ölkəmizdir. Nəzərə alaq ki, 44 günlük müharibədəki qələbədən sonra məğlub İrəvana sülh əlini uzadan Bakı olub.

Fransanın Brüssel formatında iştirakının yolverilməzliyi məntiqində bir məqsəd İrəvana aşkar dəstək verən Parisə qarşılıq Azərbaycanın öz tərəfini – Ankaranı önə çəkmək istəyirdisə, digər yandan, ümumən, Cənubi Qafqazda sülhün fransız egidaçılığına qarşı demarş xəttini ortaya qoymaq əsas götürülür. Məlum olduğu kimi, Avropa Siyasi Birliyi ideyası Fransaya, daha doğrusu, ölkə Prezidenti Emmanuel Makrona məxsusdur. Makron çalışırdı ki, bu platformasının üçüncü zirvə toplantısında Bakı – İrəvan münasibətləri müstəvisində hansısa sənəd imzalansın. Əlbəttə, buna qismən nail oldu. O anlamda ki, Ermənistan baş naziri vaxtilə Brüssel formatı çərçivəsində bildirdiklərini təkrarladı. Yəni, Azərbaycanın suverenliyini tanıdığını imzası ilə təsdiqlədi. Makron isə mətbuat konfransında bunu reklam etdi. Əlbəttə, Yelisey sarayının rəhbəri həmin konfransda yolverilməz ritorikaya baş vurmaqla da diqqət mərkəzinə gəldi. Bununla nəinki anti-Azərbaycan mövqeyini bir daha təsdiqlədi, həmçinin Avropa Siyasi Birliyi sənədlərində əksini tapmış mütərəqqi ideyalarına xəyanət yolunu tutdu. Bu, öz yerində.

Ancaq vurğulanmalı bir neçə məqam var. Birincisi, əgər Azərbaycan Prezidenti toplantıda iştirak etsəydi, onun orada olmadığı müddətdə imzalanmış sənəd ərsəyə gələcəkdimi? Demək mümkündümü ki, Makron danışıqların gündəliyinə ermənipərəst niyyətdən irəli gələn başqa nələrinsə daxilinə baş vurmayacaqdı? Axı bir dəfə bunu edib. 2022-ci ilin oktyabrında. Azərbaycan – Ermənistan sərhədinə sayı əvvəl qırx, sonra əlli, daha sonra isə iki yüzə çatan mülki missiya göndərmək məsələsi məhz Fransa liderinin düşüncəsidir.

Bəli, Makron Qranada masasına, son bir neçə ayda özünü daha böyük həyasızlıq elementləri ilə göstərən, ermənipərəst ritorikasına uyğun nələrisə çıxarmağa cəhd göstərə bilərdi. Alınmadı və indiki durumda Paşinyanın imzaladığı sənəd heç nədir. Bunu yaxşı bilir. Öz-özünə o qədər imzalasın ki? Gülünc deyilmi? Əvvələ, bu sənəd bildirdiyimiz kimi, əvvəlkilərin təkrarıdır. Yəni, yenilik deyil və yenilik olmadığından, Nikol təzbazar onu imzaladı. Bununla da Makron Avropa Siyasi Birliyi platformasının, guya, məhsuldarlığını göstərmək istədi. Halbuki, təkcə Azərbaycan–Ermənistan məsələsi ilə bağlı yox, digər məqamlarda da sözügedən platformanın nüfuzsuzluğu göz önündədir. Makron beynəlxalq ictimaiyyəti yanıltmaq fikrinə düşməsə, daha faydalı və səmimi təsir bağışlayar. Ancaq o, səmimi deyil və bunun əlavə sübuta ehtiyacı yoxdur.

***

Fransa Prezidentinin Qranada sammiti çərçivəsində keçirdiyi mətbuat konfransında Azərbaycan əleyhinə hədyanlar yağdırması da fikrimizin təsdiqidir. Elə ona görə də ölkəmizin Xarici İşlər Nazirliyinin Makronun dedikləri ilə bağlı yaydığı şərhdə bildirilib: “Azərbaycana təzyiq edilməsinə çağıran Fransa tərəfinə xatırlatmaq istərdik ki, Azərbaycanla təzyiq dilində danışmaq mənasız və qəbuledilməzdir. Belə məsuliyyətsiz bəyanatlar vermək əvəzinə, Fransanın bölgəmizdə təcavüzkar Ermənistanın dəstəklənməsi və silahlanmasına yönəlmiş, bölgədə sülh və sabitliyə mane olan məkrli siyasətinə son qoyması daha faydalı olardı”.

Göründüyü kimi, Makronun Avropa Siyasi Birliyi platformasını da Azərbaycana qarşı antipatiya alətinə çevirmək niyyəti göz qabağındadır. Yəqin, elə buna görədir ki, Aİ Şurasının prezidenti Qranadadan ayrılar-ayrılmaz üçtərəfli görüş formatını yenidən gündəmə gətirdi. Çünki cənab Mişel yaxşı anlayır ki, onun missiyasını pozan Makrondur. Bu səbəbdən təmsil etdiyi təşkilatı Azərbaycan – Ermənistan münasibətlərinin tənzimlənməsi məsələsində Fransanın təsirindən uzaq tutmağa çalışır. Əslində, onun başqa yolu yoxdur. Ortada Azərbaycan özü ayrıca faktordur. Bu faktoru Makron Fransası ermənipərəstlik mərəzi səbəbindən görməsə də, Mişel yaxşı görür və dəyərləndirir.

Nəhayət, haqqında söz açdığımız yaxın keçmişin təkrarlanması ehtimalı üzərinə gələrək şübhəmizi bəyan edək. İndiyədək söylədiklərimiz fonunda belə bir sual meydana çıxır: Növbəti Brüssel raundu alınmaya bilərmi? Axı, ötən ilin son ayına təsadüf etmiş mənfi təcrübə var. Dekabrın 7-də Azərbaycan və Ermənistan liderləri Ş.Mişelin vasitəçiliyi ilə Brüsseldə görüşməli idilər. Görüşə az qalmış N.Paşinyan bildirdi ki, Belçikanın paytaxtına bir şərtlə gedir ki, Makron da orada olsun. Azərbaycan isə Fransa liderinin toplantıda iştirakına razı olmadığından, planlaşdırılmış təmas gerçəkləşmədi. İndi Fransa – Ermənistan “bacılığı” daha da dərinləşib. Paşinyan yenə deyə bilər ki, “böyük bacımsız” İrəvandan çıxmıram. Deməli, yaxın keçmişin hadisələrinin təkrarlanma ehtimalı böyükdür. Həm də ona görə böyükdür ki, Fransa – Ermənistan tandeminin niyyəti sülh deyil və bunu hər vasitə ilə ortaya qoyur.

*Əvəz CAHANGİROĞLU*
**XQ**

# 3+3 formatı gündəmdədir

## Bu format Cənubi Qafqazda əməkdaşlığın inkişafı üçün yeni üfüqlər açır



**(əvvəli 1-ci səhifədə)**

Gürcüstan istisna olmaqla bölgənin digər ölkələri də təşəbbüsə razılıq vermişdilər. Hətta bu format çərçivəsində bir neçə dəfə görüş keçirilmişdi. Rəsmi Tbilisinin formatda iştirakdan imtinasına səbəb isə Rusiya ilə münasibətlərdə yaranmış soyuqluq idi. Ölkənin sabiq Xarici işlər naziri David Zalkaliani bildirmişdi ki, Gürcüstan ərazilərini öz nəzarəti altında saxladığı müddət ərzində Rusiya ilə əməkdaşlıq formatında iştirak etməyəcək. D.Zalkaliani qeyd etmişdi ki, bu formatda əməkdaşlıq, iştirakçı ölkələrin beynəlxalq hüququn təməl prinsiplərinə, o cümlədən ölkələrin suverenliyi və ərazi bütövlüyünün tanınmasına hörmət göstərmələrini tələb edir. O bildirmişdi ki, Gürcüstan üçtərəfli formatda (Gürcüstan, Azərbaycan və Türkiyə) əməkdaşlığı uğurlu sayır. “Bu format artıq Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP, Bakı–Tbilisi–Qars kimi layihələrdə öz əksini tapmaqla cəlbediciliyini sübut edib”, – deyə sabiq nazir qeyd etmişdi.

Onu da deyək ki, Gürcüstanın bu mövqeyi Bakı və Ankarada anlayışla qarşılanır. Vaxtilə Türkiyənin sabiq Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirmişdi ki, Ankara Gürcüstanın bu məsələyə ehtiyatlı yanaşmasına hörmət edir və onu başa düşür. “Mürəkkəb şərait olduğu halda – Abxaziya və Cənubi Osetiyanı nəzərdə tuturam – Rusiya ilə ikitərəfli danışıqlara başlamaq çətindir, lakin çoxtərəfli formatda müzakirələr daha asan olardı”, – deyə M.Çavuşoğlu bildirmişdi.

Bundan əlavə, ötən ilin sonu, bu ilin əvvəllərində Azərbaycan–İran münasibətlərində yaranan soyuqluq da 3+3 formatında əməkdaşlığın baş tutmasına imkan verməmişdi. O vaxt iki ölkənin münasibətləri Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən ötən dövr ərzində ən gərgin dövrünü yaşayırdı. Cari ilin ikinci yarısından etibarən Azərbaycan–İran münasibətlərində yumşalma meyilləri hiss olunmağa başladı.

Azərbaycan–İran əlaqələrinin inkişaf kursu götürməsinin bariz nümunəsi İran İslam Respublikasının Yol və şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının İran tərəfdən həmsədri Mehrdad Bəzrpaşın bugünlərdə ölkəmizə səfər etməsi oldu. Nazir oktyabrın 6-da Prezident İlham Əliyev tərəfindən qəbul edildi. Dövlətimizin başçısı qəbul zamanı Azərbaycan–İran dostluğunun və əməkdaşlığının bütün bölgə üçün önəmli amil olduğunu vurğuladı. Prezident İlham Əliyev regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini bildirərək, bu xüsusda 3+3 əməkdaşlıq formatının da təşəbbüskarının məhz Azərbaycan olduğunu qeyd etdi və tezliklə bu formatda görüşlərin keçiriləcəyini müsbət bir addım kimi qiymətləndirdi.

Qeyd edək ki, M.Bəzrpaş Azərbaycana səfəri ilə bağlı açıqlamasında ölkəmizin İrandakı səfirliyinin fəaliyyətini bərpa edəcəyini açıqlayıb. Onun sözlərinə görə, Azərbaycan səfirliyinin fəaliyyətinin tez bir zamanda bərpası üçün İran tərəfi xahiş edib. Azərbaycan tərəfi isə bu istiqamətdə qısa müddətdə addımların atılacağına söz verib.

Bugünlərdə İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nasir Kənani Tehranda keçirdiyi mətbuat konfransında deyib ki, rəsmi Tehran Qafqaz regionunda sülh və sabitliyin hökm sürməsində maraqlıdır: “Biz regionun bütün ölkələrinin maraqlarını təmin edən kommunikasiyaların inkişafının tərəfdarıyıq. İran region dövlətləri arasındakı məsələlərin 3+3 formatında həll olunmasını istəyir və bölgəyə kənar qüvvələrin cəlb edilməsinin əleyhinədir”. Beləliklə, aydın olur ki, 3+3 formatında əməkdaşlığın baş tutması yolunda maneə olan daha bir səbəb aradan qalxmaq üzrədir.

Qeyd olunan formatda əməkdaşlığın inkişafına daha bir maneə Ermənistanın mövqeyidir. Düzdür, İrəvan formata qarşı çıxmır. Hətta, 2021-ci il dekabrın 10-da bu formatda Moskvada keçirilən görüşdə də xarici işlər nazirinin müavini səviyyəsində təmsil olunub. Buna baxmayaraq, Ermənistanla Azərbaycan arasında bir sıra problemlərin hələ də həllini tapmaması, o cümlədən iki ölkənin sərhədlərinin delimitasiya və demarkasiya olunmaması, sülh müqaviləsinin imzalanmaması, İrəvanın regional kommunikasiyaların açılmasına imkan verməməsi iki ölkənin əməkdaşlıq imkanlarına mənfi təsir göstərir.

Azərbaycan sentyabrın 19-20-də keçirdiyi antiterror tədbirləri nəticəsində Qarabağ iqtisadi rayonunda suverenliyini tam bərpa etdi. Ermənistan rəhbərliyi də Azərbaycanın bu ərazilər üzərindəki suverenliyini tanıdığını hələ may ayında ən yüksək səviyyədə bəyan edib. Baş nazir Nikol Paşinyan həmin mövqeyini Avropa Siyasi Birliyinin oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilən III Zirvə görüşündə bir daha vurğulayıb. Beləliklə, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, bundan sonra geniş əməkdaşlıq platformasının yaranması üçün imkanlar yaranır. Zənnimizcə, İrəvan yaranmış bu şansı dəyərləndirməli, açılan fürsət pəncərəsini bağlamamalıdır.

***

Burada diqqət yetirilməli məqamlardan biri də Qərbin Ermənistanı bu platformada iştirakdan yayındıra biləcəyi ehtimalıdır. Sirr deyil ki, son vaxtlar Ermənistan–Rusiya münasibətlərində soyuqluq yaşanır. Buna paralel olaraq, İrəvanın Qərb ölkələri ilə onsuz da yaxşı olan münasibətlərinin daha da istiləşməsi müşahidə olunur. Ehtimal etmək olar ki, Qərb Rusiya–Ermənistan münasibətlərindəki çatları dərinləşdirmək üçün Hayastanı 3+3 platformasında iştirakdan yayındıracaq. Amma İrəvanda onu da bilməlidirlər ki, bu, onların düşdükləri dalanda hələ uzun müddət qalacaqları deməkdir. Ermənistanın Zəngəzur dəhlizinin açılmasına yersiz müqavimət göstərməsi artıq yolun İrandan keçəcəyi ideyasını gündəmə gətirib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sentyabrın 25-də Naxçıvana səfəri zamanı qeyd etdiyi kimi, son zəfərlə birlikdə bölgədə əhatəli normallaşma üçün yeni fürsət pəncərələri açılıb. O, bildirmişdi ki, fürsətin dəyərləndirilməsinə inanır. “Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik. Hər zaman vurğuladığım kimi, sülhün uduzanı olmaz. Biz bu borcu yerinə yetirməkdə qətiyyətli və səmimiyik. Arzumuz qarşı tərəfin də eyni səmimiyyəti göstərməsidir”, – deyən Türkiyə dövlətinin başçısı vurğulamışdı ki, bölgəmizdə sülh, sabitlik və rifahın yaranması xalqlarımıza olan borcumuzdur.

Onu da qeyd edək ki, 3+3 formatı təkcə siyasi və təhlükəsizlik deyil, həm də iqtisadi baxımdan böyük potensial vəd edir. Hesablamalara görə 3+3 formatına daxil olan ölkələrin ümumi iqtisadiyyatı 3 trilyon dollara yaxındır ki, bu da ABŞ, Çin, Yaponiya və Almaniyadan sonra dünyanın beşinci ən böyük iqtisadiyyatı deməkdir. Bu format 331 milyon nəfər əhalisi ilə dünyada üçüncü, ərazisinə görə isə birincidir. Formata daxil olan ölkələr arasında qarşılıqlı sərmayə qoyuluşu, sənaye, aqrar və xidmət sektorunda əməkdaşlıq imkanları çox genişdir. 3+3 formatı regional ticarətin və bu yolla iqtisadi artımın sürətlənməsinə səbəb ola bilər. Cənubi Qafqaz ölkələri üçün böyük satış bazarı olacaq Rusiya, Türkiyə və İranla ticarət əlaqələrinin möhkəmlənməsi və inkişafı, sözsüz ki, 3+3 formatının yaratdığı ən əlverişli imkanlardan biridir.

***Səxavət HƏMİD***
**XQ**

### EKSPERT RƏYİ



**Rizvan HÜSEYNOV,**
**siyasi şərhçi**

**– Azərbaycanın təşəbbüsü olan 3+3 formatında əməkdaşlıq hər zaman diqqət mərkəzindədir. Bu əməkdaşlıq modeli uzun müddətdir ki, müzakirə olunur. Hətta bununla əlaqədar müəyyən görüşlər də keçirilib. Platforma çərçivəsində üç Cənubi Qafqaz ölkəsi və onlara qonşu olan Rusiya, İran və Türkiyə arasında iqtisadi, kommunikasiya əlaqələrinin qurulması nəzərdə tutulur ki, bu da, bütövlükdə, regionun geosiyasi mənzərəsini əhəmiyyətli dərəcədə dəyişə bilər. Gürcüstan istisna olmaqla, digər dövlətlər ötən dövr ərzində 3+3 formatında əməkdaşlıq platformasını dəstəklədiklərini bəyan ediblər. Təşəbbüsün reallığa çevrilməsi üçün praktiki addımlar atılıb.**

**Verilən son açıqlamalar təşəbbüsün aktual olduğunu, əməkdaşlıq imkanlarının müzakirə ediləcəyini göstərir. Çünki 3+3 formatında əməkdaşlıq platforması bütün tərəflər üçün siyasi və iqtisadi mənfəət vəd edir. Bu platforma siyasi-diplomatik və təhlükəsizlik baxımından əhəmiyyətli olmaqla yanaşı, mühüm iqtisadi-ticari önəmə də malikdir. Bölgəmizdə yaranmış yeni reallıqlar fonunda 3+3 formatında əməkdaşlıq mexanizmi real və perspektivlidir. İndiyədək Benilüks və Skandinaviya, bir sıra Latın Amerikası və Cənub-Şərqi Asiya ölkələrinin regional platformalar çərçivəsində əməkdaşlıq nümunələri yaratması reallıqdır. Bu mənada 3+3 formatı da real siyasi-iqtisadi platformaya çevrilə bilər. Təbii ki, əsas məsələ tərəflərin siyasi iradə nümayiş etdirməsidir.**

# YAP–AK Parti münasibətləri dostluq və qardaşlığa xidmət edir



**Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz qardaş ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Cevdet Yılmaz iki dost və qardaş ölkə olan Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin uğurla inkişaf etdiyini söyləyib.

Vitse-prezident qeyd edib ki, nümunəvi xarakter daşıyan Türkiyə-Azərbaycan işbirliyi regional və beynəlxalq əhəmiyyətə malikdir. C.Yılmaz vurğulayıb ki, iki ölkənin münasibətləri xalqlarımızın birliyini ifadə edən möhkəm təməl üzərində qurulub və dostluğumuz, qardaşlığımız əbədidir. Türkiyə və Azərbaycan beynəlxalq platformalarda bir-birini fəal şəkildə dəstəkləyir.

Səmimi qəbula görə minnətdarlığını bildirən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iki ölkənin liderləri – Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasətləri nəticəsində Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu, dövlətçilik maraqlarımızın məharətlə təmin edildiyini vurğulayıb.

Tahir Budaqov iki ölkənin hakim partiyaları arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini də diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Qeyd edək ki, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatları - YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, YAP ilə AK Parti arasında əlaqələndirici Ramil Həsən və YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildir.

**XQ**

# İtkin Natiq Qasımov Xocalı rayonunda qətlə yetirilib

**Birinci Qarabağ müharibəsində itkin düşmüş Natiq Qasımovun Xocalı rayonu (keçmiş Əsgəran) ərazisində dəfn edildiyi ehtimal olunur.**

Bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yaydığı məlumatda bildirilib.

Qeyd edilib ki, Natiq Qasımov 1971-ci ildə Azərbaycan Respublikasının Gədəbəy rayonu, Kiçik Qaramurad kəndində anadan olub. Ermənistan silahlı birləşmələrinin Azərbaycanın suveren ərazilərinə hücumu ilə bağlı 1991-ci ildə könüllü olaraq Ağdam rayonunda təşkil edilmiş “Qaradağ şahinləri” taboruna yazılaraq Vətənin müdafiəsində iştirak edib. 1992-ci il 12 martda Xocalı rayonu, Pirlər (Xramort) kəndi istiqamətində gedən döyüşdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb.

Natiq Qasımov Xocalı rayonu, Pirlər kəndi yaxınlığında yüksəklikdə yerləşən Alban kilsəsi uğrunda döyüş zamanı 6 döyüş yoldaşı həlak olduqdan sonra 5 gün ac-susuz orada qalaraq təkbaşına döyüşüb. Gülləsi qurtardığından 6-cı gün, 1992-ci il 12 martda rusiyalı və italiyalı jurnalistlər - Konstantin Smirnov və Enriko Sarzinin şahidliyi ilə Ermənistan hərbçiləri tərəfindən əsir götürülüb. Onun əsir götürülməsi faktı Rusiyada nəşr edilən “Oqonyok” jurnalının 1992-ci il 14 və 15-ci nömrələrində “Strax” adlı məqalədə təsvir edilib.

Erməni girovluğundan azad edildikdən sonra Mingəçevir şəhərində yerləşən “Kür” avarçəkmə bazasında məskunlaşmış Xocalı şəhər sakini, Cəfərov Cəfər Məhəmməd oğlunun ifadəsinə əsasən, Xocalı şəhəri Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunan gün digər Xocalı sakinləri ilə birlikdə o da girov götürülmüş və işğal edilmiş Əsgəran Rayon Polis Şöbəsinin təcridxanasına aparılmışdı. Bir müddət sonra Ermənistan hərbçiləri onu xarici jurnalistlə birlikdə zirehli döyüş maşınına oturdaraq azərbaycanlılara xəbərdarlıq etmək üçün Pirlər kəndinə aparıblar.

Ermənistan hərbçiləri orada Cəfər Cəfərovu Alban kilsəsində mövqe tutmuş Azərbaycan hərbçiləri ilə danışığa göndərmiş, əgər təslim olmasalar, girov götürülmüş Xocalı şəhər sakinlərini sıraya düzüb güllələyəcəklərini bildirmişlər.

Cəfər Cəfərov sürünə-sürünə kilsəyə getmişdi. Lakin o, kilsədə yalnız bir Azərbaycan əsgəri, Qasımov Natiq Səlim oğlu ilə rastlaşmışdı. Natiq Qasımov 5 gün ərzində təkbaşına və ac-susuz döyüşdüyü üçün artıq taqətdən düşübmüş.

Natiq Qsımov Cəfər Cəfərovun: “Axı imkanın var idi nə üçün geri çəkilmədin?” - sualına: “Komandirim mənə mövqeni tərk etməməyi tapşırmışdır. Bir də ki, yuxarıda dalğalanan Azərbaycan bayrağını burada qoyub necə gedə bilərdim?”, – cavabını vermiş və binanın üzərindəki Azərbaycan bayrağını göstərmişdi.

Cəfər Cəfərovun ifadəsinə görə, o, Ermənistan hərbçilərinin şərtini Natiq Qasımova çatdırmış, bununla yanaşı, təslim olmamağı və imkan varsa, geri çəkilməyi məsləhət görmüşdü. Lakin Natiq Qasımov bir canı üçün Xocalı sakinlərinin həlak olmasına yol verməyəcəyini bildirmiş və binanın üzərində asılmış Azərbaycan bayrağını əlinə götürərək Ermənistan hərbçilərinə təslim olmuşdu.

Etibarlı mənbələrdən əldə edilmiş məlumata əsasən, bu qorxmaz Azərbaycan əsgərinin qəhrəmanlığı və şücaəti düşmən hərbçiləri arasında vahimə və psixoloji gərginlik yaratdığı üçün səhra komandiri Vitali Balasanyan Natiq Qasımova erməni əsgərlərin qarşısında müharibə qanunlarına zidd olaraq dəfələrlə ağır və dəhşətli işgəncələr verərək onu qətlə yetirmişdi.

Vitali Balasanyan 1988-ci ildən etibarən Azərbaycan Respublikasının keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində separatizmin qızışdırılmasında və terror aktlarının təşkilində, etnik təmizləmənin aparılmasında, Xocalı soyqırımında yaxından iştirak etmiş, çoxsaylı müharibə cinayətləri törətmişdi. Sonradan Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində yaradılmış separatçı rejimin “müdafiə nazirinin müavini” və “təhlükəsizlik şurasının rəhbəri” olmuşdu.

Məlum olduğu kimi, Ermənistan tərəfi humanitar hüquq normalarının ziddinə olaraq I Qarabağ müharibəsində itkin düşmüş bütün Azərbaycan vətəndaşlarının, o cümlədən Natiq Qasımovun dəfn yeri barədə məlumatları gizlətmiş və bu gün də bu qeyri-insani əməlini davam etdirir.

Natiq Qasımov hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında (Dövlət Komissiyası) I Qarabağ müharibəsində itkin düşmüş şəxs kimi qeydiyyatdadır.

Dövlət Komissiyası I Qarabağ müharibəsində itkin düşmüş bütün Azərbaycan vətəndaşlarının, həmçinin Natiq Qasımovun axtarışlarını davam etdirir. Təəssüf ki, Natiq Qasımovun dəfn yeri barədə Dövlət Komissiyasında məlumat yoxdur. Ancaq ehtimal etmək olar ki, onun meyiti Xocalı rayonu (keçmiş Əsgəran) ərazisində torpaqla örtülüb. Dövlət Komissiyası işğaldan azad edilmiş bütün ərazilərimizdə, həmçinin Xocalı rayonu ərazisində I Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid ehtimal edilən məzar yerlərində qazıntı və ekshumasiya işlərini aparacaq.

**XQ**

# XİN: Müzakirələr, məsləhətləşmələr



**Oktyabrın 6-da xarici işlər naziri Ceyhun Bayramov Serbiya Milli Assambleyasının sədri Vladimir Orliç ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Serbiya arasında əməkdaşlıq gündəliyində duran aktual məsələlər, habelə regionda mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Serbiya arasında müxtəlif sahələr üzrə ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlıq gündəliyinin inkişafında qarşılıqlı təmasların və səfərlərin, xüsusilə iki ölkənin liderləri arasında mövcud siyasi dialoqun əhəmiyyətini məmnunluqla qeyd edib. Serbiyanın keçmiş Ermənistan-Azərbaycan münaqişəsində, habelə postmünaqişə dövründə hər zaman ölkəmizin suverenliyi və ərazi bütövlüyünü tam dəstəklədiyini xatırlayan nazir Ceyhun Bayramov beynəlxalq hüququn bu vacib prinsiplərinə münasibətdə ikili standartların tətbiqinin qəbuledilməz olduğunu vurğulayıb.

Milli Assambleyanın sədri Vladimir Orliç Azərbaycan səfərindən, habelə səfər çərçivəsində Prezident İlham Əliyev tərəfindən qəbul edilməsindən məmnunluq duyduğunu deyib. Bölgədəki vəziyyət və mənzərənin əslində tam aydın olmasına baxmayaraq, beynəlxalq hüquqa və mövcud reallıqlara zidd olaraq bir sıra ölkələr tərəfindən ortaya qoyulan ziddiyyətli mövqelərin təəssüf doğurduğu diqqətə çatdırılıb.

***

**Oktyabrın 6-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Qətər Dövlətinin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Qətər Dövləti tərəfindən xarici işlər üzrə dövlət naziri Soltan bin Saad Al-Mureyxi rəhbərlik edib.

Məsləhətləşmələr zamanı siyasi, iqtisadi, enerji, humanitar, parlamentlərarası əlaqələr sahələri üzrə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlığı Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

***

**Azərbaycan Səudiyyə Ərəbistanının 2034-cü ildə futbol üzrə dünya çempionatına ev sahibliyi etmək təşəbbüsünü dəstəkləyir.**

Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin “X” səhifəsindəki paylaşımında qeyd olunub.

Paylaşımda bildirilib: “İnanırıq ki, çempionat Səudiyyə Ərəbistanında dünya səviyyəli turnir olacaq. Çünki bu dost ölkə çoxsaylı turnirlərə ev sahibliyi edib və futbola köklü həvəsi var”.

**XQ**

# Hayastanı narkomafiya idarə edirmiş

## Ermənilər Qarabağı "ağ ölüm" zonasına çevirmişdilər

**(əvvəli 1-ci səhifədə)**

Dünən yerli çap və elektron mediamız Daxili İşlər Nazirliyinə istinadla erməni işğalından azad edilmiş Ağdamın Sırxavənd kəndində çətənə plantasiyasının aşkarlandığı barədə məlumat yaydı. Məlumatda Sırxavənd kəndinin ərazisində 10 hektara yaxın kultivasiya üsulu ilə yetişdirilən çətənə plantasiyasından söhbət gedirdi. Həmin ərazi son vaxtlara qədər Xankəndidəki separatçı xunta rejimi tərəfindən mühafizə olunurmuş. Narkomafiya burada gözətçi



qülləsi də quraşdırıbmış. Hüquq-mühafizə orqanlarının əməkdaşları axtarış zamanı ərazidən 4 ədəd avtomat silahı tapıblar. Qeyd edək ki, Sırxavənd kəndi Azərbaycan Ordusunun keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni silahlı quldurlardan təmizlənib.

"Qarabağda narkotikin becərilməsi ilə bağlı cinayət işləri açılıb". Bu barədə jurnalistlərə açıqlamasında Daxili İşlər Nazirliyinin (DİN) sözçüsü Elşad Hacıyev bildirib. DİN rəsmisinin sözlərinə görə, Azərbaycan Ordusunun sentyabrın 19-da keçirdiyi lokal antiterror tədbirlərindən sonra Qarabağın bütün ərazisində müvafiq yoxlama-axtarış işləri həyata keçirilir: "Hələlik, ümumilikdə, 30 hektar sahədə narkotik plantasiyası aşkarlanıb. Plantasiyalardan biri Ağdamda, ikisi isə Xocalıdadır. Bu istiqamətdə işlərimiz davam edir".

E.Hacıyev, həmçinin onu da söyləyib ki, terrorçular Qarabağın işğalı dövründə narkotik vasitələrin əkin-biçini ilə fəal məşğul olublar: "Biz həmin dövrdə beynəlxalq ictimaiyyəti daim məlumatlandırırdıq. Ermənilər isə əməllərini danırdılar. Artıq onların bu əməlləri sübut olunub. Separatçılar narkotik maddələri daha çox yaşayış yerlərinə yaxın ərazilərdə əkib-becərirdilər. Çünki bu əməllərindən həm də gəlir mənbəyi kimi istifadə edirdilər. İstisna deyil ki, yerli əhali də bu işlərə cəlb olunub".

DİN rəsmisinin sözlərinə görə, sözügedən əməllərlə bağlı artıq cinayət işləri açılıb: "Hazırda əraziyə mütəxəssislər cəlb olunub. İlkin hesablamalara görə, narkotik maddələrin istehsalına on milyonlarla dollar sərf olunub". E. Hacıyevin sözlərinə görə, ərazi hələ də təhlükəlidir: "Ermənilər ərazini ciddi şəkildə minalayıblar. Xüsusi sürpriz minalara da rast gəlinir".

* * *

Bəli, Azərbaycanın işğal edilmiş ərazilərindən narkotikin həm daşınması, həm də əkib-becərilməsi üçün yararlanan, dünyaya "ağ ölümü" ixrac edən ermənilər utanmadan aşkar faktları təkzib edir, ağ yalan danışırlar. Əslində, Ermənistanda dövlət məmurlarının narkotika alveri ilə məşğul olması, yaxud həmin mafiyanı himayə etməsi heç kəsə sirr deyildi. Onların Azərbaycanın işğal altındakı torpaqlarında geniş narkotika plantasiyaları salmaları, bu yolla külli miqdarda qazanmaları da məlum idi. Hətta əldə edilmiş təkzibolunmaz fakt və sübutlarla əlaqədar rəsmi Bakı BMT qarşısında məsələ də qaldırmışdı ki, qurumun ekspertləri Qarabağda araşdırma aparsınlar. Amma o zaman Ermənistan rəsmiləri buna imkan vermədilər.

Hələ iki il bundan əvvəl Azərbaycan DİN-in operativ qrupu Kəlbəcər rayonu ərazisində ermənilər tərəfindən xüsusi qulluq göstərilməklə yetişdirilən narkotik tərkibli çətənə plantasiyası aşkar etmişdi. Ondan bir qədər əvvəl Füzuli rayonunun işğaldan azad edilən ərazilərində narkotik bitkilərin əkildiyi plantasiya da aşkarlanmışdı. Beş gün əvvəl isə Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən Xocalıda 100 hektarlıq ərazidə kultivasiya üsulu ilə əkilmiş çətənə plantasiyası üzə çıxarılıb.

"Wikileaks" saytı: "Nəzarətsiz qalan keçmiş Dağlıq Qarabağ ərazisində aparılan narkoticarətdə Ermənistan siyasi liderlərinin, keçmiş prezident Robert Köçəryanın da payı vardı. Hər il oradan daşınan narkotikdən əldə edilən gəlirin bir hissəsi məhz Robert Köçəryana çatırdı"

Oxuculara bir faktı xatırladaq ki, üç il bundan əvvəl erməni mətbuatı ilə yanaşı, bəzi Qərb nəşrləri maraqlı məlumat yaymışdılar. Həmin məlumatda qeyd olunurdu ki, Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın narkotik alverində əli var. Hətta o da iddia olunurdu ki, Köçəryanın vaxtaşırı İrana səfər etməsinin başlıca məqsədlərindən biri də oradakı narkomafiya başçıları ilə görüşüb, ortaq işlərini nizama salmaq olub. Həmin dövrdə xarici media resurslarında işıq üzü görən məqalələrdə yazılırdı ki, həm siyasi, həm də iqtisadi baxımdan iflasa uğrayan Hayastan hakimiyyəti ölkənin düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün narkoticarəti genişləndirərək, terrorçulara verdiyi dəstəkdən əldə edəcəyi pullara bel bağlayırdı. Bununla birbaşa Ermənistan rəhbərliyinin məşğul olduğu, rəsmi İrəvanın narkoticarəti himayə etdiyi qeyd olunurdu.

* * *

Beş il bundan əvvəl britaniyalı araşdırmaçı-yazıçı Harold Keyn nəşr etdirdiyi "Narko Qarabağ" ("Narco Karabakh") kitabında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindəki qanunsuz fəaliyyəti təfərrütı ilə qələmə alıb. Olduqca maraqlı faktların yer aldığı kitabda müəllif 18 aylıq çalışması zamanı "fəsadları Qafqaz regionundan çox-çox uzaqlara çıxaraq beynəlxalq birliyə dərin təsir göstərən cinayətlərin tam bir kataloqu"nu aşkar etdiyini yazır. Turist qismində Ermənistana və Qarabağa gələn H.Keyn səfəri zamanı insan alveri, narkotiklərin qanunsuz dövriyyəsi, qanunsuz silah alveri, təbii ehtiyatların sənaye miqyaslarında talanması halları ilə qarşılaşdığını bildirir.

Harold Keynin "Narko Qarabağ" kitabından: "Hazırkı statusu üzündən Dağlıq Qarabağ sanki vakuumdadır. Bu hal isə amansız şəkildə istismar olunaraq həmin ərazini beynəlxalq mütəşəkkil kriminalın bir növ hesablama palatasına çevrilməsinə şərait yaradıb".

İngilis müəllif kitabında erməni mafiyası, əfqan narkobaronları, bütün dünyada tanınan gizli silah qaçaqmalçıları barədə məlumatlar göstərdiyi üçün şəxsi təhlükəsizliyi naminə adını dəyişdirməyə məcbur olub. Araşdırmaları zamanı İrəvanda qaldığı mehmanxanaya gecəyarısı polisin gəldiyini göstərən Keyn Xankəndidə hətta döyüldüyünü söyləyir: "Dağlıq Qarabağın kriminal mərkəzi olduğunu aşkar etdik. Özü də cinayətkar fəaliyyətin çoxu Ermənistanın sabiq prezidentləri Robert Köçəryan və Serj Sarqsyanla bağlıdır. Onlar insanların əzab-əziyyəti üzərində özlərinə milyardlarla varidat toplayıblar".

Bunlar rəsmi İrəvanın narkotik qaçaqmalçılığı ilə məşğul olmasını sübuta yetirən çoxsaylı faktların bir qismidir. Az öncə Almaniyada nəşr olunan "Bild" jurnalında getmiş maraqlı məlumatı da xatırlatmaq yerinə düşər. "Bild" Əfqanıstandan İrana, oradan da Avropaya uzanan böyük bir narkotik tranziti barədə dərc etdiyi məqaləsində işğal altında olan Azərbaycan torpaqlarını mərkəz olaraq göstərir. Həmin məlumatda deyilir ki, Qarabağın işğal altında olması və nəzarətsiz ərazilərə çevrilməsi erməni narkobaronlara sərf edir. Məqalədə o da vurğulanır ki, Qarabağın nəzarətsiz qalmasında maraqlı olan qüvvələr, əslində, bu münaqişənin həll edilməsini istəmirlər. Hətta bu məqsədlə böyük pullar xərcləməkdən də çəkinmədikləri istisna edilmir.

Beləliklə, İrəvanın dəstəklədiyi erməni narkomafiyasının on illər boyu Rusiya və Avropanı "zəhərlədiyi" faktı göz qabağındadır. İndi bundan dünya birliyi də xəbər tutur. Deməli, Ermənistanı təkcə işğalçı kimi deyil, eyni zamanda, insanları "ağ ölüm"ə yoluxduran cinayətkar ölkə kimi də cəzalandırmaq lazımdır. Problemin birinci hissəsini Azərbaycan təkbaşına həll edib. Qalır İrəvanın ikinci cinayət əməlinə görə beynəlxalq məsuliyyətə cəlb olunması. Hazırda Qarabağ ermənilərinin "haqlarının müdafiəsinə qalxan" həmin Beynəlxlaq Cinayət Məhkəməsi Ermənistanın bir dövlət olaraq bəşəriyyətə qarşı törətdiyi cinayətini araşdırıb layiqli cəza tədbiri görməsi daha məntiqli olmazmı?

***İmran BƏDİRXANLI***
***XQ***

# Ruben Vardanyanın "sandığı açılsa..."

## Avropa Parlamenti, Karnegi Fondu və ABŞ Konqresi... görəsən, Azərbaycandan üzr istəyəcəklərmi?

**(əvvəli 1-ci səhifədə)**

Yəni indi "kimin kimlə cükküldəşməsi"nin, hansı "siyasətçinin" neçə "ələ işləməsi"nin, hansı diplomatın "neçə üzünün olması"nın bizim üçün o qədər də əhəmiyyəti yoxdur. Ancaq elə məsələlər var ki, onların ictimailəşdirilməsi mütərəqqi bəşəriyyət, xoşməramlı siyasətçilər, sülhpərvər insanlar qarşısında xidmət sayılır. Biz bu xidmətdən özümüzü heç zaman kənara çəkməmişik.

Rusiyada oturub dünyanın, demək olar ki, bütün qütblərinə casusluq edən, hətta Moskva ilə açıq düşmənçilikdən çəkinməyən siyasi dairələrlə işbirliyi quran, son nəticədə – işlərin xarablaşdığını görəndə Rusiya vətəndaşlığından çıxıb Azərbaycan ərazisinə dürtülən Ruben Vardanyanın "aydan arı – sudan duru" tərcümeyi - halı baycan tərəfi onun həm Rusiyadakı, həm də başqa ölkələrdəki tərəfdaşları ilə hansı oyunlardan çıxdığını yaxşı araşdırmış və olduqca mühüm faktlar ortaya çıxarmışdır.

Sən demə, o, beynəlxalq aləmdəki mənfi imicli siyasətçilərlə təmas qurur, təhrikçi jurnalistlərə məlumatlar ötürür, "hüquq müdafiəçiləri" ilə ünsiyyət qurur, "ekspert"lərin proqnozlarını istiqamətləndirir və ümumiyyətlə, bəşər övladının əlindən gələ biləcək bütün iyrəncliklərlə məşğul olurmuş. O, hətta Qərbdə açdığı maliyyə bazarı vasitəsilə bu və ya digər məsələlər üzrə lobbiçilik də edirmiş.

Bildirilir ki, yaxın vaxtlarda beynəlxalq ictimaiyyət Ruben Vardanyanın müxtəlif ölkələrdəki əməkdaşlıqları barədə olduqca maraqlı məlumatlarla tanış olacaq. Məlum olacaq ki, Vardanyan xeyli müddət Karnegi Fondu ilə iş birliyində imiş. Halbuki Karnegi Beynəlxalq Sülh Fondu deyilən bu qurum Kremlin ən qatı bədxahlarındandır. Bu fondun "xarakteristikası"nı dəqiq bilmək istəyənlərə xatırladaq ki, adı sülh fondu olan qurumun kəşfiyyat şöbəsi də var və həmin şöbə bilavasitə Rusiyanı ifşa etməklə məşğuldur.




ilə tanış olan bəzi ekspertlər deyirlər ki, onun Rusiya vətəndaşlığından imtinası inandırıcı deyil, sadəcə, həmin ölkədən qovulub. Halbuki Vardanyan Xandəndiyə gələndə deyirdilər ki, o, Rusiyanın agentidir. Azərbaycanın xüsusi xidmət orqanları onu qulaqlayıb layiq olduğu yerə gətirəndə Moskvanın nümayiş etdirdiyi biganəlik isə həmin ehtimalın yalan olduğunu sübut etdi.

Hər halda, Ruben Vardanyan Moskvanın olmasa da, çox ünvanların agenti, casusu, bir çox bədməramlı qurumların iş ortağı, terrorçu və təxribatçılara dəstək verən, ən başlıcası, Qarabağda yaşayan ermənilərə ağlagəlməz dərəcədə ziyan vurmuş bir "zat"dır. O, Azərbaycanın Qarabağ iqtisadi rayonundakı təbii sərvətlərin talan edilməsi ilə məşğul olan Fransa və digər ölkələrin şirkətlərinin qazancına şərik olmaq üçün Qarabağa gəlmişdi. Yoxsa o qədər pul sahibinin başı bəlalı olan özgə torpaqlarında nə işi var idi? Rusiyadan qovulanda gedib İrəvanda oturardı da.

Getmədi, Qarabağa gəldi və unutdu ki, Azərbaycanda bir "Gələrsən, görərsən..." deyimi var. Ruben Azərbaycana gəldi və gördü ki, "onun atı bu yerlərdə gedə bilməz". Gəldiyinə it kimi peşman oldu...

Üstəlik, Qarabağa gələndən sonra xarici aləmdəki tərəfdaşları ilə münasibətləri də zibilə döndü. Belə ki, Azər-

Ona görə də bildirilir ki, Ruben Vardanyanın dosyesi və özünün "açdığı sandıq" ortaya çıxarkən çox ciddi beynəlxalq skandallar yaranacaq. Həmin skandallar isə tezliklə Avroparlamenti, ABŞ Konqresini, ABŞ Dövlət Departamentini "silkələyəcək". Hətta məlum olacaq ki, ABŞ Administrasiyasının mühüm fiqurlarından olan Samanta Pauer Ruben Vardanyanla əməkdaşlıq edirmiş. Beynəlxalq aləmdə kimlər kimlərə işləyirmiş?

Həmin qarışıqlıqlardan ustalıqla, daha doğrusu, ermənicəsinə istifadə edən Ruben Vardanyan indi də rüsvay olur. Bu isə Azərbaycan dövlətinin yaratdığı yeni reallıqların ən mühüm əlamətlərindən biridir. Çünki Azərbaycanın DTX-sı bir neçə dövlətə işləyərək, hamısına xəyanət etmiş klassik erməni agentini ifşa etmişdir.

Uğurlar sizə, bu möhtəşəm uğura imza atanlar!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Ermənistanda siyasi böhran iqtisadi tənəzzülü dərinləşdirir

## Xarici borc ÜDM-in 70 faizinə çatıb




**Beynəlxalq Valyuta Fondunun (İMF) yaydığı hesabata görə, cari ilin iyul ayında Ermənistanın xarici borcu əvvəlki ayla müqayisədə 300 milyon dollar artaraq 6,7 milyard dollara çatıb. Sənədə əsasən, işğalçı ölkənin ümumi dövlət borcu isə 10 milyard dollar təşkil edir. Verilən proqnoza əsasən, cari ilin sonuna qədər bu göstəricinin daha da artacağı və 12 milyard dollara yüksələcəyi gözlənilir.**

Hazırda dövlətin xarici borcu ÜDM-nin 70 faizinə bərabərdir. Ümumilikdə, Ermənistanda son 10 ildə dövlət borcu 7 dəfəyədək artıb. Beynəlxalq Valyuta Fondunun metodologiyasına əsasən, xarici borcun ÜDM-in 40–50 faizini keçməsi təhlükəli vəziyyətin yaranmasından xəbər verir. Ermənistan bu gün valyuta ehtiyatlarının demək olar ki, yoxluğu üzündən bu rəqəmin ağırlığına dözə bilmir.

Ölkənin müstəqil siyasi və iqtisadçı ekspertləri borcların artmasını hökumətin vaxtaşırı xarici dövlətlərdən, həmçinin beynəlxalq maliyyə qurumlarından davamlı borc alması ilə əlaqələndirirlər. Onlar həm də iddia edirlər ki, vergi ayırmaları və daxil olan digər vəsaitlər respublikanın sosial-iqtisadi şəraitini getdikcə dözülməz hala gətirir.

Vaxtaşırı yaranan sosial və iqtisadi şok vəziyyətlər də borcalmanı sürətləndirir. Bu baxımdan son on il ərzində Ermənistanın dövlət borcu iki dəfə artaraq ölkə iqtisadiyyatı və vətəndaşlar üçün təhlükəli yükə çevirib. Eyni zamanda həmin müddətdə respublikanın xarici borcu təxminən iki dəfə, daxili borcu isə beş dəfə artıb. Beləliklə, beynəlxalq maliyyə qurumlarının hesabatlarında Ermənistan xarici borcun yükünə görə, ən fəlakətli həddə çatan ölkələrdən biri kimi qeydə alınıb.

Ermənistan iqtisadiyyatında digər göstəricilər də getdikcə aşağı düşür. Məsələn, bu ilin martında cari hesabda 351,4 milyon dollar büdcə kəsiri yaranıb. İyul ayındakı 275 milyon dollarlıq ticarət kəsiri isə ötən ilin eyni dövrü ilə müqayisədə 70,2 milyon dollar və ya 20,33 faiz artaraq 345,2 milyon dollara çatıb.

İşğalçı ölkənin milli valyutası olan dramın ucuzlaşması da davam edir. Hazırda 1 dollar 400 drama qədər yüksəlib. Hesablamalara görə, milli valyutanın real məzənnəsinin 30 faiz ucuzlaşması ölkənin xarici borcunu ÜDM-in 80 faizinə çatdıra bilər.

Ermənistan hazırda büdcəni xarici donorlardan gələcək qrant yardımları hesabına saxlayır. İşğalçı dövlət ABŞ, həmçinin Avropadakı erməni fondları, eyni zamanda Hayastan Fondunun yardımları ilə əhalinin sosial xərclərini ödəyir. Bu isə borcun daha da artacağını və Ermənistanın defolta çatmasını şərtləndirir.

Son günlər ölkədə yanacağın qiyməti də qalxıb. "Premium" benzin 580 dram (2,30 manat), adi benzin 550 dram (2,18 manat), dizel yanacağı isə 570 dram (2,26 manat) olub. Məlumata görə, maye qazın bir litrinin qiyməti isə 170 drama (0,67 manata) çatıb. İnformasiyaya əsasən, bütün növ yanacaqların qiyməti azı 40–50 dram (0,20 manat) qalxıb.

Ermənistanda benizin sonuncu dəfə bu il iyulun 9-da kəskin şəkildə bahalşıb. Həmin vaxt qiymət artımı 20 dram təşkil edib. Ümumilikdə isə son iki ayda benzin və dizel yanacağı 120 dram bahalaşıb.

Ekspertlər bildirirlər ki, qiymət artımı bilavasitə xarici amillərlə, başqa sözlə, benzinin idxal olunduğu Rusiyadakı vəziyyətlə bağlıdır. Qeyd edək ki, hazırda Rusiyada yanacaq böhranı yaşanır. İstehsalın kəskin aşağı düşməsi, Ukraynadakı hərbi əməliyyatlara böyük həcmdə yanacaq işlədilməsi kənd təsərrüfatı sektorunda da çətinliklər yaradıb. Buna görə də ixracda məhdudiyyət tətbiq olunub.

Xatırladılır ki, Rusiya başqa ölkələrə benzin, dizel ixracına qadağa qoysa da bu, Ermənistan kimi Avrasiya İttifaqı Birliyinin üzvlərinə şamil edilmir. Bununla belə göstərilən səbəbdən qiymətlərin artması qaçılmazdır və Rusiya–Ermənistan münasibətlərinin kəskinləşdiyi hazırki dövrdə bu, yalnız siyasi amillərlə bağlı deyil.

Ermənistan Rəqabətin Mühafizəsi Komissiyası bu bahalaşmanı beynəlxalq bazarlarda yanacağın qiymətinin və nəqliyyat xərclərinin artması ilə əlaqələndirib. Komissiyanın mətbuat xidmətinin Ermənistan mediasına verdiyi məlumata görə, 2023-cü ilin yanvarında 1 litr benzinin orta idxal qiyməti 0,41 sent, sentyabrda isə artıq 0,8 sent olub. Bundan əlavə, 2023-cü ilin yanvarında dolların məzənnəsi orta hesabla 390 dram, oktyabrda isə 414 dram təşkil edib. Bu göstəricilər son nəticədə benzinin qiymətinin bahalaşmasına gətirib çıxarıb.

İqtisadçı-ekspert Karen Adonts mətbuata müsahibəsində xatırladıb ki, benzinin qiymətinin qalxması iqtisadiyyata mənfi təsir göstərəcək, çünki bu, sahibkarlıq subyektlərinin və ev təsərrüfatlarının xərclərini artıracaq. Belə bir hal isə əsas malların bahalaşmasına gətirib çıxaracaq, inflyasiyanı daha da sürətləndirəcək və vətəndaşların rifahına mənfi təsir göstərəcək.

***XQ***

# Gürcüstan azərbaycanlılarının böyük və unudulmaz himayədarı

## Bu ölkədəki soydaşlarımız həmişə millət atası Heydər Əliyevə güvəniblər

**Azərbaycanın Qafqaz regionunda ən yaxın müttəfiqlərindən olan Gürcüstan keçmiş SSRİ dağılandan sonra ölkəmizlə oxşar bir tale yaşamağa məcbur oldu. Düşmən qüvvələri qədim qonşuları milli münaqişəyə çəkmək istəsələr də arzuolunmaz hallar qətiyyətlə rədd edildi. Hər iki ölkədə baş verən proseslər, daxili və xarici vəziyyətin oxşarlığı, geosiyasi maraqların üst-üstə düşməsi və digər amillər tarixi qonşuluq münasibətlərinin daha da möhkəmlənməsinə zəmin yaratdı.**



Dövlətlərarası diplomatik münasibətlər qurulandan sonra istər regional, istərsə də qlobal məsələlərdə bu iki dövlət davamlı olaraq ortaq mövqedən çıxış etməyə üstünlük verdilər. Prezident Heydər Əliyev 1996-cı il martın 8-də Gürcüstana rəsmi səfəri zamanı Azərbaycan və Gürcüstanın böyük tarixi əlaqələrinin olduğunu xüsusu vurğulamış, bu ölkə ilə olan münasibətlərə xüsusi əhəmiyyət verdiyini belə bəyan etmişdi: "Gürcüstan bizim üçün yaxın



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN

Gürcüstan Parlamentinin üzvü
cənab İsak Novruzova

*Hörmətli İsak Novruzov,*

*Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyim münasibəti ilə göndərdiyiniz təbrikə görə təşəkkürümü bildirir, Sizə möhkəm cansağlığı, səadət və uğurlar arzulayıram.*

*Hörmətlə,*

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, "17" dekabr 1998-ci il

qonşu və dost ölkədir. Çox böyük tarixi əlaqələrimiz var".

**Müsahibimiz Gürcüstan parlamentinin keçmiş deputatı, energetika nazirinin müavini olmuş, Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzov bu tarixi reallıqlar barədə qəzetimizə açıqlamasında bildirdi:**

– Mən bu hadisələrin təkcə şahidi deyil, həm də çox yaxın iştirakçısı, bir çox halda mərkəzində olmuşam. Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də yaradılıb. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı çoxəsrlik münasibətlərimiz baxımından tarixi hadisə oldu. Bu diplomatik missiyalar müstəqillik şəraitində ikitərəfli əlaqələrin inkişafına xidmət etməyə başladı, bir çox problemlər sürətlə yoluna qoyuldu.

Bunu ona görə xüsusi qeyd edirəm ki, o vaxta qədər başımıza çox oyun gəlmişdi, keçməkeşli və çətin yollardan keçməli olmuşduq. Bunları unutmaq, yada salmamaq mümkün deyil. O dövrdə Azərbaycandakı hakimiyyət böhranı, Qarabağ problemi vəziyyəti son dərəcə mürəkkəbləşdirmiş, ölkə qanlı müharibəyə sürüklənmişdi. Bu, Gürcüstanda yaşayan azərbaycanlıların yerli çətinliklərinə əlavə olunub onları talenin ümidinə qoymuşdu. O vaxt Gürcüstan Respublikasının Prezidenti seçilən Zviad Qamsaxurdiyanın rəhbərliyi altında "çiçəklənən gürcü millətçiliyi" yerli azərbaycanlılara qarşı çevrilmişdi.

Erməni və gürcü millətçiliyinin belə azğın həddə çatması Qafqaz xalqlarının, ilk növbədə, azərbaycanlıların öz torpaqlarında milli mövcudluğuna qarşı yönəlmişdi. 1993-cü ildə Azərbaycanda Heydər Əliyevin, Gürcüstanda isə Eduard Şevardnadzenin hakimiyyətə gəlməsi hər iki qonşu ölkənin həyatında yeni dövrün başlanğıcı oldu və Cənubi Qafqazda bütün ziddiyyətlərin tədricən aradan qalxmasına kömək etdi.

Təəssüf ki, Ermənistanda nə onlar kimi bir şəxsiyyət hakimiyyətə gəldi, nə də belə siyasət yeridildi. Nəticədə erməni millətçiliyi Qafqazı qan çanağına çevirdi. Azərbaycanla Gürcüstanın çoxəsrlik dostluq münasibətlərinin qorunub saxlanması hər iki ölkəni qarşıdurma və gözlənilən faciələrdən qorudu. Bu ənənə indi regionda əmin-amanlığın, sülhün, dostluq münasibətlərinin ictimai qarantına çevrilib.

**– İsak müəllim, həm Azərbaycan, həm də Gürcüstan cəmiyyəti sizi dediyiniz bu ənənənin – iki xalqın tarixi dostluğunun qorunub inkişaf etdirilməsinə önəmli töhfələr verən verən bir ziyalı kimi tanıyır. İstərdik ki, oxucularımıza sizi daha yaxından təqdim edək.**

– Mən tarixən Qaratəpə, sovet zamanında 1947-ci ilədək Qarayazı adlandırılan indiki Qardabani rayonunda doğulmuşam. Bizim Böyük Armudlu kəndini Tiflisdən cəmi 17 kilometrlik məsafə ayırır. Bu yaxınlığa görə orta məktəbi də Tiflisdə bitirmişəm. Tiflisin zəngin paytaxt həyatı və burda müəyyən qədər qorunub saxlanan Azərbaycan mədəni mühiti mənim həyatımda ciddi rol oynayıb. Gürcü dilini yaxşı bilməyim həmişə gərəyim olub. Ali təhsil aldığım vaxt uzun illər anamın direktoru olduğu ibtidai məktəb səkkizilliyə çevrildi. 21 yaşımda, hələ III kursda oxuyanda məni bu məktəbə direktor təyin etdilər.

Sonralar ictimai fəallığımı nəzərə alan rayon rəhbərliyi məni komsomol komitəsinə dəvət etdi. Əvvəlcə III, sonra II və İ katib seçildim. 1982-ci ilin may ayından isə Qardabani şəhərinin meri və rayon partiya komitəsinin katibi vəzifəsini tutdum. SSRİ-nin iflasından sonra Gürcüstanda ifrat millətçi Qamsaxurdiya hakimiyyətə gəldi. Kommunist partiyası kadr kimi işsiz qaldım və özəl müəssisə yaratdım. 1992-ci ildə Eduard Şevardnadze hakimiyyətə gələndən sonra Qardabani rayonunda icra başçısının müavini təyin olundum.

1995-ci ilin oktyabrında Gürcüstan parlamentinin deputatı seçildim. İctimai-siyasi fəaliyyətim daha da genişləndi, mənəvi dayağımız, milli dövlətimiz olan Azərbaycanla rəsmi əlaqələrim yarandı. Gürcüstan nümayəndə heyətinin Azərbaycana səfərləri zamanı həm heyətin üzvü, həm də parlamentin azərbaycan əsilli millət vəkili kimi Heydər Əliyevlə dəfələrlə görüşdüm. Ulu öndərin təşəbbüsü ilə təkbətək görüşlərimiz də oldu. Bu böyükinsan Gürcüstanda yaşayan azərbaycanlı əhalinin problemlərini dərindən öyrənməyə çalışır, davamlı olaraq diqqətdə saxlayırdı.

**– Bundan əvvəl Heydər Əliyevlə tanışlığınız olmuşdumu?**

– Bəli, xoş bir təsadüf nəticəsində Ulu öndərlə sovet dövründə görüşüb tanış olmuşdum. Bu görüş mənim taleyimdə sonralar da olduqca mühüm rol oynadı. Keçən əsrin 80-ci illərinin əvvəlində Gürcüstanda yeni salınan komsomol şəhərciyi Qardabani rayonunun ərazisində yerləşirdi. Bu böyük və zərbəçi tikintiyə bütün Gürcüstan səfərbər olmuşdu. Mən o dövrdə rayon komsomol təşkilatının rəhbəri olduğumdan işimi burada başlayıb, burada da bitirirdim. Demək olar ki, hər gün Tiflisə, rəhbərliyə tikintinin gedişi barədə məlumat verirdim.

Komsomol şəhərciyinin açılış mərasimində Gürcüstanın o zamankı rəhbəri Eduard Şevardnadze özü gəlmişdi. Dəvət olunmuş fəxri qonaqlar sırasında Azərbaycan lideri, Moskvadan Siyasi Büronu təmsil edən Heydər Əliyev də var idi. Deyim ki, ən hörmətli və mötəbər qonaq kimi də o qarşılandı. Ulu öndərin belə yüksək nüfuzu yerli azərbaycanlılarda böyük fəxarət hissi doğururdu. Yadımdadır ki, mərasim başlayan kimi Eduard Şevardnadze Heydər Əliyevi xüsusi bir səmimiyyətlə baba olmağı münasibəti ilə təbrik etdi. İlk nəvəsi dünyaya gəlməsi münasibətilə səslənən bu təbrik gurultulu alqışlarla qarşılandı və sürəklə davam etdi. Bu, həm də tədbir iştirakçılarının, eləcə azərbaycanlıların Heydər Əliyevə sevgisinin ifadəsi idi.

Şəhərcikdə xatirə olaraq ağacəkmə mərasimində Heydər Əliyevə mən yardım etdim, daha doğrusu, Gürcüstan komsomolunun o vaxtkı rəhbərinin təqdimatı ilə bu iş rayon komsomol təşkilatının rəhbəri kimi mənə həvalə edildi. Ulu öndərlə ilk tanışlığımız da o vaxt oldu. Elə o mərasimdə də onun qayğı və diqqətini dərhal hiss etdim. Qısa təmas zamanı bəzi məsələlərlə maraqlandı, dil öyrənməyi, Gürcüstanın siyasi həyatına fəallıqla qoşulmağı tövsiyə etdi. Mən sonrakı görüşlərimizdə Heydər Əliyevin bu söhbətləri unutmadığının şahidi oldum.




**– Maraqlıdır, həmin görüşü necə xatırladınız?**

– O görüşü nə mən, nə də digər azərbaycanlı iştirakçılar unuda bilməzdik, çünki burada Heydər Əliyevin iştirakı, təntənəli qarşılanması onun Gürcüstanda yaratdığı Azərbaycana olan üstün münasibət idi. Gürcüstan parlamentinin nümayəndə heyətinin Azərbaycana səfərində mənimlə xüsusi maraqlandı, şəxsi söhbət əsnasında ağacəkmə mərasimindəki söhbəti yada saldı.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı təkcə Azərbaycanın həyatında yox, Gürcüstan azərbaycanlılarının həyatında da xilaskarlıq oldu. Heydər Əliyev hakimiyyətdə olsa idi nə Azərbaycanda, nə də Gürcüstanda o müsibətlər başımıza gəlməzdi. Heydər Əliyev xilaskarlıq missiyası ilə milləti səfərbər etdi, dövlət müstəqilliyini qorudu. Bizi də Gürcüstanda bəlalardan xilas etdi.

1996-cı il yanvarın 5-də mən, Gürcüstanın sabiq deputatları Ramiz Bəkirov və Hidayət Hüseynov Heydər Əliyevlə görüşdük. Bu bizim üçün tarixi, həm də çox məsuliyyətli görüş oldu. Heydər Əliyev Gürcüstanda olan hər şeyi incəliklərinə qədər bilirdi. Hiss etdik ki, bizimlə görüşündə bəzi faktları dəqiqləşdirmək niyyətində olub.

Sonra Gürcüstana səfərə gələndə Rustaveli adına Opera və Balet Teatrında azərbaycanlılarla görüşdü. Burada Azərbaycan liderinin söylədiyi və mühüm tarixi əhəmiyyət kəsb edən fikirlər bizi daha da ruhlandırdı, arxasız olmadığımıza inandıq. O, bizə müraciət edərək dedi: "Siz diaspor deyilsiniz. Siz Gürcüstanda aborigen xalqsınız və Gürcüstan sizin vətəninizdir. Siz də bizim soydaşlarımızsınız, tək deyilsiniz".

Biz bu həqiqəti bilsək də nə söyləməyə, nə də sübuta imkanımız var idi. Buradakı azərbaycanlıların qədim tarixi, mədəniyyəti, adət-ənənələri var. Azərbaycanlılar kompakt yaşadıqları Marneuli, Bolnisi, Dmanisi, Qardabaninin qədimliyi bir yana, Telavi rayonunun Qaracala kəndinin 500 ildən çox yaşı var. Laqodexinin Qabal kəndinin də tarixi çox qədimdir. Kaspi rayonunda 10-dan artıq belə kənd var. Ulu öndər də bunları yaxşı bilirdi. Ona görə də Gürcüstan prezidentinin və hökumət nümayəndələrinin də iştirak etdiyi tədbirdə azərbaycanlıların aborigen xalq, Gürcüstanın isə onların vətəni olduğunu çox böyük cəsarətlə söylədi.

Ümummilli lider Heydər Əliyev daim çalışırdı ki, Gürcüstanda – qədim Borçalı obalarında soydaşlarımız öz mədəniyyətlərini, ana dili və digər milli keyfiyyətlərini unutmasınlar və Gürcüstanda onun göstərişi ilə həyata keçirilən bütün layihələrin mərkəzində də məhz bu amal dayanırdı.

**– Görüşləriniz sonra da davam etdimi?**

– Davam etdi, çox maraqlı və yaddaqalan, həm mənim taleyimdə, həm də Azərbaycan – Gürcüstan əlaqələrini dərinləşdirən görüşlər bir neçə dəfə də oldu. Gürcüstanın rəsmi heyətlərinin bütün Bakı səfərlərində iştirak etmişəm və hər dəfə də Heydər Əliyev məni xüsusi hörmətlə qəbul edib. Bir dəfə görüşlərin birində mən ulu öndərə yanacaq məsələsi ilə bağlı olduqca vacib məlumatlar çatdırdım. Bildirdim ki, Azərbaycandan Gürcüstana göndərilən yanacaq bəzi düşmən qüvvələrin əli ilə Ermənistana ötürülür. Heydər Əliyev ani sükutdan sonra təmkinli, həm də diplomatik bir cavab verdi: "Bakı məhz azərbaycanlılara görə, Gürcüstana yanacaq verir".

Amma onu da anladım ki, Heydər Əliyevin də bu xəyanətdən xəbəri var. Odur ki, məndən də sübut üçün sənəd istədi. Mən bildiyim və əlimdə olan lazımi sənədləri Heydər Əliyevə təqdim etdim. O, bu məsələni çox ciddi araşdırdı və məlumatların təsdiqindən sonra bu "xəyanətkar alver" son qoyuldu. Bundan sonra mənə olan münasibət və inamının daha da artdığını gördüm.

Ulu öndər Gürcüstan azərbaycanlılarının həyatı və məişəti ilə çox maraqlanırdı, hər şeyə diqqət edirdi, ən adi saydığımız detalları belə maraqla soruşurdu. 1998-ci ildə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi Gürcüstanda da böyük sevinclə qarşılandı. Bu, Gürcüstanda yaşayan azərbaycanlılar üçün də bayram idi. Hər yerdə bu hadisə ilə əlaqədar olaraq qurbanlar kəsilir, bayram təntənəsi davam edirdi. Həm deputat həmkarlarım, həm də ətrafımdakı adamlar və seçicilər Heydər Əliyevlə danışmağı və onların təbriklərini çatdırmağı məndən xahiş edirdilər.

Gərgin iş qrafikinə görə telefonla danışa bilməsəm də ünvanına təbrik teleqramı göndərdim. Səhərisi mənə təşəkkür məktubu göndərmişdi. Bu, Heydər Əliyevin nə qədər diqqətcil, hər şeyi həssaslıqla dəyərləndirən bir şəxsiyyət olduğunu təsdiqləyirdi. Ulu öndər heç kəslə müqayisə edilməyən nadir şəxsiyyət idi.

**– Heydər Əliyev heç vaxt Gürcüstan azərbaycanlılarının problemlərini ayrı təsəvvür etməyib. Məhz bunun nəticəsidir ki, düşmən qüvvələr Borçalını azərbaycanlılarsız qoya bilmədilər.**

– Haqlısınız, Ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu istər birinci, istərsə də ikinci dövrdə qonşu Gürcüstanla əlaqələrin inkişafına və orada yaşayan azərbaycanlıların problemlərinin həllinə xüsusi diqqət göstərirdi.

1969-cu ildə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləməyə başlayandan onun neqativ hallara – rüşvətxorluğa, korrupsiyaya və digər cinayətkar əməllərə qarşı mübarizəsi xalq arasında böyük razılığa səbəb oldu. O zamankı sovet rejimində görünməmiş bir hal kimi Heydər Əliyevin bu cür fəaliyyətə başlaması nəinki Azərbaycanda, sovetlər birliyində qeyri-adi hadisə sayılırdı.

Sonralar onun bu fəaliyyətini Gürcüstan prezidenti Eduard Şevardnadze belə qiymətləndirirdi: "1969-cu ildə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyasının I katibi seçilməsi, xüsusilə də onun fəaliyyəti Sovet İttifaqında böyük əks-sədaya səbəb oldu. O, ilk növbədə, neqativ hadisələrə – rüşvətə, korrupsiyaya və digər cinayətlərə qarşı mübarizəyə başlaması ilə tanındı. Həmının öz vəziyyətindən çox razı olduğu və əlavə heç bir problem yaratmaq istəmədiyi bir vaxtda, dondurulmuş bir əhatədə onun bu cür fəaliyyətə başlaması böyük partlayış idi. Əliyevin fəaliyyəti, hay-küylü məhkəmə prosesləri, onun açıq çıxışları bir çoxlarını dəhşətə gətirdi. Amma əhali bütün bunları alqışlayırdı".

Görkəmli ictimai-siyasi xadim, uzun illər Ulu öndərlə çiyin-çiyinə yüksək dövlət vəzifələrində çalışmış Həsən Həsənov isə çıxışlarının birində deyidi: "Heydər Əliyev Gürcüstanı çox sevirdi. Sovetlər dönəmində ölkələr arasında əlaqələr Moskvanın icazəsi ilə qurulurdu. Amma Heydər Əliyev deyirdi ki, bunun Azərbaycan ilə Gürcüstan arasında əlaqələrə heç bir aidiyyəti yoxdur. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Gürcüstan ilə əlaqələrə böyük önəm verib. Bunun nəticəsidir ki, bu gün ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib".

*Namiq ƏHMƏDOV*
*XQ*

Bakı–Tbilisi–Bakı

# Müdafiə sənayesi müstəqilliyin strateji hədəflərinə xidmət edir



**Bu il sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Naxçıvan Bərpa-İstehsalat Hərbi Kompleksinin təntənəli surətdə istifadəyə verilməsi ölkə müdafiə sənayenin və muxtar respublikanın iqtisadi həyatında əlamətdar hadisə oldu.**



Mərasimdə qardaş ölkələrin liderlərinə bu müasir strateji istehsalat barədə ətraflı məlumat verildi. Bildirildi ki, burada müxtəlif növ tank, zirehli döyüş maşını və transportyorların, artilleriya qurğu və sistemlərinin, hava hücumundan müdafiə vasitələrinin, atıcı silahların, mühəndis texnikasının, rabitə avadanlıqlarının, optik cihazların təmirini və modernləşdirilməsini, müxtəlif növ daxiliyanma mühərriklərinin təmirini və stend üzərində yoxlanılmasını, qeyd olunan bütün vasitələr üzərində detal və avadanlıqların dəyişdirilməsini və test edilməsini həyata keçirmək mümkün olacaq.

Qeyd olundu ki, 1 mərkəz, 8 təmir müəssisəsi və 10 sahədən ibarət olan kompleksdə müxtəlif növ texnikaların təmiri və bərpası üçün 300-dən çox avadanlıq quraşdırılıb. Eyni zamanda kompleksdə digər zəruri tədbirlər də həyata keçirilib, zirehli və avtomobil texnikaları parkında texniki nəzarət məntəqəsi, texniki qulluq və təmir məntəqəsi binaları, 284 yer texnika tutumu olan 4 saxlanc, yanacaqdoldurma, yuma və gündəlik texniki qulluq məntəqələri inşa olunub.

Hərbi texnikaların təmiri və bərpası ölkələr üçün çox böyük əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünya ölkələri arasında hərbi texnika və silah-sursat satışında ən çox diqqət edilən məsələlərdən biri də ehtiyat hissələrin təminatı məsələsidir. Digər tərəfdən, hərbi təyinatlı məhsullar davamlı olaraq yenilənməyə məcburdur. Təbii ki, burada da əsas məsələlərdən biri kimi ehtiyat hissələri ön planda durur. Bütün bunlar isə dövlət və hərbi müdafiə təşkilatları üçün böyük maliyyə vəsaiti deməkdir. Bu baxımdan hər bir ölkə özünün müdafiə strategiyasında bu həllivacib məsələləri diqqət mərkəzində saxlayır.

Dünya təcrübəsində maraqlı məqamlardan biri odur ki, harada baş verməsindən asılı olmayaraq adətən hərbi əməliyyatlar müdafiə sənayesinin inkişafına təkan verir. Məsələn, Türkiyə 1974-cü ildə Şimali Kiprdə baş verən müharibədən sonra öz NATO müttəfiqlərinin silah embarqosuna məruz qaldı. Bu isə rəsmi Ankaranı milli müdafiə sənayesinin inkişaf etdirməyə vadar etdi. Və yaxud 2008-ci ildə Rusiya ilə müharibədən sonra qonşu Gürcüstan eyni taleyi yaşamağa məcbur oldu.

Moskvanın təzyiqləri ilə 2000-ci illərin əvvəllərində Gürcüstana külli miqdarda silah və texnika satışı reallaşdıran ölkələr müharibədən itkilərlə ayrılmış Tiflisə hərbi texnika satışından imtina elədilər. Çıxılmaz vəziyyətdən xilas olmaq üçün Gürcüstan özünün milli hərbi sənaye kompleksini yenidən qurmağa başladı. Azərbaycan nümunəsində isə mənzərə tamamilə fərqli idi. Çünki ölkəmiz müstəqilliyinin ilk illərindən Ermənistanın təcavüzü ilə üzləşmişdi və uzun illər müharibə vəziyyətində idi. Buna görə də bizdə ordu quruculuğu məsələlərində hərbi sənayenin inkişafı əvvəlcədən düşünülmüş hərbi-siyasi strategiya idi.

Bir az da keçmişə getsək, hələ SSRİ dövründən Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda hərbi-sənaye kompleksinin əsası qoyulmuşdur. Həmin dövrdə Azərbaycanda olan demoqrafik artımı və mövcud elmi potensialı nəzərə alan görkəmli dövlət xadimi SSRİ-nin ağır maşınqayırma və hərbi sənaye kompleksi müəssisələrinin respublikada yaradılması məsələsini Sov.İKP MK-nın Siyasi Bürosu qarşısında qaldırmışdır.

Müdrik və uzaqgörən liderin təklifi və qətiyyəti sayəsində Azərbaycanda radiotexnika və cihazqayırma sənayesi üzrə üç yeni müəssisənin - Radio Maşınqayırma zavodunun ("Robot" zavodu), Tərtərdə Lionozov Elektromexanika zavodunun filialının və Elektron Hesablama Maşınları zavodunun ikinci növbəsinin tikintisi, elektron sənayesi üzrə dörd zavodun - Gəncədə "Billur" zavodunun, Xaçmazda, Siyəzəndə və Lənkəranda "Kondesator" zavodlarının tikilməsi, müdafiə sənayesi üzrə Azov Optika-Mexanika ("Alov") zavodunun filialının yaradılması, Alunit zavodunun tikintisi, gəmiqayırma sənayesi üzrə Bakı Elektro-Mexaniki İnstitutunda yeni istehsal sahələrinin yaradılması, aviasiya sənayesi üzrə istehsal sahələrinin genişləndirilməsi və sair məhz bu təşəbbüsün nəticəsi idi.

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə, xüsusilə neft gəlirlərinin artması nəticəsində ölkəmizdə ordu quruculuğu prosesi daha geniş vüsət aldı. Bu prosesin mühüm tərkib hissəsi olan müdafiə sənayesinin inkişafı ilə bağlı mütərəqqi addımlar atıldı. Təsadüfi deyildi ki, II Qarabağ müharibəsində Azərbaycan digər ölkələrdən alınmış hərbi texnikalarla yanaşı, öz istehsalı olan silah-sursatlardan da istifadə etmişdir. II Qarabağ müharibəsi, eyni zamanda hərbi sənayenin müasir dövrün tələblərinə uyğun şəkildə qurulması və inkişaf etdirilməsinin yolunu göstərmişdir.

Naxçıvanda yeni fəaliyyətə başlayan Bərpa-İstehsalat Hərbi Kompleksinə də bu prizmadan baxmaq lazımdır. Əvvəldə də qeyd etdiyimiz kimi bu kompleksdə silahların, avtomobil texnikalarının, artilleriya və hava hücumundan müdafiə vasitələrinin, zirehli tank texnikalarının, elektron və rabitə avadanlıqlarının, mühəndis texnikalarının və aqreqatlarının təmiri, mexanikləşdirilmiş emal sexləri fəaliyyət göstərəcək. Silahların təmiri sexində ən son texnoloji avadanlıqlarla atıcı silahların qumla təmizlənməsi və kimyəvi üsulla yenidən rənglənməsi işləri aparılacaq.

Elektron və rabitə avadanlıqlarının təmiri sexində xüsusi antistatik otaqlarda elektron avadanlıqların və optik gecəgörmə cihazlarının təmiri və sınaqdan keçirilməsi mümkün olacaq. Bütün bunlar isə ordumuzun texniki təchizatında mühüm rol oynayacaq. Bunu da nəzərə alaq ki, hərbi texnikaların təmir və bərpası işində daşınmalar uzaq olduqca, xərclər də çox olur, vaxt itkisi də. Bu isə müharibə vəziyyətlərində istənilən ordu üçün arzuolunmazdır. Digər tərəfdən, yeni hərbi kompleks zamanla bu sahədə ixtisaslaşmış kadrların sayını artıracaq ki, bu da müdafiə sənayesinin inkişafı üçün mühüm amildir.

Ümumilikdə isə strateji baxımdan böyük əhəmiyyət daşıyan muxtar respublikada belə hərbi kompleksin yaradılması gələcəkdə müdafiə sənayesinin inkişafına da töhfə olacaq.

# BMT nümayəndələri Naxçıvanda

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və İnkişaf Proqramının beynəlxalq mütəxəssisləri, Azərbaycandakı nümayəndələri və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Naxçıvan Muxtar Respublikasında 3 günlük səfərdə olublar.**



Qonaqlarla Naxçıvan MR Təbii Sərvətlər Nazirliyində keçirilən görüşdə muxtar respublikada birgə icra olunacaq müxtəlif layihələrlə bağlı fikir mübadiləsi aparılıb və prioritetlər müəyyənləşdirilib.

Səfər iştirakçıları Zəngəzur Milli Parkında endemik fauna və flora növlərinin qorunması, tullantıların idarə edilməsi, meşəsalma, meşəbərpa tədbirləri ilə bağlı və bir sıra digər layihələr haqqında da danışıqlar aparıb, həmçinin Zəngəzur Milli Parkının işçi heyəti ilə görüşüblər.

# Ədalət mühakiməsi: yeni çağırışlar və imkanlar



**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə "Müasir dövrdə ədalət mühakiməsi: Yeni çağırışlar, yeni imkanlar" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Giriş nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, bu il anadan olmasının 100 illiyi sonsuz sevgi və hədsiz qədirbilənliklə qeyd edilən Ümummilli lider Heydər Əliyevin böyük səyləri nəticəsində müstəqil Azərbaycan dövləti hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyir. Ötən illərdə respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında ölkəmizdə bütün sahələrin, o cümlədən məhkəmə hakimiyyətinin inkişafının müasir Azərbaycanın memarı Ulu öndərin adı ilə bağlı olduğunu vurğulayıb.

Bildirilib ki, Ümummilli liderin rəhbərliyi ilə Azərbaycanda yeni məhkəmə sisteminin tədricən təkmilləşdirilməsi istiqamətində xeyli uğurlu işlər görülüb. Məhkəmə-hüquq sahəsində islahatların davamı olaraq, formalaşdırılmış vahid məhkəmə təcrübəsinin bütün hüquq ictimaiyyətinə əlçatanlığının təmin edilməsi istiqamətində hazırda mühüm işlər həyata keçirilir. Yeni çağırışlara cavab vermək üçün ölkəmizdə məhkəmələrin müasir tələblərə uyğun qurulması, ədalət mühakiməsinin həyata keçirilməsində peşəkarlığın artırılması və innovativ texnologiyaların tətbiqi, məhkəmə proseslərində çevikliyin artırılması zamanın tələbidir.

Naxçıvan MR Ali Məhkəməsinin sədri Səadət Bəktaşi, Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərov, Muxtar Respublikanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva, Naxçıvan MR ədliyyə naziri Daşqın Rəhimov və prokuroru Sənan Paşayev Ulu öndərin zəngin və şərəfli həyat yolu, siyasi və dövlətçilik fəaliyyətindən, onun başçılığı ilə aparılan hüquq islahatlarından, ölkəmizin bütün sahələrdə inkişafının təmin olunması istiqamətində göstərdiyi əvəzsiz xidmətlərdən danışıblar.





# Qədim diyarda Karyera Forumu

**Naxçıvanda "Qədim diyarda yeni fürsətlər" devizi ilə ilk dəfə karyera forumu keçirilib. Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə təşkil edilən işgüzar məclisin məqsədi peşəkar kadrların yetişdirilməsi, kadr ehtiyaclarının qarşılanması, əmək bazarına keçidin asanlaşdırılması və peşəkar bacarıqların inkişaf etdirilməsidir.**

Açılış mərasimində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində keçirilən forumda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev ölkəmizdə son illər aparılan sosial islahatlar, əmək bazarının inkişafı, aktiv məşğulluq proqramlarının genişləndirilməsi üçün atılan addımları diqqətə çatdırıb. O, son 5 ildə qeyri-formal məşğulluqla mübarizə sahəsində aparılan tədbirlər nəticəsində əmək müqavilələrinin sayında 35 faiz artım olduğunu qeyd edib.

Bildirilib ki, tarixi qələbəmizlə başa çatan Vətən müharibəsindən sonra şəhid ailələri, müharibə iştirakçıları və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial dəstək tədbirləri ilə əhatə olunması istiqamətində mühüm tədbirlər həyata keçirilib və 124 min şəxsə 300 mindən çox xidmət göstərilib. Artıq ölkədə 6 DOST Mərkəzi fəaliyyət göstərir. Yaxın zamanda Naxçıvan şəhərində də belə mərkəz istifadəyə veriləcək.

Vurğulanıb ki, məşğulluq sistemində də dərin islahatlar həyata keçirilir. Son 5 ildə məşğulluq orqanları tərəfindən 1 milyondan çox şəxslə müxtəlif istiqamətlər üzrə iş aparılıb. Məşğulluq xidmətləri sahəsində innovativ həllərin tətbiqi və rəqəmsallaşdırma işlərindən bəhs olunub. Bu ilin may ayında əmək və məşğulluq sahəsində islahatların yeni mühüm mərhələsinə keçidi təmin edən "Əmək və Məşğulluq" altsisteminin istifadəyə verildiyi qeyd olunub.

Forum müddətində 4 yerli və 2 xarici spikerin iştirakı ilə "Bilməmək eyib deyil, peşəkardan soruşmamaq eyibdir", "Bacarıq əmək bazarının cövhəridir" və "Dövr elə bu dövrdür" adlı 3 panel üzrə müxtəlif mövzularda işgüzar müzakirələr aparılıb, icmallar hazırlanıb. Bütün bunlar əmək bazarının tənzimlənməsi, kadr potensialının gücləndirilməsi, gələcəyin ən vacib əmək bacarıqları və onlara yiyələnmək yolları barədə müzakirə platforması yaratmağa imkan verəcək.

Səhifəni hazırladı: Səbuhi HƏSƏNOV
XQ
Naxçıvan

# Azərbaycan və Türkiyə enerji sektorunda da bir-birinin yanındadır




(əvvəli 1-ci səhifədə)

Türkiyə şirkətləri də Azərbaycanda yaradılmış əlverişli biznes mühitindən yararlanaraq müxtəlif sahələrə, o cümlədən iqtisadiyyata investisiya qoyuluşunda həvəslə çalışırlar. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda ölkəmizdə Türkiyədən olan 4 mindən artıq biznes subyekti fəaliyyət göstərir. Qardaş ölkənin şirkətləri tərəfindən ötən müddətdə, ümumilikdə, dəyəri 16 milyard dollardan çox olan 400-dən artıq layihə həyata keçirilib.

Ölkələrimiz arasında iqtisadi əlaqələrin ilbəil genişlənməsi illik ticarət dövriyyəsinin də artmasına səbəb olub. Belə ki, 2023-cü ilin yanvar-iyul aylarında Azərbaycanla Türkiyə arasında 4 milyard 747 milyon 195 min dollarlıq ticarət əməliyyatları həyata keçirilib ki, bunun da 1 milyard 323 milyon 60,2 min dolları idxalın, 3 milyard 423 milyon 59,3 min dolları isə ixracın payına düşüb. Yaxın gələcəkdə isə ölkələrimiz arasında illik ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması nəzərdə tutulur. Bu hədəfə çatmaq isə tam real görünür.

Hazırda Azərbaycan və Türkiyə regionun ən uğurlu və etibarlı enerji tərəfdaşları kimi tanınırlar. Enerji sektorunda əməkdaşlıq iki ölkə arasında iqtisadi əlaqələrin mühüm qolunu təşkil edir. Elə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəflə Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar arasında oktyabrın 6-da İstanbulda keçirilən görüş zamanı da ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın inkişafı ətraflı müzakirə edilib.

Görüşdə nazir Mikayıl Cabbarov Azərbaycan və Türkiyə arasında səmərəli enerji tərəfdaşlığının, birgə reallaşdırılan layihələrin regional inkişafa, sabitliyə, təhlükəsizliyə və ölkələrimizin strateji maraqlarının təmin olunmasına xidmət etdiyini vurğulayıb. Qeyd olunub ki, hazırda enerji təhlükəsizliyi dünyada əsas çağırışlardan birinə çevrilib, ölkələrimiz arasında bu sahədə, xüsusilə bərpaolunan enerji üzrə əməkdaşlıq imkanlarının reallaşdırılması qarşılıqlı faydalı əməkdaşlıqda mühüm istiqamətlərdəndir.

Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar isə ölkələrimizin iştirakı ilə həyata keçirilən genişmiqyaslı enerji layihələrinin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında xüsusi əhəmiyyət kəsb etdiyini bildirib, enerji tərəfdaşlığının yeni qlobal trendlərə uyğun şəkildə inkişaf etdirilməsi barədə fikirlərini bölüşüb.

Görüşdə, həmçinin ölkələrimizin uğurlu iqtisadi tərəfdaşlığı, enerji və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edilib.

Azərbaycanla Türkiyə arasında enerji tərəfdaşlığının əsası isə ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmiz tarixi müstəqilliyini əldə etdikdən sonra qoyulub. Həmin vaxt əbədi müstəqilliyinə qovuşan gənc Azərbaycan dövləti qardaş Türkiyənin timsalında özünün ən yaxın və etibarlı tərəfdaşını tapıb. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının təməl daşı olan "Əsrin müqaviləsi"ndə Türkiyənin TPAO şirkəti də yer alıb. Adıçəkilən şirkət sonralar Azərbaycanda həyata keçirilən bir sıra digər qlobal enerji layihələrinin də əsas iştirakçılarından birinə çevrilib.

Bununla yanaşı, Azərbaycan özünün karbohidrogen ehtiyatlarının Avropa və dünya bazarlarına çıxarılmasında əsas marşrut kimi məhz qardaş Türkiyənin ərazisini seçib. Məlum olduğu kimi, artıq 17 ildən çoxdur ki, Azərbaycanın xarici şirkətlərlə əməkdaşlığı çərçivəsində "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda hasil edilən xam neft Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə dünya bazarına çıxarılır. Ötən müddətdə sözügedən kəmərlə Türkiyənin Ceyhan limanına, təqribən, 555 milyon ton neft ixrac olunub. Burada isə neft tankerlərə yüklənərək müştərilərə çatdırılıb. Göründüyü kimi, Azərbaycan–Türkiyə enerji əməkdaşlığının uğurlu nəticəsi olan Bakı-Tbilisi-Ceyhan layihəsindən bu gün digər ölkələr də faydalanırlar.

2007-ci ildə Azərbaycan və Türkiyənin iştirakı ilə daha bir ixrac marşrutu–Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara buraxılıb. İlk illərdə bu kəmərlə "Şahdəniz"dən çıxarılan "mavi yanacaq" Türkiyə sərhədini keçsə də, sonradan bu yataqda hasilatın xeyli artması ilə əlaqədar daha geniş imkanlara malik boru kəmərinin çəkilməsi lazım gəlib. Beləliklə, Azərbaycan qazının Türkiyəyə və oradan da Avropanın dərinliklərinə gedib çatması üçün Cənub Qaz Dəhlizi və onun əsas seqmentləri sayılan Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəmərləri sistemi yaradılıb. Artıq 5 ildən çoxdur ki, TANAP vasitəsilə "Şahdəniz" qazı Türkiyəyə nəql olunur. Avropanın enerji xəritəsini zənginləşdirən TAP kəməri isə 2020-ci ilin dekabr ayından etibarən Azərbaycan qazını "köhnə qitə"dəki tərəfdaşlarımıza çatdırır.

Ötən müddətdə Azərbaycanın Türkiyənin energetika sektoruna yönəltdiyi sərmayə də iqtisadi münasibətlərin, o cümlədən enerji sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfələr verib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2006-cı ildə təsis edilən "SOCAR Türkiyə" şirkəti son 15 ildə qardaş ölkənin iqtisadiyyatına 18 milyard ABŞ dolları məbləğində investisiya yatırıb. "Petkim" neft-kimya kompleksi və STAR Neft Emalı Zavodu SOCAR-ın Türkiyədə reallaşdırdığı dünya səviyyəli layihələrdir.

Yaxın gələcəkdə isə ölkələrimiz "yaşıl enerji" sahəsində də fəal əməkdaşlıq edəcəklər. Bu il sentyabrın 25-də Azərbaycan–Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra Prezident İlham Əliyevin mətbuata bəyanatında Naxçıvanın "yaşıl enerji" zonasına çevriləcəyini bildirərək gələcəkdə buradan qardaş ölkəyə ən azı 1000 meqavat həcmində təmiz enerji ixracının mümkünlüyü ilə bağlı səsləndirdiyi fikirlər də bunu tam təsdiq edir.

Azərbaycanla Türkiyə arasında enerji sektorunda əməkdaşlığın daha da genişlənəcəyinə böyük əminlik var. Sentyabrın 25-də Naxçıvanda keçirilmiş Azərbaycan–Türkiyə III Enerji Forumu və "Naxçıvan–Yaşıl Enerji Zonası" beynəlxalq konfransında səsləndirilmiş fikirlər, imzalanmış sənədlər də bunu sübut edir.

*Mirbağır YAQUBZADƏ*
*XQ*



# Sərsəng Su Anbarı da azadlığına qovuşub

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən bildirildiyinə görə, Sərsəng Su Anbarının Azərbaycanın nəzarətinə keçməsi bir çox ərazilərinin suvarma suyu ilə təminatında böyük rol oynayacaq.**

Qeyd edilir ki, burada toplanan su axaraq Suqovuşan anbarında toplanır. Tezliklə həmin infrastrukturdan ötürülən su ilə Tərtər, Ağdərə, Ağdam, Ağcabədi, Yevlax, Bərdə və Goranboy rayonlarının, ümumilikdə, 95 min hektar əkin sahəsinin suvarma suyuna tələbatı təmin olunacaq. Bununla da Qarabağ iqtisadiyyatının inkişafında yeni mərhələ başlayacaq.

Hazırda adıçəkilən agentlik Sərsəng Su Anbarına nəzarət edir. Bu infrastrukturdan təkcə suvarma üçün deyil, həm də elektrik enerjisinin alınmasında istifadə edilir. Anbarın üzərində 50 meqavat gücündə su elektrik stansiyası da var. Orada işğal dövründə təmir-bərpa işləri görülməyib, texniki qurğular baxımsız qalıb.

Qeyd edək ki, 1976-cı ildə Tərtərçayın üzərində Sərsəng Su Anbarı tikilərək istifadəyə verilib. Anbarın ümumi həcmi 565 milyon kubmetr, faydalı həcmi isə 500 milyon kubmetrdir.

*XQ*

# Qeyri-neft sektoru sürətlə inkişaf edir

## *30 ildə bu sahəyə 200 milyard dollar investisiya qoyulub*



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclasında komitə sədri Tahir Mirkişili son 30 ildə Azərbaycan iqtisadiyyatına 300 milyard dollar investisiya yatırıldığını, bu vəsaitin 200 milyard dollarının isə qeyri-neft sektorunun payına düşdüyünü bildirib.**

Deputatın sözlərinə görə, son 20 ildə Azərbaycan iqtisadiyyatı 4 dəfə böyüyüb, dövlət büdcəsinin gəlirləri 30 dəfədən çox artıb, Azərbaycanın xarici ticarət dövriyyəsində isə 10 dəfə artım qeydə alınıb.

*XQ*

# İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələrimiz dərinləşir

## *Qurumun Nazirlər Şurasının növbəti iclası Şuşada keçiriləcək*

**Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişləndirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan ölkəmizin bir sıra beynəlxalq qurumlarla, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) ilə münasibətlərin dərinləşməsinə də önəm verilir. Oktyabrın 10-da Şuşa şəhərində İƏT-in Nazirlər Şurasının 27-ci iclasının keçirilməsinin qərara alınması da Azərbaycanın bu qurumla sıx əməkdaşlığının göstəricisidir.**

Son 20 il ərzində regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən, dinamik və hərtərəfli inkişaf yolu keçən respublikamızın iqtisadi qüdrəti və fəal xarici siyasəti beynəlxalq aləmə daha sıx inteqrasiyanı, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsini təmin edib. Şübhəsiz ki, bu uğurlara dövlətimizin başçısının inkişaf strategiyasına əsaslanan uzaqgörən siyasəti nəticəsində nail olunub.



Ölkəmiz tarix baxımından qısa müddət ərzində sıçrayışlı iqtisadi inkişafı reallaşdırıb, böyük transmilli layihələrin təşəbbüskarı və aparıcı iştirakçısı olub, 30 il düşmən əsarətində qalan Qarabağ və Şərqi Zəngəzuru azad edərək bu coğrafiyada genişmiqyaslı bərpa-quruculuq layihələrinin icrasına başlayıb. Azərbaycanın dünya birliyinə inteqrasiyasının gücləndirilməsi qarşılıqlı faydalı əməkdaşlığın inkişafı, beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin hazırlayıb.

İƏT-in növbəti iclasının Şuşa şəhərində keçirilməsi ilə bağlı onu da deyək ki, bu il oktyabrın 4-5-də İranın Ərdəbil şəhərində İƏT-ə üzv dövlətlərin turizm nazirlərinin 5-ci iclasında səsvermə nəticəsində Şuşa şəhəri təşkilatın 2026-cı il üçün turizm paytaxtı seçilib.

Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına görə, həmin toplantıda Azərbaycanı Dövlət Turizm Agentliyinin nümayəndə heyəti təmsil edib. Tədbir çərçivəsində üzv dövlətlər arasında turizm sahəsi üzrə mövcud əməkdaşlıq perspektivlərinə dair geniş müzakirə aparılıb, müvafiq sahə üzrə qarşılıqlı əlaqələrin daha da gücləndirilməsi istiqamətində görüləcək tədbirlər nəzərdən keçirilib.

Xatırladaq ki, 1964-cü ildə İran, Pakistan və Türkiyə tərəfindən İnkişaf üçün Regional Əməkdaşlıq (İRƏ) adı ilə üç ölkə arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə yaradılan sözügedən qurum 1985-ci ildən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatı adlandırılıb. Qurumun təsis proqramında davamlı iqtisadi artıma nail olunması, üzv dövlətlərin iqtisadi inkişafının sürətləndirilməsi, ticarətin liberallaşdırılması, üzv dövlətlərin iqtisadiyyatının dünya iqtisadiyyatına tədricən inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişaf etdirilməsi, maddi sərvətlərin səmərəli istifadəsi məsələləri qarşıya mühüm vəzifələr kimi qoyulub.

Yeri gəlmişkən, Azərbaycan İƏT-ə 1992-ci ildə üzv olub. Təşkilatın 9-cu və 12-ci zirvə toplantıları müvafiq olaraq 2006 və 2012-ci illərdə Bakıda reallaşıb, Bakı bəyannamələri qəbul edilib. Bu il yanvarın 24-də isə Özbəkistanın Daşkənd şəhərində İƏT-in Nazirlər Şurasının 26-cı iclası keçirilib. Toplantıda quruma sədrlik Azərbaycana keçib. Xarici işlər naziri Ceyhun Bayramov bununla bağlı bəyanatla çıxış edib. O, Azərbaycanın İƏT-in 2023-cü il üzrə sədrliyi çərçivəsində prioritet və planlarını açıqlayıb. Nazir, eyni zamanda, ölkəmizin 2023-cü ildə sədrliyi dövründə iqtisadiyyat, enerji, nəqliyyat, turizm və digər sahələrdə bir sıra yüksək səviyyəli görüşlərin keçiriləcəyini də diqqətə çatdırıb.

İƏT-in ötən müddətdəki iclaslarında Mərkəzi Asiya və Cənubi Qafqazdan keçən nəqliyyat marşrutlarının mühüm önəm daşıdığı, bu xüsusda Azərbaycanın regional nəqliyyat və tranzit dəhlizlərinin inkişaf etdirilməsi üçün görülən əhəmiyyətli işlər barədə ətraflı məlumat verilib. Bununla yanaşı, sözügedən istiqamətlərdə əməkdaşlığın gücləndirilməsi məqsədilə Türkiyə, Qazaxıstan və Özbəkistan ilə birgə üçtərəfli platformalar təsis edilib. Azərbaycan, Türkiyə və Qazaxıstan arasında ötən ilin iyun ayında Bakıda keçirilən görüşdə qəbul olunan Bakı Bəyannaməsində nəzərdə tutulan Transxəzər (Orta Dəhliz) Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üzrə müvafiq qərarların icrası vəziyyəti yüksək dəyərləndirilib.

İƏT-in Nazirlər Şurasının iclaslarında Şərqi Zəngəzur iqtisadi rayonundan Naxçıvan Muxtar Respublikasına nəqliyyat dəhlizinin yaradılması təşəbbüsünün əhəmiyyəti diqqətə çatdırılıb, bu infrastrukturun bütün bölgə ölkələri arasında əməkdaşlığın inkişafı üçün xüsusi əhəmiyyət daşıyacağı qeyd edilib. Bütün bunlarla bərabər, Zəngəzur Dəhlizinin Orta Dəhlizin tərkib hissəsi olmaqla həm də Avropadan Asiyaya gedən beynəlxalq marşruta alternativ kimi çıxış edərək regionun inkişafına təkan verəcək bir nəqliyyat xətti, Şimal ilə Cənub, Qərb ilə Şərq nəqliyyat dəhlizlərini birləşdirən önəmli arteriya kimi dəyərləndirilib.

İƏT fəaliyyətində üzv ölkələr arasında son 20 il ərzində sürətli sosial-iqtisadi inkişaf yolu keçən Azərbaycana daim üstünlük verib. Ölkəmizin quruma sədrliyi dövründə Bakıda yaradılması nəzərdə tutulan İƏT-BMT çərçivəsində Təmiz Enerji və İqtisadi Tədqiqatlar mərkəzlərinin fəaliyyətə başlaması istiqamətində həyata keçirilən layihələrin əhəmiyyəti qeyd edilib.

Yeri gəlmişkən, respublikamızın həyata keçirdiyi iqtisadi strategiyada təmiz enerji layihələrinin reallaşdırılması xüsusi yer tutur. Azərbaycanda bu istiqamət daim diqqətdə saxlanılır. Ölkəmiz bərpaolunan enerji mənbələrinin inkişafına böyük beynəlxalq dəstəkdən yararlanır. Artıq xarici tərəfdaşlarla bir sıra müqavilələrin bağlanılması da bunun bariz ifadəsidir. "ACWA Power" və "MASDAR" ilə sazişlər, həmçinin Avstraliyanın "Fortescue Future Industries" şirkəti ilə 12 geqavat enerji üzrə saziş Avropaya təmiz enerji resurslarının tədarüklərini artırmaq baxımından strateji önəm daşıyır. İlin sonunadək 240 meqavat-saat gücündə ilk günəş elektrik stansiyasının istismara verilməsi planlaşdırılır.

İƏT bu gün Azərbaycanın işğaldan azad olunan ərazilərində aparılan bərpa və yenidənqurma işlərini də diqqətdə saxlayır və bu torpaqlarda "yaşıl enerji" və azad iqtisadi zonaların yaradılması, sənayenin inkişafı istiqamətlərində həyata keçirilən layihələrin iştirakçıları sırasına tezliklə qoşulacağını da bəyan edib.

Burada düşməndən təmizlənən azad iqtisadi zonaların yaradılmasından, sənaye obyektlərinin işə salınmasından söz düşmüşkən, onu da qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa prosesi indiyədək sənayeləşmə siyasəti ilə paralel aparılıb. "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə 20-ə yaxın sənaye müəssisəsi qeydiyyata alınıb. Düşməndən təmizlənən ərazilərdə aqrar-sənaye kompleksinin tərəqqisi məqsədləri üçün 940 fermer təsərrüfatının qurulması nəzərdə tutulub.

Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının hazırda 3 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən bu zonaya 21 milyon manatdan çox investisiyanın yatırılması, 270-dən artıq iş yerinin yaradılması planlaşdırılıb.

*Vaqif BAYRAMOV*
*XQ*

BEYNƏLXALQ HƏYAT

# “Həmas” yaraqlıları İsrailə raket hücumu ediblər

## Təl-Əviv buna cavab olaraq “Dəmir qılınclar” əməliyyatına başlayıb

(əvvəli 1-ci səhifədə)

Qlobal KİV yazır ki, İsrailə onlarla raket atılıb və ölkə boyunca hava hücumu həyəcanı işə salınıb. Sosial şəbəkələrdə paylaşılan videolarda fələstinli silahlıların İsrailin Sderot şəhərində küçədə yoldan keçənlərə atəş açdığı görünür.

İsrail ordusu müharibəyə hazırlıq vəziyyəti elan edib. Bundan başqa, İsrailin müdafiə naziri Yoav Qallant ehtiyatda olan hərbçilərin kütləvi çağırışını elan edib. Nazir həmçinin bildirib ki,



“Həmas” onun ölkəsinə qarşı ciddi səhv edib və müharibəyə başlayıb.

İsrailin Baş naziri Binyamin Netanyahu X hesabında paylaşdığı məlumatda yazıbdır: “Səhər saatlarından İsrail dövləti müharibə vəziyyətindədir. Müharibədə insanlar ağıllı olmalıdır. Mən bütün İsrail vətəndaşlarını ali məqsədimizə - müharibədə qələbəyə nail olmaq üçün birləşməyə çağırıram. Bizim birinci məqsədimiz ərazimizə sızmış düşmən qüvvələri təmizləmək və hücuma məruz qalmış icmalarda təhlükəsizliyi və sabitliyi bərpa etməkdir. İkinci məqsədimiz Qəzza zolağında da düşmənə böyük bir dərs verməkdir. Üçüncü məqsədimiz isə başqa cəbhələri gücləndirməkdir ki, heç kim səhvən bu müharibəyə qoşulmasın”.

İsrail hərbçiləri Qəzzadakı hədəflərə cavab zərbələri endiriblər. Qəzza ətrafındakı ərazilərdə partlayışların baş verməsinə dair xəbərlər yayılıb. Son məlumatlara görə, İsrail ordusu “Həmas”ın 17 hərbi infrastrukturuna və 4 əməliyyat --idarəetmə mərkəzinə zərbələr endirib. Fələstinlilər arasında da çox sayda ölən və yaralananların olduğu qeyd olunur.

Bu arada, “BBC News”un təhlükəsizlik məsələləri üzrə müxbiri Frank Gardner İsrail hökumət rəsmilərinə istinadən bildirib ki, “İsrail kəşfiyyatı “Həmas”ın bu, kütləvi və koordinasiya edilmiş hücumu ilə bağlı öncədən məlumatlı olmayıb. Yeri gəlmişkən, bunun səbəbləri hökumət tərəfindən təcili olaraq araşdırılır.

Xatırladaq ki, İsrail Yaxın Şərqin həm daxildə, həm də xaricdə kifayət qədər böyük və inkişaf etmiş kəşfiyyat şəbəkələrindən birinə sahibdir. Lakin son hadisə İsrail kəşfiyyatının ciddi uğursuzluğu kimi qəbul edilir. Belə ki, “Həmas” bu dəfə diqqətlə hazırlanmış hücumu İsrailə qarşı tamamilə məxfilik şəraitində planlaşdıraraq həyata keçirə bilib.

Mahmud Abbas dünən Fələstinin Ramallah şəhərində yüksək səviyyəli mülki və təhlükəsizlik rəsmilərinin toplantısını keçirib. O, tədbirdə fələstinlilərin özlərini müdafiə etmək hüquqları olduğunu vurğulayıb.

İsraildə baş verənlər dünya liderlərinin və mediasının da diqqət mərkəzindədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İsraillə Fələstin arasında yaşanan gərginliyə münasibət bildirib: “Biz bütün tərəfləri təmkinlə hərəkət etməyə və gərginliyi daha da artıracaq düşünülməmiş addımlardan çəkinməyə çağırırıq”.

“Avropa İttifaqının (Aİ) rəsmisi sosial şəbəkəsində bu barədə belə yazıbdır: “İsraillə bağlı xəbərlər bizi kədərləndirib. Biz birmənalı olaraq “Həmas”ın hücumlarını pisləyirik. Aİ bu çətin anlarda İsraillə həmrəyliyini ifadə edir”.

Ağ ev və rəsmi London İsraili birmənalı olaraq müdafiə etməyə hazır olduqlarını bildiriblər. Qərb dövlətlərinin başçıları, eyni zamanda tərəfləri eskalasiyadan qaçmağa, danışıqlara başlamağa səsləyiblər.

Hadisə yerindən reportaj hazırlayan jurnalistlər qeyd edirlər ki, hazırda həm İsrail, həm də Fələstin sakinləri təşviş içindədirlər. Yeri gəlmişkən, İsraildə yaranmış vəziyyətlə əlaqədar Azərbaycanın bu ölkədəki səfirliyi vətəndaşlarımıza müraciət edib. Səfirliyin X sosial şəbəkə hesabında yayılan müraciətdə bildirilib: “İsrailin Müdafiə Qüvvələri tərəfindən müharibə vəziyyəti elan edilib. Bununla əlaqədar Azərbaycan vətəndaşlarına ölkədaxili səfərlər etməməyi, təhlükəsizliyə riayət etməyi, ehtiyatlı olmağı, yerli dövlət qurumlarının verdiyi təlimatlara uyğun davranmağı tövsiyə edirik”.

Dünən “Trend”ə açıqlamasında İsrail vətəndaşı olan azərbaycanlı Sabir Quliyev (ad şərtidir - red.) deyib. İsrailin hər bölgəsinə raket atırlar, hər yerdən atəş səsi gəlir.

Ümid edirik ki, İsraildə tezliklə gərginliyi azaltmaq, sülh və sabitliyi bərqərar etmək mümkün olacaq. Bir çox nüfuzlu beynəlxalq qurumlar bu istiqamətdə artıq konkret addımlar atmağa başlayıblar. Dünən BMT-nin Baş katibi bölgəyə şəxsi nümayəndəsini göndərəcəyini bildirib.

*M. HACIXANLI*
*XQ*

XQ tanıdır

# Evini kimsəsiz ahıllara bağışlayan milyonçu

**Nədənsə, Bakı milyonçularından söhbət düşəndə ilk yada düşən Hacı Zeynalabdin Tağıyev olur, yaxud Musa Nağıyev. Qalan milyonçular barədə az məlumatlıyıq. Məsələn, Bakıda Hacı HacıağaDadaşov adına küçə var, amma onun kim olduğunu çoxumuz bilmirik.**

Elə ondan söhbət açmaq istəyirik – milyonçu Hacı Hacıağadan. Bilgəhdəki qocalar evinin sahibi olub, daha doğrusu, öz mülkünü baxımsız ahıllara bağışlayıb. Bakıya şollar suyunun çəkilməsi üzrə fəaliyyət göstərən komissiyanın tərkibində çalışıb və özü də bu işə xeyli vəsait ayırıb. Hacı Zeynalabdin Tağıyevlə dost olub, onun həyata keçirdiyi bütün layihələrdə iştirak edib.

Bakı milyonçularından olan Hacı Hacıağa Dadaşovun neft buruqları olmayıb, sərmayəsini ticarətdən qazanıb. Qazancı yalnız ticarətdən olub və ondan gələn gəlirlə sonradan gəmilər inşa etdirməyə başlayıb. Gəmiçilik və ticarət, bir də gərgin zəhmət – onun milyonlarının mənbəyi bunlar idi.

Həm də çox vətənpərvər olan Hacı Hacıağa bir gün eşidir ki, Bakıdakı "Metropol" mehmanxanasını Tiflisdə hərraca qoyurlar. Gedir Tiflisə. Tanıyanlar orda onu görüb gülürlər ki, Hacı, nə əcəb, Tiflisə gəlmisən, sən ki, faytona bir abbası verməyib, 15 qəpiklik dəmir təkərli köhnə arabada gəzirsən? Deyir, tamaşaya baxmağa gəlmişəm.

Hərracda qiymətlər yavaş-yavaş qalxıb son həddə çatanda Hacı arxadan: "99 min" – deyərək ayağa qalxır. Heç kim dillənmir. Beləliklə, Bakı milyonçusu mehmanxananı alır...

“Küçədə ondan soruşurlar:

– Hacı, səndə bu qədər pul hardandır?

– Faytonlara vermədiyim 5 qəpiklərdəndir, – deyir.

– Yaxşı, bəs niyə 100 min demədin?

– O qalan pulla 5 min dəfə faytona minmək olar”.

1876-cı ildə Azərbaycan tacirləri üçün 1-ci və 2-ci kateqoriya dərəcəsi təyin ediləndə bu rütbə Bakıda ilk dəfə Hacı Hacıağaya verilib. Onun Bakıda 40-dək mülkü, Xəzər dənizində çoxlu gəmiləri olub. Gəmiçiliklə ticarətdən daha çox gəlir əldə edib. Bütün



Yaxın və Uzaq Şərq ölkələri ilə ticarət əlaqələri varmış.

Hacının Bakıda ilk dəfə Ahıllar evi açdırmasının maraqlı tarixçəsi var. Bir dəfə uşaqları tərəfindən evindən qovulan qoca kişi Hacıdan sığınacaq istəyir. Bu hadisədən təsirlənən Hacı Bilgəhdəki mülkünü qocalar evinə çevirir. Həmin pansionat bu günə kimi də fəaliyyət göstərir. 2000-ci ildən pansionatın yerləşdiyi küçə orada yaşayan ağsaqqalların xahişi ilə Hacı Hacıaga Dadaşovun adını daşıyır.

Qəribədir ki, onu da Musa Nağıyev kimi xəsis adlandırıblar. Görünür, o vaxt bu bir növ milyonçulara təsir forması imiş. Əslində isə milyonları qazanmaq asandır, onu xərcləmək isə – çətin. Görünən həqiqət budur ki, milyonçu öz milyonlarını hər yerə xərcləmədiyi üçün onları toplaya bilib.

Su çəkdirən, məktəb açan, onlarla xeyriyyəçilik işinə imza atan Hacı Hacıağa Dadaşov 1905-ci ildə vəfat edib.

*R.QURBANLI*
*XQ*

# Qarabağ təbii sərvətlər xəzinəsidir

## Düşmənin qarət etdiyi yataqlar xalqımıza qaytarılıb



**İşğaldan azad olunmuş ərazilər faydalı qazıntıları ilə zəngindir. Bu bölgədə kəşf olunmuş 167 növ müxtəlif faydalı qazıntı yataqları var. Lakin bu, son hədd deyil. Regionda 500-dən artıq yatağın artıq formalaşmasına və ehtiyatların hesablanmasına imkanlar var.**

Zaman keçdikcə onların axtarış-qiymətləndirmə və kəşfiyyat işləri aparılacaq, ehtiyatları hesablanacaq. Yataqların isə hər biri Azərbaycan iqtisadiyyatının inkişafına töhfəsini verəcək. Bölgədə çeşidli sənaye məhsulları istehsalı ölkəmizin ixrac imkanlarını artırmaqla yanaşı, əhalinin məşğulluğunu da təmin edəcək.

Ən zəngin faydalı qazıntı ehtiyatları isə Kəlbəcər rayonundadır. Rayon faydalı qazıntı ehtiyatları ilə zəngin olan Daşkəsən ilə həmsərhəddir, Gədəbəy rayonu ilə məsafəsi isə kifayət qədər azdır. Kəlbəcər, Daşkəsən və Gədəbəy rayonlarının potensialı ilə respublika əhəmiyyətli dağ-mədən sənayesi aqlomerasiyası formalaşdırmaq mümkündür. 1993-cü ildək Kəlbəcər rayonunda təsdiq edilmiş yataqlar üzrə faydalı



qazıntı ehtiyatları–130 ton qızıl, 190,33 ton gümüş, 45,82 ton tellur, 248,89 ton selen, 939 ton civə, 10 927 min kubmetr mişar daşı, 1 312 min kubmetr gil, 2 540 min kubmetr qum-çınqıl, 5189,6 ton əlvan daş, gündəlik ehtiyatı 3093 kubmetr /gün mineral su, 12 428 min kubmetr tikinti daşı, 1 901 min kubmetr üzlük daşı və 4 473 min kubmetr sement xammalı mövcud olub.

Hazırda Kəlbəcər rayonu ərazisində kəşf olunan faydalı qazıntı yataqlarının istismarı ön plandadır. Artıq bununla bağlı ilkin mərhələyə başlanılıb. Əvvəlcə bu yataqların diaqnostikası aparılacaq. Sonra onların effektivlik və önəmlilik dərəcəsi nəzərə alınmaqla istismarı nəzərdə tutulur. Paralel olaraq yataqların istismarı və minerallaşma zonalarında dəqiq axtarış işlərinin aparılması planlaşdırılır.

Filiz yığımlarından ən çox əhəmiyyət kəsb edəni isə qızıl yataqlarıdır. Bu yataqlar işğadan azad olunmuş rayonlarda iqtisadiyyatın dirçəldilməsində rol oynayacaq. Bunlardan Söyüdlü (Zod), Ağdüzdağ, Ağzabir-Qızılıtən, Qızılbulaq və Vejnəli yataqları işğal dövründə xarici şirkətlərlə birlikdə ermənilər tərəfindən qanunsuz olaraq istismar edilmiş, iqtisadi və ekoloji baxımdan ölkəmizə əhəmiyyətli dərəcədə ziyan vurulmuşdu. İşğaldan azad edilmiş ərazilərdə xromit, mis, civə, molibden və mərgümüşlə zəngin, sənaye potensialına malik yataqlar da az deyil. Bu yataqlar da əlavə dəqiq tədqiqatlar tələb edir.

Ehtiyatları təsdiqlənən qeyri-metal faydalı qazıntı yataqları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində dağ-kimyəvi (kükürd kolçedanı, soda xammalı, litoqraf daşı) xammal, qiymətli-zinət (jadeit, əqiq, obsidian (dəvə gözü), nefritoidlər) və zinət (yeşəm, mərmər oniksi, felzit tufu, listvenit) daşları, həmçinin ümumi ehtiyatları 10 milyon kubmetrlərlə ölçülən mişar, üzlük və inşaat daşları, sement xammalı, büzücü maddələr, mineral boyalar, inşaat kərpici üçün xammal, beton doldurucuları və yol-tikinti xammalı kimi inşaat materialları ilə diqqət çəkir.

Bunlardan bir çoxu (Şahbulaq əhəngdaşı yatağı, Əsgəran mergel yatağı, Ağçay, Harov, Zərinbax, Yemişcan və Gülablı mərməlaşmiş əhəngdaşı yataqları, Çıldıran felzit tufu yatağı, Edişə qabbro-teşenit yatağı, hər iki Çiləbürt gəc yataqları və s.) işğal dövründə intensiv olaraq ermənilər tərəfindən istismar edilib, alınan məhsulların əksəriyyəti isə regiondan kənara çıxarılıb. Yanar faydalı qazıntılardan dağlıq ərazidə kiçik miqyaslı Çardaqlı daş kömür yatağı kəşf edilib. Bu yataqlar artıq Azərbaycan xalqına xidmət edəcək, ölkəmizin iqtisadi qüdrətini artıracaq.

Qeyri-metal xammal ehtiyatlarının potensialı sənaye əhəmiyyətli proqnoz resurslara malik çoxsaylı xalsedon, yaşəm, mərmər oniksi, kopal, mərmər, serpentinit, İslandiya şpatı, pyezokvars, müxtəlif inşaat materialları və digər faydalı qazıntı təzahürləri ilə fərqlənir.

Müəyyən həcmdə bazalt, mərmər və qranit yataqlarının da böyük ixrac potensialı var. Nəqliyyat infrastrukturu qurulduqdan, avtomobil yollarının və sonradan dəmir yollarının ümumi kommunikasiya sisteminə qoşulmasından sonra onlar Türkiyə və digər ölkələrə ixrac olunacaq.

İşğaldan azad edilmiş ərazilər mineral sularla da zəngindir. Statistikaya görə, Azərbaycanda mineral suların ümumi ehtiyatının 33 faizi Kəlbəcər və Laçın rayonlarında yerləşir. Bu rayonlarda suların gündəlik istismar ehtiyatı 7393 kubmetr təşkil edir ki, bunun da 42 faizi Laçının, 58 faizi isə Kəlbəcərin payına düşür. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, işğaldan azad edilmiş ərazilərdəki mineral sulardan sənayenin inkişafında istifadə edilməsi üçün, Kəlbəcərdə “İstisu” mineral su zavodunun tikinti işlərinə başlanılıb. Zavodda həm şüşə, həm də plastik butulka istehsalı xətlərinin qurulacaq. Müəssisədə gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsalı nəzərdə tutulub. Suyun mənbəyinə gəldikdə, 200 metr dərinlikdə yeni quyu qazılıb. Çıxışda istilik 60-65 C dərəcəyə bərabərdir.

Ərazinin hidroenergetika vəziyyəti ilə bağlı isə onu qeyd edək ki, son vaxtlar bir sıra kiçik su elektrik stansiyalarının istifadəyə verilməsi ilə əlaqədar elektrik enerjisi istehsalı artıb. Müvafiq infrastrukturun bərpa olunacağı təqdirdə ondan nəinki regionun, həm də Azərbaycanın digər bölgələrinin elektrik enerjisi iləDüşmənin təmin edilməsinə imkan verəcək.

Zəngin meşələri də unutmaq olmaz. Meşələrin olması, tikintinin artan tələbatı ağac emalı sənayesinin inkişafına, tikinti materiallarının istehsalına kömək edəcək. Eyni zamanda kifayət qədər sürətli iqtisadi effekt verəcək, yerli əmək bazarını canlandırmaqla reinteqrasiyayanı sürətləndirəcək. Ümumiyyətlə, əksər tikinti materiallarının ehtiyatları elə regionun özündə də var: mişar daşı istehsalına yararlı tulus tuf, çaxmaqçay, tikinti qumu, kərpic istehsalına yararlı Qaracallı gil, sement istehsalına yararlı vulkan külü, gəc, əhəngdaşı, qum-çınqıl, yeşəm, xalsedon və meşə ehtiyatları.

Beləliklə, regionun çox böyük sənaye potensialı var. Təbii resursları dövriyyəyə cəlb etməklə Azərbaycan qərb bölgəsinin inkişafını, dağ-mədən sənayesinin yüksəlişini təmin edəcək. Ən əsası azad edilən ərazilərin iqtisadiyyatı yenidən qurulacaq və yeni texnologiyalar tətbiq olunacaq, bu isə iqtisadiyyatı daha məhsuldar edəcək.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Süni intellekt xəyalların gerçəkləşməsidir

**AMEA-nın vitse-prezidenti, AR Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev Xalq TV-yə geniş müsahibə verib. Alim müsahibəsində süni intellekt nəzəriyyəsinin yaranma tarixi, elmi-nəzəri əsasları, müasir vəziyyəti, problemləri və inkişaf perspektivləri, həmçinin Azərbaycanda bu sahədə görülən işlər haqqında söhbət açıb.**

**– Rasim müəllim, əvvəlcə süni intellekt nəzəriyyəsinin yaranma tarixi barədə qısa məlumat verməyinizi istərdik.**

– Məlumdur ki, son zamanlar süni intellekt texnologiyaları insanların həyatına sürətlə daxil olur. Yeni texnologiyalar dünya ölkələrinin siyasətinə təsir edir, dövlətlərin strateji potensialını müəyyənləşdirir. Süni intellekt texnologiyalarından həm hərbi, həm də mülki məqsədlərlə geniş istifadə olunur. Artıq bəşəriyyətin inkişafının bu mərhələsində süni intellekt insanların ailə və cəmiyyət, hakimiyyət və vətəndaş münasibətlərinə güclü təsir edərək yeni reallıqlar yaratmaqda, dövrümüzün ideologiyasına çevrilməkdədir. Əlbəttə ki, bu tendensiyanın da müsbət və mənfi tərəfləri vardır.

Süni intellekt nəzəriyyəsinin elmi-nəzəri əsaslarına gəldikdə, demək olar ki, insanların bütün dövrlərdə süni intellektlə bağlı arzuları olub. Hətta bu texnologiyalar meydana gəlməmişdən öncə Ayzek Azimov, Karel Çapek kimi fantast yazıçılar öz əsərlərində süni intellekt məsələlərinə toxunub, müxtəlif mülahizələr irəli sürüblər. Lakin süni intellektin reallaşması ötən əsrin 40-cı illərindən sonra, kompüter texnologiyalarının ortaya çıxması ilə baş vermişdir. Həmin dövrlərdə kompüterdə hesablama və məntiq əməliyyatlarının həyata keçirilməsinə nail olunurdusa, paralel olaraq Alan Türinq, Lütfi Zadə kimi görkəmli alimləri belə bir sual düşündürürdü: kompüterlər, eyni zamanda insan kimi düşünə, qərar qəbul edə, yaxud gələcəklə bağlı müəyyən proqnozlar verə bilərlərmi? Söhbət insana xas olan bəzi intellektual funksiyaların həmin o alqoritmlərə, proqramlara, modellərə köçürülməsindən gedirdi.

Qeyd etdiyim kimi, ötən əsrin 40-cı illərindən etibarən bir sıra alimlər insan beynini təşkil edən neyronların süni modellərini yaratmağa başladılar. Lakin nəzərə almaq lazımdır ki, o dövrlərdə kompüterlərin özünün imkanları hələ çox məhdud idi. Ona görə də süni intellekt ideyalarının həyata keçirilməsi, onun riyazi-fiziki əsaslarının inkişaf etdirilməsi üçün bir qədər zaman lazım idi.

1950-ci ildə A.Türinqin çap etdirdiyi “Hesablama maşınları və intellekt” adlı əsər, eyni zamanda professor Lütfi Zadənin ABŞ-ın Kolumbiya Universitetində çap olunmuş süni intellekt nəzəriyyəsinə aid məqaləsi bu sahənin inkişafına əhəmiyyətli töhfə olmuşdur. Süni intellekt terminini isə Amerika alimi Con Makkarti ilk dəfə 1956-cı ildə Dartmut Kollecinin yay seminarında təqdim etmişdir. Bununla da, öz-özünə öyrənən, qavrayan və yeni biliklər yaradan süni intellekt texnologiyalarının əsası qoyulmuşdur.

İki məqamı xüsusi qeyd etmək istəyirəm. Məlumdur ki, təbii intellektin yaranmasını, generasiya olunmasını təmin edən neyronlar bir-biri ilə müxtəlif münasibətlərdə, əlaqələrdə olmaqla, insanın bilik ortaya qoymasına gətirib çıxarır. Bu gün süni intellektin əsas dayaqlarından biri beynin əsasını təşkil edən neyronların xüsusiyyətlərini öyrənməkdir. Son dövrlərdə dərin təlim texnologiyaları, müxtəlif smart qurğular haqqında çox eşidirik. Onların da əsasında süni neyron şəbəkələri dayanır. Bu, o deməkdir ki, süni intellektin inkişaf etməsi məhz süni neyron və onun şəbəkələrinin ortaya qoyduğu məntiqi-riyazi imkanlarla bağlıdır. Süni intellekt onun əsasında qərar qəbul edir, seçir, tanıyır, proqnozlar verir və s. Bu, birinci məqamdır.

İkinci məqam ondan ibarətdir ki, insanın məntiqi yalnız “0” yaxud “1”, “hə” və ya “yox” ikiqiymətli məntiq əsasında qurulmayıbdır. “Hə” və “yox” nisbidir – bu intervalda istənilən qiymət ola bilər. Bunun da riyazi ifadəsini professor Lütfi Zadə 1965-ci ildə “Qeyri-səlis çoxluqlar və qeyri-səlis məntiq” nəzəriyyəsi ilə vermişdir. Bu nəzəriyyə süni intellektin inkişafında inqilabi dəyişikliyə səbəb olmuşdur.

Bundan başqa, süni intellekt biologiyadan yararlanan, qaynaqlanan bilikləri də əxz edir. Ayrı-ayrı canlıların müəyyən rasional funksiyaları vardır ki, onları modelləşdirib bugünkü və gələcəkdə yarana biləcək problemlərin həlli üçün istifadə etmək mümkündür. Təsadüfi deyildir ki, bu gün genetik alqoritmlər, qarışqa alqoritmi, arı sürüsünün alqoritmi və s. ilə qarşılaşırıq. Yəni alimlər bioaləmi öyrənməklə, oradakı davranışı, funksionallığı, imkanları, münasibətləri aşkarlayıb, riyazi modellərini qururlar və alqoritmləşdirirlər. Onların da əsasında müxtəlif intellektual qurğular, sistemlər, proqram məhsulları yaradırlar.

Ötən əsrin 40-cı illərində mövcud olan texnoloji potensial süni intellektlə bağlı ideyaları həyata keçirməyə imkan vermirdi. Lakin kompüterlərin kompleks imkanları (sürət, yaddaş, riyazi təminat və s.) artdıqca, əvvəllər həlli mürəkkəb olan məsələlər bu gün superkompüterlər vasitəsilə çox asanlıqla həll olunur. Digər tərəfdən, müasir dövrdə süni intellekt texnologiyalarına əsaslanan proqram məhsulları – məsələn, çatbotlar mövcuddur. Bu proqramlar İnternet-platformada fəaliyyət göstərir, ona bir kitabxana – nəhəng biliklər bazası kimi baxılır. İnternetin bütün resursları onun üçün əlçatandır. Təsadüfi deyildir ki, artıq ölkələr, insan cəmiyyəti bu kimi məsələlərə görə çox narahat olmağa başlayıb. Çünki gedən proseslər cəmiyyətin idarə olunmasına mənfi təsir edə bilər.

**– Siz süni intellekt əsasında hazırlanan texnologiyalardan danışdınız. Bəs bu cür texnologiyalar, o cümlədən robotlar gələcəkdə xaotik vəziyyət yarada, insanlığın əleyhinə çevrilə bilərlərmi?**

– Məlumdur ki, süni intellekt texnologiyalarının yaradıcısı insandır. Bu kimi texnologiyaların meydana gəlməsində fundamental elmlər sahəsində fəaliyyət göstərən fiziklər, riyaziyyatçılar, kimyaçılar illərlə tədqiqatlar aparır, müəyyən nəticələr əldə edirlər. Yeni texnologiyalar, ümumən, insanların, cəmiyyətin xeyrinə olsa da, onların riskləri qaçılmazdır.

Düzdür, bəzən ölkəni xaricdən olan təhlükələrdən qorumaq, dövlətin müdafiə qüdrətini gücləndirmək üçün müxtəlif silahlar da yaradılır. Bu, təbiidir. Eyni zamanda insanların sağlamlığı ilə bağlı istehsal edilən ayrı-ayrı dərmanlar, müalicə üsulları başqa məqsədlərlə – bioloji, kimyəvi silah kimi də istifadə olunur. Bütün bunlar insanın iradəsindən asılı olan məsələlərdir.

Təbii olaraq, sizin verdiyiniz sual ortaya çıxır: Bəs süni intellekt texnologiyaları hansısa mərhələdə insan iradəsindən kənara çıxa bilərmi? Yəni süni intellektin imkanları elə bir həddə çata bilər ki, təbii intellekt onun qarşısında aciz qalsın və insan cəmiyyətdə dominantlığını, yəni ali varlıq olmasını itirsin? Məlumdur ki, insan bioloji, süni intellekt isə texnoloji varlıqdır və ayrı-ayrı qurğulardan ibarətdir. Yaxın gələcəkdə süni intellektə malik olan texnoloji varlıqların çoxalaraq insan cəmiyyətinə paralel olan texnocəmiyyət yaradacağı proqnozlaşdırılır. Belə ki, son zamanlar V, VI sənaye inqilablarından bəhs edilir. Yeni sosio-texnoloji cəmiyyətə keçidin baş verməsi və bu hibrid, qarışıq cəmiyyətdə həmin intellektual texnoloji varlıqlar ilə insanların birgə yaşayışı, fəaliyyət göstərəcəyi gözlənilir. Bu da onların cəmiyyətdə ali məqama, dominant mövqeyə yüksəlməsi ilə bağlı riskləri artıracaqdır.

Süni intellekt cəmiyyətdə müəyyən funksiyalar daşıdığı üçün onun da fəaliyyətinin tənzimlənməsi, onu yaradanın qanun qarşısında məsuliyyəti, cəmiyyətdə yeni intellektual texnologiyalardan istifadə olunması və hətta istifadədən sonra onların məhv olunması ilə bağlı müəyyən qayda-qanunlar, normativ-hüquqi sənədlər qəbul olunmalıdır. Hazırda dünya ölkələri baş verə biləcək təhlükələrin qarşısının alınması üçün müxtəlif qərarlar, qanunlar qəbul edirlər.

Son zamanlar yüksək texnoloji inkişafın təsiri ilə alimlər artıq süni xüsusi intellektdən süni ümumi intellektə keçmək üçün ciddi araşdırmalar aparırlar. Yəni məsələn, alim süni intellektə hər hansı bir canlının ona ziyan vura biləcəyini öyrədir. Lakin süni intellekt daha təhlükəli başqa bir canlını tanımadığı üçün ondan qorxmayacaq. Bundan fərqli olaraq, insan bir canlının təhlükəli olduğunu bildiyi halda onun beynində məntiqi ümumiləşdirmə prosesi gedir. Bu da insanın müəyyən əlamətlərinə, keyfiyyətlərinə görə həmin sinfə daxil olan canlılardan qorxmalı olduğunu da anlamasına imkan verir. Bu baxımdan təbii intellekt süni intellektdən çox-çox üstün hesab edilir.

İnsanın induksiya əsasında, yəni xüsusidən ümumiyə, sadədən mürəkkəbə doğru əlamətləri ümumiləşdirməsi təbii ümumi intellektə aid xüsusiyyətdir. Bunun da analoqu süni ümumi intellektdir. Bu gün mövcud olan heç bir süni intellekt hələ ki, insan kimi ümumiləşdirmə qabiliyyətinə malik deyil. Ona görə də qavrama, öyrənmə, obrazları tanıma, proqnozlaşdırma, alternativ situasiyada qərar qəbuletmə və s. kimi funksiyalar süni intellektə insan tərəfindən verilən konkret tapşırıqdan irəli gələn intellektual funksiyalardır.

Süni ümumi intellektin arxasında İnternet resursları, ağlasığmaz imkanlara malik olan superkompüter texnologiyaları, qabaqcıl intellektual metodlar, modellər və alqoritmlər dayanır. Hətta son zamanlar ifrat böyük verilənlərin sürətli emalı və ötürülməsi problemləri ilə əlaqədar olaraq, kvant texnologiyalarına xüsusi diqqətin ayrılması zərurəti yaranıb. Belə ki, artıq kvant kompüterləri, kvant serverləri və s. kimi kvant texnologiyaları “informasiya partlayışı” şəraitində çıxış yollarından biri kimi qeyd olunur. Hazırda qabaqcıl ölkələrin təcrübəsi kvant texnologiyalarının böyük strateji əhəmiyyətə malik olduğunu göstərir. Bu baxımdan, kvant texnologiyalarının tətbiqi və təkmilləşdirilməsi inkişaf etmiş ölkələrin qarşısında dayanan prioritet vəzifələrdən hesab edilir.

Beləliklə, süni xüsusi intellektin süni ümumi intellektə çevrilməsi və bunun da əsasında dayanan elmi-nəzəri potensial, texnoloji inqilablar, yeni bir inkişaf mərhələsi kimi süni super intellekt ideologiyasını aktuallaşdırır. Bu gün artıq IV Sənaye İnqilabının Big Data resurslarının bütün koordinatlar üzrə ifrat sürətlə artımına dair çağırışları rəhbər tutularaq, süni super intellektin yaradılması istiqamətində mühüm elmi tədqiqatlar aparılır, problemlərin həlli üçün bütün imkanlar səfərbər olunur.



**– İndi bəzi alimlər superintellektin yaranması ehtimalından bəhs edirlər. Bu barədə nə deyə bilərsiniz?**

– Bəli, artıq insanın bioloji, intellektual imkanları ilə silahlanan süni intellektin imkanları gözləmədiyimiz, təsəvvür edə bilməyəcəyimiz həddə gəlib çıxmaqdadır. Süni intellektin yaddaş və hesablama gücü, virtual platformada zaman və məkandan asılı olmayaraq fəaliyyət göstərməsi, çox müxtəlif mənbələrdən böyük həcmli məlumatlar toplaması, sürətlə analiz etməsi, onlardan yeni biliklər əldə etməsi, proqnozlar verməsi və s. kimi geniş imkanları, Superintellektin yaranması perspektivləri onun gələcəkdə insanı üstələyə bilməsi ehtimalı ilə bağlı fikirlərin irəli sürülməsinə əsas verir, texnologiyaların cəmiyyətin aparıcı qüvvəsinə çevriləcəyi proqnozlaşdırılır.

Bildiyiniz kimi, fərdin, ayrı-ayrı insanların təbii intellekti olduğu kimi, cəmiyyətin də bir ictimai şüuru, kollektiv təbii intellekti vardır. Cəmiyyət sürətlə inkişaf edir, insanlar yeni biliklər əldə edirlər. Buna paralel olaraq, ayrı-ayrı süni intellekt qurğuları, proqram məhsulları və s. fərdi süni intellektə malikdir. Fərdi süni intellekt daşıyıcıları, yəni həmin smart qurğular bir-biri ilə əlaqə quracaq, ictimailəşərək kollektiv süni intellekt yaradacaqlar. Yaxın gələcəkdə isə kollektiv təbii intellekt və kollektiv süni intellektin birgə yaşayışı, bir-biri ilə ünsiyyət qurması, bir-birinə yararlı olması, bəzi hallarda ziyan vurması, müəyyən təhlükələr yaratması haqqında bəzən elmi, bəzən futuroloji, bəzən də fantastik mülahizələr irəli sürülür. Bütün bunların nəticəsində proqnozlaşdırıla bilməyən müəyyən perspektivlər ortaya çıxa bilər.

İnternet mühitin get-gedə intellektuallaşdırılması, həmin mühitdə kollektiv süni intellektin yaranması artıq süni intellekt texnologiyalarının inkişafının növbəti mərhələsi kimi, bəşər tarixində ilk dəfə olaraq, yeni sosio-texnoloji cəmiyyətin əsasını formalaşdırır. Məsələn, həmin intellektual texnologiyalar əsasında yaradılmış çatbotlar ayrı-ayrı fərdi süni intellekt sistemlərinin üzərində qurulan bir intellektual metasistemdir. Bu metasistemi kollektiv süni intellektin formalaşması kimi də qəbul etmək olar. Yəni insan cəmiyyətinin fərdi təbii intellekti necə ictimailəşir, inkişaf edirsə, paralel olaraq, süni intellekt də sürətlə sosiallaşır, inkişaf edir. Başqa sözlə, süni intellektin xüsusilikdən, ümumilikdən super intellekt səviyyəsinə yüksəlməsi bir istiqamətdirsə, ikinci istiqamət isə onun başqa süni intellekt daşıyıcıları olan qurğular, proqram məhsulları ilə qarşılıqlı əlaqələndirilməsidir. Bu zaman kütləvi şəkildə bir-birilə əlaqələndirilmiş süni intellekt qurğuları kollektiv süni intellektin yaradılması üçün ciddi intellektual texnoloji platforma formalaşdırır.

**– Fəaliyyəti tənzimlənən, yəni reqlamentləşdirilmiş süni intellekt haqqında nə deyə bilərsiniz?**

– Reqlamentləşdirilmiş süni intellekt dedikdə, insan tərəfindən fəaliyyət çərçivəsi, parametrləri, tələbləri verilən, tənzimlənə bilən və idarə olunan süni intellekt nəzərdə tutulur. Lakin süni intellekt öz-özünə öyrənmə kimi bir xüsusiyyətə malikdir ki, bu da onun müəyyən müddətdən sonra qəbul olunmuş normaları, reqlamenti aşmasına gətirib çıxara bilər.

Yeri gəlmişkən, qeyd edim ki, hazırda süni intellektin müəyyən müddətdən sonra ilkin reqlamentdən kənara çıxması, onun hansı şəraitdə necə qərar qəbul etməsi də süni intellektin yaratdığı ən böyük təhlükələrdən biridir. Çünki süni intellekt texnologiyaları ən mürəkkəb funksiyaları üzərinə götürür və bu funksiyaları həyata keçirərkən süni neyron şəbəkələri əsasında formalaşan dərin təlim metodlarından istifadə edir. Smart texnoloji mühitdə generasiya olunan biliyin, qərarın özünün əldə olunmasının izah oluna bilinməməsi kimi ciddi bir məqam süni intellekt sisteminin gələcəkdə özünü necə aparacağını proqnozlaşdırmağa imkan vermir və bu səbəbdən də ciddi risklər yaranır. Belə ki, süni intellektin qəbul edəcəyi qərarlar cəmiyyət üçün təhlükəli ola, insanların sağlamlığına və s. ciddi ziyan vura da bilər.

Digər tərəfdən, artıq kibertəhlükələrin özləri də bu smart texnologiyalardan istifadə etməklə intellektuallaşırlar. Yəni bütün bu intellektual texnologiyalar, eyni zamanda bədniyyətli insanların əlində çox güclü vasitəyə, silaha çevrilir. Ona görə də ölkənin bu istiqamətdə informasiya təhlükəsizliyinin təmin olunması, kiberdayanıqlılığının daha da yüksəldilməsi üçün aidiyyəti qurumlar, alimlər və mütəxəssislər intellektual potensialını səfərbər edərək kompleks işlər həyata keçirirlər.

**– Süni intellektlə əlaqədar cəmiyyəti düşündürən vacib suallardan biri də iş yerlərinin azalması məsələsi ilə bağlıdır. Siz necə düşünürsünüz, bu istiqamətdə təhlükə varmı?**

– Sözsüz ki, süni intellektin bəzi işçi qüvvəsini əvəz etməsi müəyyən təhlükələr yaradır. Lakin bunu bilavasitə süni intellektlə, müasir texnologiyalarla əlaqələndirmək düzgün deyil. Çünki bəşər tarixində insanlar hər zaman öz varlığını, ilkin həyat şəraitini təmin etmək, həmçinin müəyyən təhlükələrdən qorunmaq, qarşılarına qoyduqları müxtəlif məqsəd və arzulara çatmaq üçün heyvanları əhliləşdirərək, onlardan nəqliyyat, yükdaşıma vasitəsi kimi və digər məqsədlər üçün istifadə ediblər. İnsanlar bütün dövrlərdə özlərinə köməkçi axtarıblar, öz əməyini yüngülləşdirməyə, daha yaxşı yaşamağa, qarşıda dayanan problemləri aradan qaldırmaq üçün mövcud imkanlardan istifadə etməyə və yeni imkanlar qazanmağa çalışıblar. Bütün bunlar hər dövrün reallıqlarına və inkişaf səviyyəsinə uyğun əmək bazarının formalaşmasına, yeni peşələrin yaranmasına, eyni zamanda bəzi peşələrin sıradan çıxmasına səbəb olub. Beləliklə, bu qənaətə gəlmək olar ki, süni intellektin sürətli inkişafı ilə əlaqədar olaraq iş yerlərinin azalması ilə bərabər, yeni peşələrin də meydana çıxması təbii prosesdir.

Bugünkü reallıq ondan ibarətdir ki, insanların uzunmüddətli intellektual fəaliyyətinin nəticəsi olaraq yeni texnologiyaların meydana gəlməsi və insanların həyatının tərkib hissəsinə çevrilməsi əmək bazarına əhəmiyyətli dərəcədə təsir edir və onu dəyişdirir. Bunun nəticəsində sivilizasiyanın yeni inkişaf mərhələsinə qədəm qoyacağı proqnozlaşdırılır. Bu səbəbdən son zamanlar V və VI sənaye inqilablarının çox da uzaqda olmadığından bəhs edilir.

Müasir dövrdə onlayn fəaliyyət göstərmək üçün çox sayda iş yerləri, ixtisaslar yaranmaqdadır. Mobil telefonlar, veb-saytlar, sosial şəbəkələr və s. kimi platformalarda insanlar hətta bir neçə iş yerində çalışmaq üçün böyük imkanlar qazanırlar.

Başqa sözlə, müasir dövrdə cəmiyyətin inkişafının ümumi tendensiyası ondan ibarətdir ki, süni intellekt texnologiyaları təqdim etdikləri geniş üstünlüklər sayəsində ən ali varlıq olan insanı adi, sadə, rutin əməliyyatları icra etməkdən azad edir və insanları daha ali intellektual fəaliyyətlə məşğul olmağa sövq edir.

Hazırda rəqəmsal transformasiyaların təsiri ilə müxtəlif peşələrdə ciddi dəyişikliklərin baş verməsi nəticəsində insanlardan yeni bilik və bacarıqlar tələb olunur. Bu səbəbdən əmək bazarının xarakterinin dəyişməsi bir çox sahələrdə, eləcə də kadr hazırlığı istiqamətində yeni tələblər və vəzifələr qoyur. Əlbəttə ki, müxtəlif qurumlar, həmçinin insanlar anlayırlar ki, bu çağırışlara cavab verən cəmiyyətin vətəndaşı olmaq, aparılan işlərdə yaxından iştirak etmək, öz hüquq və vəzifələrini həyata keçirmək üçün bu texnologiyalara dərindən bələd olmaq, onların inkişafı ilə ayaqlaşmaq lazımdır.

**– Rasim müəllim, Azərbaycanda süni intellekt texnologiyalarının meydana gəlməsi və inkişaf səviyyəsi hansı vəziyyətdədir?**

– İlk olaraq, qeyd etmək istərdim ki, 1950–1960-cı illərdə – süni intellekt texnologiyalarının tətbiq olunmağa başladığı ilk zamanlarda Sovet hökumətinin tərkibində olan Azərbaycanda da süni intellekt təşəbbüsləri ilə bağlı bir sıra araşdırmalar aparılır, layihələr həyata keçirilirdi. Hələ 1970-ci illərdə bu tədqiqatlara Kibernetika İnstitutunda, indiki İdarəetmə Sistemləri İnstitutunda və digər elm-təhsil müəssisələrində də başlanılmışdı. Həmin illərdə Azərbaycan Elmlər Akademiyasında süni intellektin texnoloji aspektləri ilə yanaşı, fəlsəfi və fizioloji problemləri ilə bağlı tədqiqatlar da aparılırdı.

1980-ci illərdən sonra professor Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsinin ölkəmizdə aparılan tədqiqatlara çox böyük təsiri oldu. Natamam informasiya, qeyri-müəyyənlik şəraitində qərarların qəbul edilməsi, qeyri-səlis qərar qəbuletmə, obrazların, təsvirlərin tanınması, maşın təlimi, ekspert sistemlərinin yaradılması istiqamətində elmi-nəzəri araşdırmalara başlanıldı və bu araşdırmaların nəticələrinin neft-qaz, kimya sənayesində və digər sferalarda tətbiqi həyata keçirildi. Bu istiqamətdə əldə olunmuş elmi-nəzəri və praktiki nailiyyətlərə görə bir qrup alimimiz SSRİ Dövlət Mükafatına layiq görüldü.

Müstəqil Azərbaycanın bugünkü inkişaf mərhələsində isə dövlət başçısı İlham Əliyev ölkəmizdə süni intellekt texnologiyalarının inkişafına böyük diqqət ayırır. Məlum olduğu kimi, müxtəlif ölkələrdə süni intellekt texnologiyaları ilə bağlı milli strategiyalar qəbul olunur. Bu təşəbbüslərə artıq ölkəmizdə də başlanılıb. Hazırda bu işlərin dövlət tərəfindən dəstəklənməsi, müvafiq qurumlara bununla bağlı müəyyən tapşırıqların verilməsi, innovativ layihələrə dəstək göstərilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Azərbaycan alimləri də bu prosesdə yaxından iştirak edirlər.

Son zamanlar çoxsaylı süni intellekt problemləri, o cümlədən “ağıllı” infrastrukturların qurulması ilə bağlı məsələlərin tədqiq olunması Azərbaycan alimləri qarşısında vəzifə kimi qoyulub. Azərbaycan Milli Elmlər Akademiyasının, Elm və Təhsil Nazirliyinin müvafiq elmi-tədqiqat institutları, ali təhsil müəssisələri süni intellekt məsələlərinə böyük əhəmiyyət verirlər. Bu istiqamətdə kadr hazırlığı, tədris proqramlarına süni intellekt problemləri ilə bağlı yeni fənlərin əlavə olunması, müxtəlif dövlət qurumlarının fəaliyyətində, ayrı-ayrı infrastruktur layihələrində bu texnologiyaların geniş tətbiq olunması işləri uğurla həyata keçirilməkdədir. Qeyd etmək lazımdır ki, ölkə Prezidentinin birbaşa dəstəyi ilə bu sahədə yüksəkixtisaslı kadrların yetişdirilməsi üçün gənclərimiz xaricdə təhsil üzrə dövlət proqramı çərçivəsində dünyanın müxtəlif ölkələrində yüksək təhsil almaq imkanı qazanırlar.

Bir əhəmiyyətli faktı nəzərə çatdırmaq lazımdır ki, bu gün Azərbaycan alimləri kompüter elmləri sahəsində Qafqazda birinci yerdədirlər. Alimlərimiz ABŞ-ın Stenford Universitetinin “Dünyanın ən nüfuzlu alimlərinin reytinq siyahısı”nda təmsil olunurlar.

Sevindirici haldır ki, artıq ölkəmizdə süni intellekt ideyalarının əhəmiyyətini, üstünlüklərini hər kəs anlayır, gənclərimiz bu texnologiyalara böyük həvəs göstərirlər. Elm və Təhsil Nazirliyi tərəfindən təşkil olunan “Sabahın alimləri” müsabiqəsi, şagirdlərə rəqəmsal bilik və bacarıqların aşılanması layihəsi olan STEAM, bu yaxınlarda ölkəmizdə keçirilmiş TEKNOFEST Aviasiya, Kosmik və Texnologiya Festivalı kimi təşəbbüslər gənclərin bu sahəyə marağının artırılmasına böyük dəstək verirlər.

***Müsahibəni apardı:***
***Anar TURAN***
***XQ***

Klassik əsərlər kinoda

# "Axırıncı aşırım"da qalan kişilər

**Yəqin, duydunuz ki, söhbət hansı aşırımdan, hansı kişilərdən gedəcək. Bəli mövzumuz unudulmaz yazıçı-ssenarist Fərman Kərimzadənin "Qarlı aşırım" romanı əsasında 1971-ci ildə ekranlaşdırılmış "Axırıncı aşırım" filmindəki atlarını çapıb gedən kişilərin mənəvi dünyasıdır.**



Əvvəla, deyək ki, filmdəki hadisələr tarixi faktlara əsaslansa da, dəqiq yerin göstərilməməsi epoxal ümumiləşdirməyə xidmət edib. Önəmli olanı film çəkilən vaxtlarda sovet ideologiyasına xidmət etmək idi. Yəni Kərbəlayi İsmayıl, Qəmlo kimi kişilər "sinfi düşmən" qismində qələmə verilməklə bərabər, həm də öz xalqının bədxahı kimi təqdim olunmalı idilər. Onlara qarşı çıxanlar isə, guya, şura hökumətinə sadiq olan kasıb camaat imiş. Sonda ikincilər qalib gəlməli idilər. Axı kommunistlər "qurbanlar verib, xalq hakimiyyəti" qurmuş və hamını bərabərləşdirmişdilər. Bəli varlını da kasıb eləmişdilər.

Bunlar o vaxt filmə baxanda görə bildiklərimizdir. İndi isə həmin filmlərin arxa planında və alt qatında qalmış məqamlar daha çox diqqət çəkir. "Sinfi düşmən"lərin öz məntiqi olmuşdu. İndi onların o vaxt dediklərinin "neqativ"ini dəyişən zamanın işığı aşkarlayır. Məlum olur ki, "sonuncu aşırımda" kişilər cismən məhv edilsələr də, mənəvi qaliblər elə onların özləri imiş.

## Bəylik – milli ləyaqət

Kinonun qızıl dövrü adlandırılan həmin illərdə güclü kişi obrazları yaradılmış 3 ekran əsəri daha çox diqqətçəkəndir: Tofiq Tağızadənin "7 oğul istərəm", Hüseyn Seyidzadənin "Dəli kür" və Kamil Rüstəmbəyovun "Axırıncı aşırım" filmləri. Hər 3 film eyni ideyaya xidmət edir: sovet ideologiyasına görə, Kərbəlayi İsmayıl, Gəray bəy və Cahandar ağa düşməndirlər. Bu 3 film məhz Adil İsgəndərovun kinoya rəhbərlik etdiyi illərdə çəkilib. Səbəbini düşünəndə anlayırsan ki, Adil müəllimin özü də həmin kişilərin xəmirindən yoğrulubmuş.

Filmlərin hər birində sətiraltı mənalar aydın sezilir. Onların dialoqlarda əksini tapmış əyilməzliyi vaxtilə "sinfi düşmən"in kəskinliyi, yeni quruluşa qarşı barışmazlığı anlamına gəlirdi və onların məhv edilməsinin zəruriliyini əsaslandırırdı. İndi isə bu məşhur dialoqlar üsyan qaldırır, bəraət istəyir. Bu günün nəzəri ilə baxdıqda üç obrazın hər biri əslində millətin dayağı, xalqın, Vətənin, torpağın azadlığını düşünən, əyilməz əsilzadə bəylərin mükəmməl obrazlarıdır.

## Bəyliyin izi itmir...

Sovet sisteminin qılıncının qəbzəsi də kəsən vaxtlarda bu gerçəyi kütləvi filmə gətirmək, hakim imperiya qayçısından salamat keçirmək o qədər də asan məsələ deyildi. Bunun üçün onların "sinfi düşmən"liyini də gərək ortaya qoya idin. Kimin dost, kimin düşmən olduğunu isə zaman ayırd etməli imiş. İndi məlum olur ki, həmin 3 obrazın arxasında elə Adil İsgəndərovun öz bəyliyi gizlənibmiş. Nə yaxşı ki, bu möhtəşəm kişi də sovet senzurası ilə ideologiya vuruşunda qalib gəlib.

"Axırıncı aşırım" filmi müxtəlif sonluqlarla iki variantda lentə alınıb. Azərbaycan dilində olan versiyada Qəmlonu Kərbəlayi İsmayıl, ruscasında isə Yədullanın (Yədulla, Kərbəlayi İsmayılın ölən oğludur) məzarının yanında gizlənən bir qaçaq öldürür. Hazırda hər iki variant Dövlət Film Fondunda qorunub saxlanılır.

Rejissor Kamil Rüstəmbəyov filmin sonunu elə çəkmişdi ki, Qəmlo Kərbəlayinin sözünə məhəl qoymayıb atlıların ardınca yollanır və Abbasqulu bəyi öldürür. Sözü yerə düşən Kərbəlayi isə atını Qəmlonun ardınca çapır, amma gecikir və Abbasqulu bəyi xilas edə bilmir, qəzəblənib Qəmlonu öldürür. Kərbəlayinin belə ədalətli göstərilməsi Moskvadakı senzuranın xoşuna gəlmir və rejissordan filmin sonluğunu dəyişməsini tələb edirlər. Rejissor məcbur olub daha bir epizod əlavə edir. Qəmlonu Xudayarın qardaşı öldürür.

Film yenidən montaj edildikdən sonra ekranlara çıxır. Amma əvvəlki variantın izləri qalır. Diqqətlə baxanlar görürlər ki, Kərbəlayinin adamlarından biri təşviş içərisində gəlib kəndlilərə xəbər verir: Kərbəlayi Qəmlonu gəbərtdi. Senzorun gözündən yayındırılaraq filmdə saxlanılan bu səhnə milli kinematoqrafın uğuru idi.

Bu ölməz ekran əsərinin uğurunun bir qaynağı da Adil İsgəndərov, Həsən Məmmədov, Məlik Dadaşov tandemidir. Bu da kinostudiya rəhbərliyinin və rejissorun düzgün seçimi idi. Sonrakı nəsil kişi obrazlarını canlandıran Həsən Turabov, Hamlet Xanızadə, Şahmar Ələkbərov onların təcrübə məktəbini keçiblər.

## Bəyliyə layiq oyun

**Aktyor Əbdül Mahmudov (Bəylər) filmin çəkilişi zamanı aktyorların bəyliyə layiq oyun və davranışlarını belə xatırladı:**

– İki epizodu danışacağam. Birincisi odur ki, Məlik müəllimin şapalağının izi dodağımda hələ də qalır. Şillə, əslində, Fazil Salayevə vurulmalı idi. Boğazında zobu vardı, dedi partlaya bilər. Odur ki, epizod mənim üstümdə çəkilməli oldu. Kamil Rüstəmbəyovla Məlik Dadaşov sözü bir yerə qoyublar. Mənə də sellafonda mürəbbə suyu veriblər, qoymuşam ağzıma ki, şillədən sonra yıxılanda onu da ağzımda dişləyib yayam dodağıma.

Sözü bir yerə qoyublar ki, təbii alınsın deyə şillə həqiqi olsun. Məlik müəllim də mənə tutarlı bir şillə çəkdi. Mən də özümü yıxılmağa hazırlamış adam kimi, zərbədən arxası üstdə necə getdmsə, başım dəydi arxadakı pəncərəyə. Dodağım həqiqətən də partladı, ağzımdakı sellafon isə getdi qarnıma. Özümü güclə ələ aldım.

Rəhmətlik Adil İsgəndərov çox əsəbiləşdi və qorxdu ki, mənə nə isə olar. Qalxdım, dedim, eybi yox, ustad, qoy, belə canlı çıxsın.

İkinci epizod isə Abbasqulu bəyin ölüm səhnəsidir. Vurdular onu, qayadan yıxıldı. Qobustanda çəkilirdik. Kaskadyor bəzi məqamlarda onu əvəz etməli idi, nə qədər başa saldılar ki, üzünü kameraya çevirmə, xeyiri olmadı. Axırda Həsən Məmmədov rəhmətlik dedi ki, özüm çəkiləcəm. Qayadan aşanda yazığın qolu-qıçı şiltikləndi. Çəkilişlər başa çatanadək ona toxunmaq olmurdu, yaraları sızıldayırdı. Aktyorlar çəkiliş zamanı bəy obrazlarının dərin təsiri altında idilər və özlərini onlara layiq aparmağa çalışırdılar. Adil müəllim isə canlı bəylik timsalı idi.

Kamil Rüstəmbəyov Adil İsgəndərovun yetirməsi idi. Adil müəllim həm onun ustadı, həm də kinostudiyanın direktoru olduğundan rejissor ona söz deməyə ürək eləmirmiş. Bunu anlayan Adil İsgəndərov deyir: Qadam, nə qədər ki, çəkiliş gedir – mən aktyoram, sən rejissor.

## Bəyliyi yaşadan kişilik

Film 1972-ci ildə Tbilisidə V Ümumittifaq kinofestivalında uğurla qarşılanıb. Festivalın "Ən yaxşı kişi roluna görə" mükafatını 2 aktyor alıb – Həsən Məmmədov Abasqulu ağa, Adil İsgəndərov isə Kərbəlayi roluna görə. Adil İsgəndərov elə tədbirdəcə öz mükafatını Qəmlonun ifaçısı Məlik Dadaşova təqdim edərək deyib: "O məndən də yaxşı kişi obrazı yaradıb". Xatırladaq ki, həmin vaxt onlar küsülü olublar. Bax bu özü də gerçək bir kişilikdir.

Filmin bəstəkarı və dirijoru Arif Məlikov, redaktoru İntiqam Qasımzadədir. Ceyhun Mirzəyevlə Nicat Feyzullayev filmdə rejissor assistenti olublar.

"Axırıncı aşırım"ın bəzi dialoqları dillər əzbəridir: "Abasqulu ağanın nazı ilə çox oynayırsan ha, Kərbəlayi", "Hökumət adamı görəndə əllərim gicişir", "Bir dəli şeytan deyir, bunların atlarının ayaqlarının altını tut atəşə, qalxsınlar şahə, çırpsınlar bunları yerə", "Namusumuz, qeyrətimiz var, dözərik", "Evin kişisini soruşarlar", "Sel gələndə birinci çör-çöp gətirər, ağır kötüyü onun gur yeri gətirər. İndi kötüyü qabağa veriblər.", "Adə, Səməd, ölmüsən?", "Qışın günündə bu nə yaylağa çıxmaqdır, Kərbəlayi?", "Canımıza elə bir od salmayıblar ki, aranda otura bilək", "Evimi aldılar, dinmədim, malımı aldılar, dinmədim. Əşi, naxırımı otaranın biri gəlib mənimlə bərabər olsun? İndi də deyirlər torpağını ver. Sabah deyəcəklər papağını da ver, namusunu da. Mən belə hökuməti tanımıram, vəssalam", "Kərbəlayi başını itirib, oğlu da yadından çıxıb", "Oğlum Yadullanın müsibəti belə olmamışdı" və s.

Bütün bu deyimlərdə əksini tapan əsas keyfiyyət "Axırıncı aşırım"da qalan kişilərin mənəvi dünyasıdır – kişilik dəyərləridir.

***R. QURBANLI***
***XQ***

# Xəbərlər

## Qazaxıstanda Şuşa günləri



***Şuşa şəhərinin 2023-cü il üzrə "Türk dünyasının mədəniyyət paytaxtı" statusunu daşıması ilə əlaqədar Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihəsi çərçivəsində bu həftə Qazaxıstanın Astana və Türkistan şəhərlərində keçirilən tədbirlər bütövlükdə Qarabağın tarixi və mədəniyyətinin təbliği baxımından önəmli olub.***

Mədəniyyət günləri Şuşa şəhər Dövlət Qoruğu İdarəsinin Qazaxıstan Respublikası Mədəniyyət və İnformasiya Nazirliyi ilə birgə əməkdaşlığı çərçivəsində təşkil edilib. Açılış mərasimlərində Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyinin komitə sədri Kumis Seitova, Fondun prezidenti Günay Əfəndiyeva, Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov, Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Türkistan vilayəti başçısının müavini Beisenbay Tajıbayev çıxış ediblər. Bu kimi tədbirlərin iki ölkə arasındakı münasibətlərin daha da gücləndirilməsinə xidmət etdiyi vurğulanıb.

Tədbirlərdə Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi tərəfindən hazırlanmış, Şuşada hazırda davam edən yenidənqurma işlərini əks etdirən qısa videomaterial nümayiş olunub. Sonra Azərbaycan Milli Geyimlər Mərkəzində hazırlanmış "Qarabağ" Qadın Milli Geyim Kolleksiyası təqdim edilib. Şuşaya həsr olunmuş rəsm əsərləri sərgilənib. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən 7 türk ölkəsini təmsil edən qadın musiqiçilərdən ibarət "Yeddi Gözəl" qrupunun konserti qonaqlara unudulmaz anlar yaşadıb.

Qeyd edək ki, "Şuşa günləri" layihəsi daha öncə Bursa, Daşkənd və Budapeşt şəhərlərində uğurla keçirilib.

## Naxçıvan teatrı mövsümü açıb

***Yaranmasından 150 il ötən peşəkar milli teatrımızdan cəmi 9 yaş kiçik olan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı özünün 140-cı yubiley mövsümündə bir sıra nailiyyətlər qazanıb.***



Ötən il burada sənətsevərlərə 4 yeni tamaşa təqdim edib. "Heydər Əliyev İli" çərçivəsində Aqşin Babayevin "Xilaskar" əsəri əsasında eyniadlı tamaşa xüsusi maraqla qarşılanıb. Yeni – 141-ci mövsüm ərəfəsində isə teatrın truppası Gəncədə qastrol səfərində olub. Kollektiv Gəncə Dövlət Dram Teatrının səhnəsində Viktor Hüqonun "Edama məhkumun son günü" tamaşası ilə çıxış edib. Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Mir Qabil Əkbərov, quruluşçu rəssamı Səyyad Bayramov, xoreoqrafı Lamiyə Əliyevadır.

***

**Qədim diyarda cari teatr mövsümünün açılışı da yaddaqalan olub.**

Naxçıvan Muxtar Respublikasının mədəniyyət nazirinin müavini Həsən Seyidov teatrın keçdiyi inkişaf yolundan danışıb. Prezident İlham Əliyevin "Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamının icrası ilə bağlı Naxçıvan Dövlət Milli Dram Teatrında "Təməl", Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında "Sınaq" teatr-studiyasının yaradıldığını diqqətə çatdıran nazir müavini bildirib ki, Naxçıvan teatrı yeni mövsümdə Elçin Əfəndiyevin "Şekspir", Jan Batist Molyerin "Skapenin kələyi" əsərləri əsasında səhnələşdirilən tamaşalarla izləyici qarşısına çıxacaq.



Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev məddah libasında səhnəyə çıxaraq nağılvari dillə Naxçıvan teatrının yaranmasından, milli ziyalıların teatrın inkişafı naminə gördüyü işlərdən danışıb.

Sonra Naxçıvan Teatrının inkişafında böyük xidmətləri olan görkəmli şəxsiyyətlərin – Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, Eynəli bəy Sultanovun obrazları sənətsevərləri salamlayıblar. Ardınca isə Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyası nümayiş olunub.

## Borçalı igidləri zəfər yürüşündə




***Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun "Borçalıdan Şuşaya gedən yol" adlı yeni kitabı işıq üzü görüb.***

Bu, müəlifin eyni adda hazırladığı 2-ci kitabdır və 2020-ci ilin payızında ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən 44 günlük müharibədə şərəflə vuruşaraq şəhid və qazi olmuş Borçalı əsilli soydaşlarımızdan bəhs edir.

Birinci kitabda olduğu kimi, bu topluda da Qarabağ müharibəsi şəhidlərinin və bu gün müharibə veteranı kimi şərəfli ad daşıyan soydaşlarımızın həyat hekayələri maraqlı dillə qələmə alınıb. Haqqında söhbət açılanlardan 3 nəfəri Azərbaycanın Milli Qəhrəmanıdır, qalan 40 nəfər isə şəhadətə yüksələn, eləcə də qazi olan və döyüş hünərlərinə görə orden və medallara layiq görülənlərdir.

Kitabın redaktoru polkovnik Elşad Həsənov, məsləhətçi isə polkovnik Telman Budaqovdur.

***Ə.ƏLİYEV***
***XQ***

# Norveçli yazıçı ilin "Nobel"çisi oldu

**Bu ilin ədəbiyyat üzrə Nobel mükafatına norveçli yazıçı-dramaturq Yon Fosse layiq görülüb. İsveçdəki Nobel Komitəsi bunu oktyabrın 5-də elan edib.**



Məlumatda bildirilir ki, yazıçı "söylənilməsi mümkün olmayanları dilə gətirən novator pyeslərinə və nəsr əsərlərinə görə" bu mükafatı qazanıb.

Yon Fosse 1959-cu il sentyabrın 29-da anadan olub. Hekayə, roman, pyeslərlə yanaşı, esse və şeirlər yazır. Zəngin yaradıcılığı "Septologiya" silsilə romanları, 40-dan çox pyes, hekayələr, şeir və esseləri əhatə edir. Əsərləri 40-dan çox dilə tərcümə edilib. 2022-ci ildə ingilis dilinə tərcümə edilən "Yeni ad: Septologiya VI-VII" romanı Buker mükafatının qısa siyahısına düşüb. Yon Fosse həmçinin bədii tərcümə ilə məşğuldur.

Nobel mükafatçısının elan olunmasından öncə İsveç mediasında favoritlər arasında norveçli dramaturq Yon Fosse ilə yanaşı, Çin yazıçısı Can Xue, isveçli və rusiyalı nasirlər Çerstin Ekman və Lyudmila Ulitskaya, keniyalı yazıçı-dramaturq Nquqi Va Thiongo və avstraliyalı yazıçı Cerald Murnine qeyd olunurdu.

Qeyd edək ki, 2022-ci il üçün ədəbiyyat üzrə Nobel mükafatına fransız yazıçı Annie Erno layiq görülüb.

Nobel mükafatı 1901-ci ildən verilir. O cümlədən 120 yazıçı və şair ədəbiyyat sahəsi üzrə mükafatlandırılıb. Alfred Nobelin (1833-1896) vəsiyyətinə görə, bu sahədə mükafat "idealist yönlü ən yaxşı ədəbi əsər"in müəllifinə verilməlidir.

Mükafat ənənəvi olaraq dekabrın 10-da, Nobelin vəfat etdiyi gün qalibə təqdim olunacaq.

Xatırladaq ki, oktyabrın 2-də başlayan Nobel həftəsində bundan öncə fiziologiya və tibb, fizika və kimya sahələri üzrə mükafatçılar elan olunub. 2023-cü ildə hər kateqoriya üzrə Nobel mükafatı 1 milyon dollar təşkil edir.

***XQ***

# "Qorqud Ata" türk xalqları filmlərini Bakıya gətirir

**Oktyabr 8–11-də Bakı və Şuşa şəhərlərində III "Qorqud Ata" Türk Dünyası Film Festivalı keçiriləcək. Festival Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, TÜRKSOY, Azərbaycan Respublikası Kino Agentliyi və Bakı Media Mərkəzinin birgə təşkilatçılığı ilə reallaşacaq.**

Təşkilat Komitəsindən verilən məlumata görə, festivalın məqsədi Türk dünyasının birliyini və türk xalqları arasında mədəni əməkdaşlığı inkişaf etdirmək, türk dövlətlərinin iştirakı ilə ortaq audiovizual məkan yaradaraq xalqlarının bu məkana inteqrasiyasına töhfə verməkdir. 2021-ci ildən təşkil olunan bu festival ilk olaraq İstanbulda, ötən il isə Bursada keçirilib.




Builki festivalda Türkiyə mədəniyyət və turizm nazirinin müavini Batuhan Mumcu, Özbəkistan Mədəniyyət Nazirliyi yanında Kinematoqrafiya Agentliyinin direktoru Firdavs Abduxalikov, Özbəkistan Respublikası Kinematoqrafçılar İttifaqının sədri Matyakub Matçanov, Qazaxıstan Respublikası "Milli Kinoya Dövlət Dəstəyi Mərkəzi" QSC-nin İdarə Heyətinin sədri Kurmanbek Jumaqali, "Qazaxfilm"in prezidenti Azamat Satıbaldı və digər türk dövlətlərinin müvafiq sahə üzrə rəsmi şəxsləri, TÜRKSOY-un rəhbərliyi, eləcə də tanınmış türkiyəli kinorejissor Semih Kaplanoğlu, ümumilikdə kinematoqrafçılardan ibarət 100-dən çox xarici qonağın iştirakı nəzərdə tutulur.

Festivala Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistanla yanaşı, Qaqauz Yeri (Moldova), Tatarıstan, Altay və Başqırdıstandan (Rusiya Federasiyası), həmçinin azsaylı türk xalqlarından təqdim olunan 40-a yaxın bədii, sənədli və animasiya filminin Nizami Kino Mərkəzində nümayişi baş tutacaq.

Festival çərçivəsində türk dövlətlərindən olan tanınmış kinematoqrafçıların TÜRKSOY tərəfindən 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmiş Şuşa şəhərinə tanışlıq səfərinin təşkil edilməsi və Bakıda zirvə toplantısının keçirilməsi nəzərdə tutulur.

***XQ***

Yaddaşlarda yaşayanlar

# Əgər ki, yıxılsam, çinar göstərin...

## Nəbi Xəzri söz verdiyi müsahibədən nə üçün imtina etdi?

**Onu televiziyada çox görmüşdüm. İlk dəfə yaxından görməyim isə qəribə bir təsadüf nəticəsində olmuşdu. Belə ki, Nərimanov prospektinin (İndi Hüseyn Cavid prospekti) Mikayıl Müşfiq küçəsi ilə kəsişməsindəki "Almaz" zərgərlik mağazası olan bina partlamışdı. Hamı kimi biz – 20-ci sahə deyilən ərazidəki Neftçilər yataqxanasının sakinlərindən üç-dörd nəfər də hadisə yerinə getmişdik.**



Bir də gördüm Nəbi Xəzri camaatın arasındadır və kiminləsə söhbət edir. Bayaqdan partlayış haqqında bir-birinə "təfsilat" xarakterli "məlumatlar verən" izdihamın diqqəti qeyri-ixtiyari şairə yönəldi. Otaq yoldaşımız Oqtay soruşdu ki, o kimdir? Dedim, Nəbi Xəzri. Oqtay çıxışa hazırlaşırmış kimi boğazını arıtlayaraq dedi: "Əgər ki, yıxılsam çinar göstərin, mən ona söykənib arana baxım". Dedim, bəli.

Sonralar Nəbi Xəzrini Qoşa qala qapılarının qarşısındakı meydanda Sabir Poeziya günləri münasibətilə şairin abidəsi önündə keçirilən tədbirdə gördüm. Tədbiri professor Abbas Zamanov aparırdı.

Daha sonralar Dövlət Filarmoniyasında onun 50 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etdim. Rəhmətlik Rəsul Həmzətov ona avar yapıncısı bağışladı və israrla xahiş etdi ki, geyinsin. Yapıncını Nəbi müəllimə geyindirdilər və Rəsul Həmzətov gülərək dedi ki, çox əzəmətli göründün. Nəbi Xəzrinin cavabı da maraqlı idi: "Bəli, yapıncı məni əzəmətli göstərdi. Ancaq avarlar yapıncısız da möhtəşəm və əzəmətlidirlər."

... 1992-ci ilin sentyabr ayı idi. Mən o günlərdə Dövlət radiosunda işləyirdim. Prezident Aparatından (o zaman məhz elə adlanırdı) Teleşirkət rəhbərliyinə tapşırmışdılar ki, Prezident Əbülfəz Elçibəyin hakimiyyətinin 100 günü münasibətilə görkəmli ziyalıların dediklərini yazaq və efirə verək. Həmsöhbətləri şirkət sədrinin radio üzrə müavini Şamil Məcidov müəyyən edir və bəziləri ilə özü telefon əlaqəsi yaradaraq görüş vaxtını dəqiqləşdirirdi. Bəstəkar Arif Məlikov və şair Nəbi Xəzri ilə görüşməyi mənə həvalə etmişdilər. Arif müəllimlə söhbətimiz efirə gedəndən sonra yaxşı əks -səda verdiyinə görə Nəbi müəllimlə görüşə daha böyük həvəslə getdim.

Nəbi müəllim əvvəllər Teleradio sədrinin müavini vəzifəsində çalışdığına görə kollektivdə hamı onun xasiyyətini bilirdi və ona görə də işdə mənə demişdilər ki, bugünkü həmsöhbətin müsahibə verməyə o qədər də həvəs göstərmir. Amma deyilən olmadı.

Onun iş yerinə – Korqanov, indiki Rəsul Rza küçəsində yerləşən "Azərbaycan Dünyası" Beynəlxalq Əlaqələr Mərkəzinə getdim. Mehribanlıqla qarşıladı. Adımı soruşdu. Dedim. Verilişlərimdən bir neçəsini eşitdiyini söylədi, məmnun oldum. Çay və şirniyyat gətirdilər və tam arxayın oldum ki, tapşırığı yüksək səviyyədə yerinə yetirəcəyəm.

Bir qurtum çay içib, məqsədimi soruşdu. Dedim, cənab Prezidentin hakimiyyətinin 100 günü münasibətilə görkəmli ziyalıların fikirlərini öyrənir, təbriklərini lentə alırıq.

Stəkanı yerə qoydu:

– Bəs gəlişinizin məqsədini nə üçün mənə deməmisiniz?

Dedim: – Sizə mən zəng eləməmişəm, sədr müavini zəng edib.

Stəkanı bir də götürdü və bir də yerə qoydu:

– Bəlkə də ölkədə Əbülfəz Elçibəyi ən yaxından tanıyanlardan biri də mənəm. O, həqiqi vətəndaşdır, məsuliyyətli ziyalıdır, tanınmış alimdir, yaxşı insandır... Amma, o siyasətçi, dövlət adamı deyil, axı! Niyə məni istəmədiyim müsahibəni verməyə təhrik edirsiniz? Şamil Məcidova deyin ki, Nəbi Xəzri bu məzmunda müsahibə vermək istəmədi. Soruşsa nə üçün, deyin ki, o, öz müsahibəsini Prezidentin bir illiyinə saxladı.

Sonra səsini bir az mülayimləşdirdi ki, mən çox da pərt olmayım:

– Gələn ay mənim xarici səfərim olacaq. Qayıdandan sonra gələrsən, bir söhbət yazarıq.

Mən səsyazanın mikrofonunu yığışdıraraq ayağa qalxanda:

– Yox, yox, o çay qismətinizdir, çayı için – dedi ki, vəziyyət bir az da mülayimləşsin.

Lap sonralar – 1998-ci ilin oktyabrında ulu öndər Heydər Əliyevin Prezident kimi ikinci dəfə andiçməsindən sonra Nəbi müəllimin təbrikini yazmışdım.

Allah rəhmət eləsin!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

KÖŞƏ

# Azərbaycan dilinin öz şriftləri olmalıdır

**Keçən əsrin sonlarında Azərbaycan latın qrafikasına keçdi. Keçdi, lakin ilk illərdən yığma şriftlərdən ibarət "Azərbaycn hərfləri"-ni yaratdı və bunun qüsurlu tərəfləri günümüzə qədər davam etməkdədir. İlk illər yığma şriftlərə əsaslanmağa ehtiyac vardı, çünki ölkəmizin kompüter bazası yox idi. Təəssüf ki, indiyə qədər Azərbaycanın öz milli şriftləri yaranmayıb. Halbuki, Azərbaycanda istedadlı rəssamların və peşəkar kompüter proqramçılarının işbirliyi ilə bunu etmək mümkün idi. Həmin işə vaxtında başlansaydı, bəlkə də, bu gün Azərbaycan dilinin 100-ə yaxın bir-birindən fərqli naxışlarla, qrafik incəliklə işlənmiş şriftləri olardı.**



**İlham RƏHİMLİ**
**İlham1949@bk.ru**

Bu gün istifadə etdiyimiz seçmə şriftlərin çapında müəyyən qüsurlar, bəlkə də "pintiliklər", zövqsüzlüklər nəzərə çarpır. Fikrimi çatdırmaq üçün əsasən daha çox işlənən "Times New Roman"da olan qüsurları nəzərə çatdırmağa çalışacağam (yeri gəmişkən, bəzi şriftlərdə ə, ö, ü... hərfləri digərlərindən fərqli ölçülərdədir). "A" hərfinin sol və ara xətləri, "B" hərfinin yuxarı, orta və aşağı xətləri, "Ə" hərfinin orta xətti, "F" hərfinin orta üfiqi xətti, "K" hərfinin yuxarı maili xətti, "L" hərfinin alt üfiqi xətti, "M" hərfinin sol şaquli və sağ orta maili xətləri, "N" hərfının sağ və sol xətləri, "Ş" hərfinin alt və üst qanadı, "Z" hərfnin alt və üst xətləri (bəzi şriftlərdə orta xətti), "O" hərfinin yuxarı və alt qövsü, "U" və "Ü" hərflərinin sağ və alt üfiqi xətləri, "Y" hərfini sağ maili xətti nazikdir. Ümumiyyətlə, şriftlərin qalınlığına xüsusi diqqət yetirilməlidir. Kiçik "l" hərfi "1" rəqəmi ilə eynidir və s. və i. a..

Belə fərqli qalınlıqlar əsasən bəzək şriftləri üçün xarakterikdir.

"Times New Roman" şriftlərinin əksər kompüterlərdəki yazılışlarında qüsurlar var.

**1. Ara məsafəsi olmayan və bir-birinə bitişən şriftlər:** "r"-dan sonra "n" hərfi birləşib "m" kimi oxunur; "o"-dan sonra "l" birləşib "d" kimi oxunur; "f"-dan sonra "i"-nin nöqtəsi itir; "f"-dan sonra "l", "c"-dan sonra "t", "ə"-dən sonra "r", "ç"-dan sonra "i" və "ı", "ə"-dən sonra "r" və "c" , "e"-dən sonra "x", "c" və "ç", "r"-dan sonra "x" əksər proqramlarda bitişik görünür. Ümumiyyətlə "f"dan sonra gələn əksər hərflər onun "xortumuna" birləşir, ara məsafəsi qalmır və hərf eybəcər vəziyyətə düşür.

**2. Ara məsafəsi fərqli (çox) olan şriftlər:** "d"-dan sonra "ı" və "s", "n"dan sonra "e" və "i", "m"-dan sonra, "s", "ə", "e", "a"-dan sonra "l", "s" və "ş", "h"-dan sonra "ə" və "e", l-dan sonra "e" və "ə", "m"-dən sonra "l", "x"-dan sonra "e", "q"-dan sonra "d", "c"-dan sonra "t", "ç"-dan sonra "i" və "ı", "n"-dan sonra "ı" və "a" fərqli ara məsafələrindədir. Ümumiyyətlə, "ə" hərfi özündən əvvəlki bir sıra şriftlərdən aralıdır.

**3. Aşağı sətrə "daxil olan", ordakı şriftlərə bitişən böyük hərflər:** "Q", "Ş", "Ç".

**4. Nöqtələri və tacı yuxarı sətrə "mane" olan, onlara bitişən böyük hərflər:** Ğ, "Ö", "Ü", "İ".

**Qeyd.** Kompüterlərin bazasında olan incə, naxışlı şriftlərdən istifadə edəndə "e" hərfi başıaşağı çevirilərək "ə" kimi təqdim olunur. Nəticədə, ümumi bəzək zərifliyinin harmoniyası pozulur. Ümumiyyətlə, ondan çox (əsasən arial tipli şriftlərdə "ə" hərfi qurama olduğuna görə digər hərflərdən ya böyük, ya da kiçik ölçülü görünür.

Qeydlərimin sonunda bir daha nəzərə çatdırıram ki, Azərbaycan dilində çox lətafətli, zərif, müxtəlif psixoloji ovqatlara uyğun, gözlə oxunması yoruculuq verməyən şriftlər yaratmağa, fikrimcə, ciddi ehtiyac duyulur. Ehtiyac olduğu qədər də bu işi yüksək zövqlə reallaşdıra biləcək vətənpərvər sənətkarlarımız var.

Güman edirəm ki, qeydlərim Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və digər əlaqədar qurumların diqqətini cəlb edəcək.

Sosial xəbərlər



### Şəhid övladlarına ustad dərsləri

**Sosial Xidmətlər Agentliyi şəhid övladları üçün masterklass təşkil edib. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində təşkil edilən ustad dərsləri çərçivəsində Vətən müharibəsi şəhidlərinin övladlarından bir qrupuna kulinariya üzrə bilik və bacarıqlar aşılanıb.**

Həmin mərkəzin təlimçiləri və agentliyin Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzinin yetirmələr şəhidlərimizin övladlarına milli mətbəximizin rəmzlərindən biri olan qutabın hazırlanması qaydasını öyrədiblər. Onlar birlikdə qutab bişirərək məharətlərini nümayiş etdiriblər.

Layihənin məqsədi qəhrəman Vətən övladlarının yadigarlarının və əlilliyi müəyyən edilmiş şəxslərin fərdi bacarıqlarının inkişaf etdirilməsi, həmin şəxslərin dünyagörüşünü, motivasiyasını artırmaq, yeni yaradıcılıq uğurlarını stimullaşdırmaq, sosial reabilitasiyasına dəstək olmaqdır.

### 100 kimsəsiz uşaq da ana-atalı oldu

**2023-cü ilin ötən dövründə 100 uşaq övladlığa verilib. Onlardan 51 nəfəri oğlan, 49 nəfəri isə qızdır. Ailələrə verilən uşaqlardan 66 nəfərini yaxın qohumlar övladlığa götürüblər.**

Xatırladaq ki, Prezident İlham Əliyevin fərmanı əsasında 1 noyabr 2019-cu il tarixdən övladlığagötürmə sahəsində idarəetmə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub. Nazirlik bu sahədə idarəetmə və xidmətlərin elektronlaşdırılmasını təmin edib.

Uşaqların övladlığa verildiyi ailələrdə vəziyyətinin öyrənilməsi üçün onlar 18 yaşına çatanadək övladlığagötürmənin birinci ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə olmaqla, nazirliyin əməkdaşları monitorinqlər aparırlar.

Uşaqlarla bağlı reinteqrasiya tədbirləri də davam edir. Həmin tədbirlər nəticəsində bu il dövlət uşaq müəssisələrindən 126 uşaq öz ailəsinə qaytarılıb. Həmin uşaqlardan 67 nəfəri oğlan, 59 nəfəri isə qızdır.

### Daha 170 şəxsə kiçik biznes yaradılıb



**Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa Dəstək Layihəsi" üzrə ölkəmizin bölgələrində daha 170 şəxsə avadanlıqlar verilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər.**

Qeyd olunur ki, verilmiş avadanlıqlarla onlar istehsal və xidmət sahələri üzrə kiçik bizneslərini qurublar.

"Məşğulluğa Dəstək Layihəsi" işsiz kimi qeydiyyata alınmış həssas qruplara aid şəxslərin (əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və b.) özünüməşğulluq fəaliyyətinin təşkilinə dəstək məqsədi daşıyır. Layihə çərçivəsində ümumilikdə 22 min şəxsin kiçik biznesə çıxışına dəstək verilməsi hədəflənib.

### Məşğulluqla bağlı dinləmə

**"Məşğulluğa Dəstək layihəsi" barədə məlumatlılığı artırmaq, nəzərdə tutulmuş hədəf kateqoriyaları layihəyə cəlb etmək məqsədilə Lənkəran şəhərində də ictimai dinləmə keçirilib.**

Görüşdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi, icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər, proqramın gözlənilən faydaları, müraciət və iştirak qaydaları barədə ətraflı məlumat verilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, layihə çərçivəsində öz biznesini qurmaq istəyən işsizlərə müvafiq tövsiyələr verilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

Miranda qurğusunun carı təmiri və təmizlənməsi işlərinin (xidmətlərinin) satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 8 noyabr 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (+994 12) 599 00 03 (daxili 3704).

Ünvan – AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

# "Əsas məqsəd ölkəmizin imicini qorumaqdır"

## "Paris-2024"də də idmançılarımızın test nümunələri Köln laboratoriyasında yoxlanılacaq

**Dünyanın ən nüfuzlu idman yarışları olan Parisdə keçiriləcək Yay Olimpiya və Paralimpiya Oyunlarına 1 ildən az qalıb. Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) olaraq əsas məqsədimiz Azərbaycanın idman imicini qorumaq, təmiz və ədalətli idman prinsiplərinə sadiqlik nümayiş etdirməklə idmançıların hüquqlarını qorumaqdır.**






Bu sözləri "Xalq qəzeti"nə açıqlamasında Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) direktoru Şəfəq Hüseynli bildirdi. Agentliyin dördilliyin zirvə yarışlarına ciddi hazırlaşdığını diqqətə çatdıran Ş.Hüseynli dedi ki, dopinqlə mübarizə sahəsində kompleks tədbirlər həyata keçirilir. İdmançılar arasında maarifləndirmə işinin aparılması Ümumdünya Antidopinq Agentliyinin (WADA) əsas tələblərindən hesab olunur. Təbii ki, rəhbərlik etdiyim qurum da bunu nəzərə alaraq maarifləndirmə işinə xüsusi önəm verir. Cari ilin ilk doqquz ayı ərzində idman federasiyalarının nümayəndələri, idmançılar və onların köməkçi heyəti üçün bu tipli 80-dək tədbir təşkil olunub. Bu tədbirlərdə 2 min 700-dək şəxsə təmiz idman dəyərləri, ədalətli idman prinsiplərinə sadiqlik, dopinqin zərərləri, narkotikdən istifadənin fəsadları haqqında ətraflı məlumat verilib. Sonda həmin şəxslərin bilikləri xüsusi sorğular vasitəsilə yoxlanılıb. Hazırda maarifləndirmə işi davam etdirilir. Maarifləndirmə tədbirləri paytaxtla yanaşı, bölgələri də əhatə edir.

"AMADA-nın fəaliyyətə başladığı 2016-cı ildən idmançılardan götürülən test nümunələri Köln şəhərindəki Almaniya İdman Universitetinin Biokimya İnstitutunun laboratoriyasında yoxlanılır. Həmin laboratoriya WADA tərəfindən xüsusi lisenziyaya malikdir. Bunu xüsusi vurğulamaq istərdim ki, test nümunələrinin WADA-nın akkreditasiyasından keçmiş laboratoriyalarında yoxlanılmasına icazə verilir. Hazırda bizə bir çox inkişaf etməkdə olan ölkələrin laboratoriyalarından əməkdaşlıqla bağlı təkliflər daxil olur. İllərin təcrübəsinə əsaslanaraq Azərbaycan idmançılarının test nümunələrinin Köln laboratoriyasında yoxlanılmasını məqsədəuyğun hesab edirik. Məhz həmin laboratoriya ilə əməkdaşlıq nəticəsində Azərbaycan idmançılarının test nəticələrində şəffaflığa nail oluruq. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə yaradılan AMADA-nın fəaliyyətə başlamasından sonra idmançılarımız arasında dopinq qayda pozuntularının sayının xeyli azaldığının şahidi olmuşuq. Agentliyimiz həmişə ölkəmizdə təmiz idmanının inkişafına töhfə verməyi qarşısına məqsəd qoyub", – deyə Ş.Hüseynli əlavə etdi.

"Paris-2024" Yay Olimpiya və Paralimpiya Oyunlarında Azərbaycan idmançılarının təmiz idman dəyərlərinə sadiqlik nümayiş etdirəcəyinə əminliyini ifadə edən AMADA-nın direktoru Fransa paytaxtında təmsilçilərimizin uğurla çıxış edib üçrəngli bayrağımızı dalğalandıracaqlarına və Azərbaycan Respublikasının Dövlət Himnini səsləndirəcəklərinə inandığını vurğuladı.

***Leyla QURBANOVA***
***XQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 219 (30335) 8 oktyabr 2023-cü il, bazar

Maraq dünyamız

# Planetin “ağciyərləri”

**Amazon cəngəlliyi Yer kürəsindəki oksigenin əhəmiyyətli bir hissəsini istehsal edir, eyni zamanda böyük miqdarda karbon dioksidi udur. Məhz buna görə onu “planetin ağ ciyərləri” adlandırırlar.**



Qeyd edək ki, Amazon meşələri Cənubi Amerikada Braziliya, Kolumbiya, Peru və Venesuela kimi ölkələrin ərazisində Amazon adlı geniş coğrafi bölgədə yerləşir. Ərazidən dünyanın ən böyük sulu çayı olan Amazon axır. Bölgə başdan- başa sıx tropik meşələrlə örtülüdür. Eyni zamanda buranın olduqca zəngin faunası var.

Amazon meşələri 5,5 milyon kvadrat kilometr ərazini əhatə edir. Təəssüf ki, Braziliya və digər qonşu ölkələrdə son illər sənayeləşmə prosesinin sürətlənməsi meşələrin kütləvi qırılmasına səbəb olur.

Ekofəallar buna etirazlarını bildirsələr də, hələlik problemin həlli istiqamətində təsirli tədbirlər görmək mümkün olmur.

*XQ*



# Lazer ildırımı qovur

**Alimlər yeni lazer qurğusundan istifadə edərək səmada ildırımın istiqamətini dəyişməyi bacarıblar. Bu barədə “Amerikanın səsi” məlumat yayıb.**

Bu yenilik ildırım vurması nəticəsində yaranan yanğınların və ölümlərin qarşısını ala bilər. Lazerlər ABŞ-də hər il orta hesabla 43 nəfərin ölümünə səbəb olan təhlükəli hallardan qorunmaq üçün istifadə edilə bilər.

Yeni aparatı sınaqdan keçirmək üçün alimlər 3 tonluq lazer aparatını İsveçrədəki 2 min metr yüksəklikdəki Santis dağına gətiriblər.

Bu yerin üstünlüyü burada çox sayda ildırım vurmalarını dəqiq qəbul edən 400 metrlik rabitə qülləsinin yerləşməsidir.

*S.FİDAN*
*XQ*

İdman xəbərləri

## Cüdoçularımız dünya 2-cisi oldular

**Azərbaycan komandası Portuqaliyanın Odivelas şəhərində gənc cüdoçular arasında keçirilən dünya çempionatını 1 qızıl, 2 gümüş medalla başa vurub.**



Komandamızın üzvləri Vüsal Qələndərzadə (73 kq) qızıl, Nizami İmranov (60 kq) və Vüqar Talıbov (90 kq) isə gümüş medal qazanıblar.

Bu nəticə ilə yığmamız ümumi hesabda 2-ci yeri tutub. Birinci yerdə Yaponiya (9-3-2), 3-cü yerdə isə İtaliya (1-1-2) komandaları qərarlaşıblar.

Komandamız yarışda 8 oğlan, 6 qız cüdoçu ilə təmsil olunub. Turnirdə 68 ölkədən 500-dən çox idmançı mübarizə aparıb.

## Samboçularımızın 4 Bişkek medalı

**Qırğızıstanın Bişkek şəhərində sambo güləşi üzrə yeniyetmələr və gənclər arasında dünya birinciliyi start götürüb. Yarışda iştirak edən Azərbaycan komandası 4 medal qazanıb.**



Gənclərdən ibarət yığmamızın üzvü Sahib Babayev (58 kq) yalnız həlledici mərhələdə uduzaraq gümüş mükafata sahib olub. Yeniyetmələrin yarışında isə təmsilçilərimiz Nicat Sultanov (71 kq) ikinci, Ziyəddin Zeynallı (53 kq), Sulhan Süleymanlı (79 kq) üçüncü yerləri tutublar.

Samboçular milli komandanın baş məşqçisi Vahid Tarverdiyev və gənclərdən ibarət yığmanın baş məşqçisi Bəxtiyar Hacıyevin rəhbərliyi altında ölkəmizi təmsil edirlər.

Oktyabrın 6-da start götürən yarış ayın 9-dək davam edəcək.

## Avropa kuboku: Çimərlik voleybolçularımız yarımfinalda

**Azərbaycanın çimərlik voleybolu üzrə kişilərdən ibarət “Murov Az Terminal” komandası Avropa kubokunda (Beach Volley European Cup) uğurla çıxış edərək çıxış yarımfinala vəsiqə qazanıb.**



Komandamız 1/4 finalda Macarıstanın “SRSE Budapeşt” kollektivini məğlub edib. Belə ki, komandalar arasında keçirilən iki oyundan birində rəqib, digərində isə “Murov Az Terminal” qələbə qazanıb.

Qalibi müəyyənləşdirmək üçün oynanılan qızıl setdə 15:8 hesabı ilə rəqibi məğlub edən Azərbaycan təmsilçisi növbəti mərhələyə çıxıb.

*Leyla SABİRQIZI*
*XQ*

Danışan fotolar silsiləsindən

# Göyərçinlər “Torqovi”da



*Foto İlqar Rüstəmovundur*

Texnologiya yenilikləri

## “WhatsApp”da parolla bloklama

**“WhatsApp” paroldan istifadə edərək söhbətləri bloklamaq üçün yeni funksiyasını təqdim edib. Yenilik artıq bəzi istifadəçilər üçün əlçatandır.**



“WhatsApp”ın Android üçün 2.23.21.8 nömrəli beta versiyasında paroldan istifadə etməklə messencerdə çatları bloklamaq mümkün olub. Üstəlik, smartfonun kilidini açmaq üçün bir cihaz parolu, biometrik məlumat və ya paroldan fərqli kod istifadə etməklə söhbətlər bloklana bilər.

Söhbətləri əlavə parol ilə qorumaq imkanı, hətta kimsə cihazın ekran kilidi parolunu tapsa və smartfona giriş əldə etsə belə, yazışmaların təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırır. Bundan əlavə, bloklanmış söhbətlər parol daxil edərkən açılan ayrıca bölmədə göstərilir. Bu yolla təcavüzkarlar hətta gizli söhbətlərin siyahısını belə görə bilməyəcəklər.

Söhbətlərin bloklanması üçün parol təyinetmə funksiyası işlənmə mərhələsindədir və Android və iOS sistemlərində messencerin gələcək yenilənmələrindən birində “WhatsApp”ın stabil versiyalarının istifadəçiləri üçün əlçatan olacaq.

*XQ*

Həyatın içindən

# Avtobusda “ədəb” dərsi

**Gəlin sizə bir neçə gün öncə şahidi olduğum və məni təəssüfləndirən bir hadisəni nəql edim.**

İstirahət günü rəfiqələrimlə görüşmək üçün “136” nömrəli avtobusa mindim. Sürücü yenə də telefonla danışaraq avtobusu idarə edirdi. Ürəyimdə onu məzəmmət edə-edə ətrafıma boylandım. Gözüm geyimkeçimlərindən qonaqlığa gedənə bənzəyən iki qadına və 11–12 yaşlarında olan oğlana sataşdı. Qadınlardan biri çantasından nəm salfet çıxarıb oğlana verdi ki, ayaqqabılarını təmizləsin. Anladığım qədər o, uşağın anası idi. Uşaq “işini bitirdikdən sonra” isə salfeti elə ayağının altına atdı.

Düşündüm ki, qadınlardan biri zibili yerdən götürər və uşağa etdiyi hərəkətin yanlış olduğunu anladar. Amma qadınlardan heç biri özünə əziyyət vermədi.

Uşağın gözlərinə diqqətlə baxdım ki, bəlkə məni anlayar və atdığı zibili yerdən götürər. Elə də oldu, uşaq mənim qınayıcı baxışlarıma dözməyib çirkli salfeti anasına uzatdı.

Qadın uşağın əlindən o salfeti cəld alıb yenidən avtobusun salonuna atdı və uşağa çəmkirdi:

– Sənə demişəm ki, bu zir-zibili mənə vermə, at yerə!



Təbii ki, mən buna dözə bilmədim və qayıdıb qadına dedim ki, “avtobusu çirkləndirirsiniz, bu, mədəniyyətsizlikdir! O isə cavabında “narahat olma, xanım qız, mədəniyyəti səndən öyrənəsi deyilik” – dedi.

Anasının bu hərəkətindən çox utanan uşaq avtobusdan düşənədək mənim baxışlarımdan yayınmağa çalışırdı. Hiss edirdim ki, uşaq bu hərəkətin qarşısında xəcalət çəkir, amma anasının qorxusundan səhvini etiraf edə bilmirdi...

*Leyla HADİ,*
*tələbə-jurnalist*

Sağlamlıq guşəsi

# “Üçü birində” üçqat zərərlidir

**N.N Petrov adına Milli Tibbi Onkoloji Mərkəzin onkoloqu, qastroenteroloq Artur Bernatski insanları kofedən imtina etməyə çağırıb. Bu barədə “Qazeta.ru” xəbər paylaşıb.**



Həm də dietoloq kimi daim məsləhətlər verən həkim ən zərərli kofe kimi həll edilən “üçü birində”ni göstərib. Bildirib ki, həmin içkinin tərkibində kofein yox, teobromin vardır.

Teobromin, kakao bitkisində olan, $C_7H_8N_4O_2$ kimyəvi formula malik acı bir alkaloiddir. Ona görə həmin kofeni içənlər gümrahlaşmaq əvəzinə, yuxululuğa meyilli olurlar. Hazır kofenin tərkibində kofe turşusu, teobromin qalır ki, onun da orqanizmə yalnız zərəri vardır.

Bernatski “üçü birində” həll edilən içkini kofeinsiz kofe – “surroqat” (ögey qarında inkişaf edən körpə) adlandırıb.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

# “Son bahar”ın ilıq bir günü...



**Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, oktyabrın 8-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi arabir güclənəcək.**

Havanın temperaturu gecə 15-19° isti, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 761 mm civə sütununa enəcək. Nisbi rütubət 60–70 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 24-29° isti, dağlarda gecə 3-8° isti, gündüz 12-17° isti olacaq.

*Q.QƏZƏNFƏR*
*XQ*

Toy sürprizi

## Gəlin zər-ziba altında qaldı

***Şanlıurfa şəhərində keçirilən əşirət toy mərasimə (nüfuzlu iki nəsil arasında izdivac) minlərlə insan qatılıb. Toyun aparıcısı məşhur müğənni Alişan olub. Məlumata görə, məclisə gələnlər bəy-gəlinin başına toplaşaraq, çoxlu pul səpiblər.***



Toyda maraqlı bir məqam da yaşanıb. Belə ki, qonaqlar gəlin Aslı Özdikərə kilolarla bilərziklər, cümhuriyyət qızılları, qızıl kəmər, boyunbağılar və s. taxıblar. Toyda oynamağa qalxan gəlin üzərindəki qızılların ağırlığından onları daşıya bilmədiyinə görə yerinə oturub.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4820
SİFARİŞ 2564
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00